

# 8 noyabr Azərbaycanın Zəfər Günü elan edildi

*Prezident İlham Əliyev Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında sərəncam imzalayıb. "Unikal" xəbər verir ki, sərəncamda deyilir: "XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır.*

Səh.2


# UNİKAL

№41 (2036) 4 dekabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev   www.unikal.org   unikal-1@mail.ru




## Oqtay Şiraliyevin müəmmalı gələcəyi...

Səh.13



## Azərbaycanın ərazi bütövlüyünə heç bir təhdid yoxdur

## Səhiyyə Nazirliyinin ləğv edilməsi və ya ƏƏSMN-ə birləşdirilməsi ilə bağlı müzakirələr yenidən gündəmə gəlib

*Son günlər xüsusilə sosial şəbəkələrdə Səhiyyə Nazirliyi (SN) yenidən tənqid hədəfinə çevrilib. Bu qurumun illər ərzində düzgün idarə olunmaması nəticəsində səhiyyə sistemində ciddi boşluqların meydana gəldiyi vurğulanır. Ardınca isə bildirilir ki, pandemiya dövründə həmin boşluqlar daha aydın görünüb. Elə bu səbəbdən də nazirliyin bir çox səlahiyyətlərinin yeni yaradılan quruma - TƏBİB-ə verilməsi məqsədəuyğun sayılıb. Sosial şəbəkələrdəki müzakirələrdə artıq SN-nin səhiyyə sistemi üzərində funksionallığının qalmadığına və ləğv edilməsinin zəruriliyinə diqqət çəkilir. Digər bir variant isə zaman-zaman gündəmə gələn təklifdir: söhbət adıçəkilən nazirliyin Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə (ƏƏSMN) birləşdirilməsinin mümkünlüyündən gedir.*

Səh.7

## "Hökumət və biz-vətəndaşlar əlimizdən gələn hər bir şeyi düzgün etməliyik"



*Koronavirus pandemiyasının yaratdığı problem daha da dərinləşməkdədir. Son günlər yoluxma və ölüm hallarının sayındakı artım ciddi narahatlıq yaradıb. Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə verən ADP sədrinin müavini, həkim Həsrət Rüstəmov diqqətçəkən məqamlara toxunub.*

Səh.4

## Cahangir Əsgərovun yola salınacağı qətiləşdi



*Yola salmaq üzrə olduğumuz həftə Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, 26 ildir həmin postu tutan polis general-mayoru Ramiz Zeynalov vəzifədən azad olunması ilə bağlı məlumat yayıldı. Lakin çox keçmədən DİN Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi...*

Səh.12

## Türkiyənin prezidenti Azərbaycana gəlir



*Rəcəb Tayyib Ərdoğan Azərbaycana gələcək. "Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Ərdoğan dekabrın 9-10-da Bakıda səfərdə olacaq. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 9-10 dekabr tarixlərində Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşəcək.*

Səh.2

# "Durğunluq bizi depressiyaya salıb" - Roza Zərgərli



***Müğənni Roza Zərgərli yeni fotosessiya etdirib. Sənətçinin şəkillərini fotoqraf Elmir Mikayılov lentə alıb.***

Zərgərli bildirib ki, şou-biznesdə durğunluq olsa da, yeniliklərlə yaradıcılığını gündəmdə saxlamağa çalışır:

"Durğunluq bizi depressiyaya salıb. Əslində, depressiyaya düşən insan deyiləm. Amma indi bilmirik qarşıda bizi nə gözləyir. Ümidsizlik baş alıb gedir. Koronavirusa yoluxan dostlarımız, tanışlarımız çoxalır. Gözəgörünməz düşmənlə mübarizə aparmaq çətindir. Biz sənət adamlarının borcudur ki, yaradıcılığını aktual saxlasın. Ona görə də çalışıram fotosessiyalarla, yeni mahnılar və kliplərlə tamaşaçılarıma nəsə təqdim edim. Bu dəfə də fotosessiyamla izləyicilərimin qarşısına çıxıram. Növbədə yeni mahnılar var".

# "Faytonçu Nazim" müğənniləri qınadı: "10-15 minə toya gedirdilər"



***"Faytonçu" ləqəbli tanınan müğənni Nazim Pişiyarı pulsuzluqdan əziyyət çəkdiyini bildirib.***

İfaçı bu barədə "MTV Azərbaycan"a açıqlamasında danışıb: "Bizim qazancımız el şənliklərindəndir. Bu gün toylara qadağa qoyulub. Şoumuz axsayıb, biznes tərəfi yoxdur. Nəsə iş görəndə, kassa tərəfi lazım olurdu. Mahnı alanda, aranjiman edəndə, studiyada oxuyanda pul xərcləyirsən. Niyə gizlədim, pulum tükənib. Həmkarlarım da bu haqda danışır. Mən də susmuram, vəziyyətimiz olduqca çətinləşib. İnsanlardan xahiş edirəm, bizlə nəvazişlə danışsın. Biz sənət adamları həssas biriyiq. Tənqid edirsiz, amma təhqir olmaz. Bizə pis təsir edir".

Nazim sənət adamlarının toy qiymətlərindən də danışıb: "Digər həmkarlarımın toy qiyməti kəllə-çarxa idi: 15,12,10, 8 minə toya gedirdilər. Mənim qiymətim 5 min idi. Sabah da 5 minə gedəcəm. 8 minə toya getmirdim ki, indi vəziyyəti düşünüb 5 min edim".



# "Kim nə deyər"ləri düşünməyin, rahat olun - Nura Suri

***Müğənni Nura Suri pandemiya dövründə fəaliyyətini dayandıran iş yerlərindən danışıb. Lent.az -ın məlumatına görə, ifaçı bu barədə sosial şəbəkədə yazıb: "İdmançıların, sənət adamlarının karyerası məhvə gedir. Bir çox sahələr işsiz qalıb. Evini, avtomobilini satan insanlar ümidlə yaşayırlar ki, tez bir vaxtda düzələr. İşləyib qazanacaqlarına, əvvəlki həyata dönə biləcəklərinə ümid edirlər.***

Halbuki əvvəlki həyatlarını daha da komfortlu, yaxşıya dəyişəcəklərini planlayırdılar. Pozitivə yüklənib, ümid etmək insanı xəyal qırıqlığına, məhvə apara bilər. Boş xəyallar qurmaq vaxtı deyil. Çətindir, bilirəm. Amma reallığı dərk etmək lazımdır.

Xərclərinizi azaldın. Yalnız vacib lazım olan məhsulları və əşyaları alın. Qənaət etməyi öyrənin. Orqanik məhsullara üstünlük verin. Bitkilər haqqında yetərincə məlumat var. Bitkilərdən daha çox istifadə edin, nəinki dərmanlardan. Bütün canlılar özlərini bitkilərlə müalicə edə bilir. Əzəldən insanlar da bacarırdı. Kəndlərdən, bölgələrdən alın qida məhsullarını (onların da qazancı olsun). Qiymətləri endirin. Başqa çarəmiz yoxdur. Həyatımızı əvvəlki kimi etməyə yox, bu vəziyyətdən çıxış yolu tapmağa çalışmalıyıq.

Mən demək olar ki, salona getmirəm (hər gün gedirdim). Manikür və pedikür etdirirəm ayda 1-2 dəfə, boya dasürtmürəm. Dırnaqlarım kimyəvi, zərərli maddələrdən dincəlsin.

Saçlarım sarışın daha gözəl idi. Amma saçlarımı zədələnmədən qorumaq üçün rəngini dəyişdim, kəsdim ki, daha canlı olsun. Özümü daha çox sevməyə başladım. Başqaları məni daha gözəl görəcək deyə öz bədənimə zərər vermək istəmirəm. Qorumaq istəyirəm saçlarımı, dırnaqlarımı. Hündürdaban ayaqqabılardan bezmişdim, neçə vaxtdır geyinmirəm, necə də rahatam bir bilsəniz.

Kitab oxuyun, dostlar. Beyninizi qidasız qoymayın. "Kim nə deyər"ləri düşünməyin artıq. Rahat olun".

# Bıçaq altına yatan Xatun əməliyyatdan sonra

***Müğənni Xatun Əliyeva xarici görünüşündə dəyişiklik edib.***



"Unikal" axşam.az-a istinadən bildirir ki, sənətçi əməliyyat masasına yataraq, buxağından azad olub. O, əməliyyatdan əvvəl və sonra çəkilən fotolarını İnstaqram hesabında paylaşaraq uzun müddətdir boğazının görünüşünün onu narahat etdiyini bildirib:

"Əvvəllər buxağımın olması məni elə də narahat etmirdi. Lakin yaşa dolduqca bu ən böyük kompleksimə çevrildi. Başladım bununla mübarizə aparmağa... Əvvəl müəyyən aparatlarla masajlar elətdirdim. Heç birinin faydasını görmədim. İndi də yerli keyitmə ilə buxağın liposaksiyasına üz tutdum. Əməliyyatım 1 saat davam etdi".

# Belçika Parlamenti ermənipərəst sənədi müzakirəyə çıxarır - Azərbaycan etiraz etdi



***Qarabağla bağlı Azərbaycanın maraqlarına zidd müddəalar əsasında hazırlanmış sənədi müzakirə edəcək.***

Belçika parlamenti Qarabağla bağlı Azərbaycanın maraqlarına zidd müddəalar əsasında hazırlanmış sənədi müzakirə edəcək.

Bu barədə Modern.az-a danışan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qeyd edib ki, ermənipərəst qüvvələr və erməni diasporu məğlubiyyəti hər hansı formada Avropada aktuallaşdırmaq üçün əlindən gələni edir:

"Bundan öncə erməniləri müdafiə edən sənəd Fransa parlamentində, həm aşağı, həm yuxarı palatalarda bu məsələlər müzakirə olunub. Belçika parlamentinin xarici əlaqələr komitəsinə isə üç layihə təqdim olundu. Üçü də ermənipərəst və Belçikanın dağıdılması uğrunda fəaliyyət göstərən qüvvələr tərəfindən təklif olunmuşdu. O sənədlər öncə Azərbaycana qarşı erməni lobbisinin məqsədinin həyata keçirilməsinə xidmət edir. Birinci və ikinci layihələrin içində olan mənfi, qeyri-obyektiv, Azərbaycanın ərazi bütövlüyünə müdaxilə edən müddəaların əksəriyyəti çıxarıldı.

İndi beynəlxalq əlaqələr komitəsinin gündəmində birləşmiş üçüncü layihə mövcuddur. Önəmli nöqtə odur ki, layihədə 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə istinad var. Bu variantda sanksiyalardan söhbət getmir. Hansısa qeyri-qanuni rejimdən söhbət getmir. Amma erməni lobbisinin təkidi ilə Azərbaycan və Türkiyəyə qarşı xoşagəlməz ifadələr öz yerini tapır. Prinsipial olaraq bir və ikinci variantda təqdim olunan qətnamələrdən kəskin fərqlənir. Baxmayaraq ki, qətnamə hələ də gündəmdədir, biz komitə olaraq bunula bağlı etirazımızı bildirmişik. Bu məsələ ilə bağlı beynəlxalq əlaqələr komitəsinə müraciət edib demişik ki, "Pandora yeşiyi"ni açmayın, siz Belçika-Azərbaycan münasibətlərinə xələl gətirə bilərsiniz. Yeni reallığı dəyişdirə bilməzsiniz. Sizin bu qeyri -qanuni müdaxiləniz özünüzə problem yaradacaq. Faktiki burada yaşayan ermənilər haqqında yox, orada sizi idarə edən erməni diasporu haqqında fikirləşirsiniz, heç də xoş nəticələri olmayacaq. 10 noyabrda imzalanmış bəyanat regiona sülh və əmin-amanlıq gətirib. Bunu pozmaq cəhdlərinə son qoyulmalıdır. Mənfi nəticələr sizin özünüzə zərər verəcək".

Sözügedən məsələyə Belçika dövlətinin münasibətinə gəlincə, deputat Fransadakı vəziyyətin təkrarlana biləcəyini istisna etməyib: "Parlament belə bir qərar qəbul edəndən sonra məsuliyyətli dövlət strukturları dərhal öz münasibətini bildirəcək. Həmin qətnamələrdə beynəlxalq qanuna istinad öz yerini tapacaq. Bu o deməkdir ki, beynəlxalq münasibətlərin təsiri sıfıra enib. Fransadakı kimi, bu öz yerini tapmasa, dövlət orqanları bəyanatla çıxış edəcəklər və ya geri çəkiləcəklər. Belçika qətnaməsində istinadlar var, sanksiyalar yoxdur. Bu o deməkdir ki, faktiki Fransaya ən yaxın olan Belçika, baxmayaraq ki, sənədin özündə bəzi emosional cümlələr əhatə olunub, Fransanın yoluyla getmir. Müzakirələr olacaq, bundan sonra görək hansı sənədi qəbul edəcəklər".

# Gəncədə COVID-19 xəstəsinə cinayət işi başlanıldı

***Gəncə şəhərində xüsusi karantin rejimi qaydalarına zidd olaraq, virusa yoluxan şəxslərə ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerlərini tərk etməsi halları müşahidə olunur.***

DİN-in Mətbuat Xidmətindən Unikal.org-a verilən məlumata görə, Gəncə Şəhər Baş Polis İdarəsinin (ŞBPİ) əməkdaşları tərəfindən ictimai yerdə aktiv COVIID-19 xəstəsi olan 24 yaşlı Ayşən Səmədzadə aşkarlanaraq müalicə təyin edildiyi ünvana yerləşdirilib.

Onun barəsində Gəncə ŞBPİ-nin İstintaq İdarəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb, istintaq araşdırmaları davam etdirilir.

# Cahangir Əsgərovun yola salınacağı qətiləşdi

## AZAL "şefi" yeni ilin ilk aylarında vəzifəsindən kənarlaşdırıla bilər

***Yola salmaq üzrə olduğumuz həftə Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, 26 ildir həmin postu tutan polis general-mayoru Ramiz Zeynalov vəzifədən azad olunması ilə bağlı məlumat yayıldı. Lakin çox keçmədən DİN Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev bildirdi ki, yayılan məlumat həqiqəti əks etdirmir.***

"Unikal"a daxil olan məlumatlarda isə yaxın müddətdə, daha doğrusu, yeni ilin ilk aylarında Azərbaycanda bəzi yüksək vəzifəli şəxslərin vəzifələrindən kənarlaşdırılacağı deyilir. Bildirilir ki, bu, əsasən uzun müddətdir eyni postu tutan şəxslərə aiddir.



Əldə etdiyimiz informasiyada belə vəzifəlilərdən bir neçəsinin adı çəkilir. Onlardan biri "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) sədri Cahangir Əsgərovdur.

Xatırladaq ki, 70 yaşı bu ilin iyulunda tamam olan Əsgərov 1996-cı ildən "Azərbaycan Hava Yolları" QSC-nin rəhbəri postunu tutur.

O, 25 ilə yaxın eyni vəzifədə çalışan tək-tük yüksək iri məmurlardan biridir.

Cahangir Əsgərovun AZAL prezidenti postundan yola salınması üçün yetərli qədər əsas var. Uzun müddətdir bu qurumun fəaliyyəti cəmiyyətin tanınmış nümayəndələrinin və KİV-in ciddi tənqid hədəfinə çevrilib. Az qala əsrin dörddə biri qədərdir ki, adıçəkilən QSC-yə rəhbərlik edən Əsgərovun əvəzlənməsi və "Azərbaycan Hava Yolları"nın yeni idarəçiliyə ehtiyac duyması barədə ictimaiyyət arasında və mətbuatda çox bəhs olunsa da, Cahangir müəllim hələ ki, postunu qoruyub saxlaya bilib.

Bu ilin yayında iddialar o yöndə idi ki, Əsgərova 70 yaşının tamam olması münasibətilə ona təşəkkür edilməsi, yüksək dövlət ordenlərindən biri ilə təltif edilməsi və təqaüdə yola salınması mümkündür. Lakin həmin proqnoz özünü doğrultmadı və AZAL "şef"i yenidən vəzifəsində qalmağı bacardı.

Xatırladaq ki, hələ üç il öncə, 2017-ci ilin fevralında Əsgərovun vəzifədən azad ediləcəyi xəbəri yayılmışdı. "Yayılan bu xəbərlərə şərh vermək, bu barədə danışmaq istəmirəm" - "Azərbaycan Hava Yolları"nın mətbuat katibi Paşa Kəsəmənski o vaxt həmin məlumatlara dair KİV-ə açıqlamasında demişdi. Maraqlıdır ki, AZAL sözçüsü "Bu məsələ haqda ətraflı açıqlama verməyəcəyəm. Kim bu haqda yazırsa, qoy onlar da açıqlama versin" deyərək yayılan iddiaları nə təsdiq, nə təkzib eləmişdi. Belə münasibət isə öz bərabərində yeni iddialar gətirmişdi. Belə ki, bəzi qaynaqlar Cahangir müəllimin həqiqətən işidən azad edilmək üzrə olduğunu, lakin sonradan yekun qərarın verilmədiyini söyləməyə başladılar.

Ötən il yaşlı məmurlar istefaya göndərilərkən isə onların arasında AZAL "şefinin" də olacağı gözlənilsə də, bu baş vermədi.

Lakin yaxın müddətdə Azərbaycan Hava Yolları" rəhbərinin təqaüdə yola salınacağı istisna edilmir. Bu dəfə iddia daha ciddidir və gerçəkləşəcəyi şübhə doğurmur.

Hələliksə onu deyək ki, AZAL-da belə bir dəyişikliyə həqiqətən də ciddi ehtiyac var. Bu QSC-nin xidmət keyfiyyəti və uçuş biletlərinin baha qiyməti səbəbindən davamlı tənqidlərə tuş gəlməsi bir yana, ciddi şəkildə borc bataqlığında olması heç kimə sirr deyil. C.Əsgərovun ailə biznesi günbəgün çiçəklənərkən, böyüyərkən "Azərbaycan Hava Yolları"nın borcu ilbəil artır.

Cahangir Əsgərovun rəhbəri olduğu qurumun yığılmış zərərinin artıq 1,5 milyard manatı ötüb keçdiyi deyilir. Bu isə adıçəkilən səhmdar cəmiyyətin düzgün idarə edildiyinə dair cəmiyyətdə çoxdan formalaşmış şübhələri qüvvətləndirir.

"AZAL" borc bataqlığında çapalayarkən, ilbəil zərərlə işləyərkən Əsgərovun ailə binzesinin çiçəklənməsi, böyüməsi, təkcə ölkə daxilində yox, onun hüdudlarından kənarda da qol-budaq atması diqqətdən qaçmır. Əcəb nonsensdir!

Bir sözlə, "Azərbaycan Hava Yolları" QSC-də sədr dəyişikliyi artıq qaçılmaz zərurət kimi görünür və AZAL-ın dirçəlməsi, zərərlərindən qurtulması, borclarından azad olması, inkişaf yoluna qədəm qoyması baxımından ölkədəki islahat dalğasının bu quruma da gəlib çatması arzuediləndir. Ötənlərdə yazdığımız kimi: aydın hiss olunur ki, artıq 71 yaşında olan Cahangir müəllim AZAL-ın fəaliyyətində müsbət dəyişikliklər yaratmaq potensialını itirib. "Azərbaycan Hava Yolları"nın şəffaflığı və hesabatlılığı da kifayət qədər deyil. Bu QSC-nin fəaliyyəti ilə bağlı tənqidlərin, ittihamların sayı-hesabı yoxdur. Bir yandan da onun borcları görünməmiş miqyasa çatır. Lakin QSC sədri bütün bu problemli mənzərəni dəyişmək iqtidarında görünmür.

Daha heç bir şübhə yoxdur ki, AZAL-ın yeni nəfəsə ehtiyacı var...

***Orxan Həsənli***

# Azərbaycanın ərazi bütövlüyünə heç bir qüvvə kölgə sala bilməz

***Artıq 44 günlük müharibədən sonra imzalanan razılıq bəyanatının əksər bəndləri reallaşıb. Dekabrın 1-də Laçın rayonu boşaldılaraq Azərbaycan Ordusuna təhvil verilib. Bununla da Azərbaycanın ərazi bütövlüyü təmin olunmuş hesab edilir.***

Doğrudur, hazırda Rusiya sülhməramlıları məlum bəyanata əsasən Qarabağdadır və müəyyənləşmiş missiyasını həyata keçirir. Lakin bu amil Azərbaycanın bütövlüyü və süverenliyinə təhlükə kimi dəyərləndirilməməlidir. Təbii ki, cəmiyyətin müəyyən kəsimində narahatlıqlar var.

Milli Məclisin deputatı Cavid Osmanov "Unikal"a açıqlamasında bildirib ki, 44 gün davam edən Vətən Müharibəsi və məlum 10 noyabr tarixli bəyanatla hamımız tanışıq. Onun sözlərinə görə, artıq cənab Prezident sərəncamla dünən bu tarixi Zəfər Günü elan etdi: "Azərbaycanın bəyanata uyğun olaraq ərazi bütövlüyü tam təmin olunub. Ağdam, Kəlbəcər və Laçın olmaqla, 3 rayon da döyüşsüz qaytarıldı. 1 dekabrdan sonra müharibə dövrü geridə qaldı. Mən düşünürəm ki, münaqişə tamamilə başa çatdı. Cənab prezidentimiz də bunu qeyd etdi ki, Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı. Gələcək illərdə yəqin ki, bu söz eşidilməyəcək. Tarixdən danışanda bu məsələyə toxunulacaqdır. Azərbaycan Vətən Müharibəsindən sonra imzalanan bəyanata uyğun olaraq, təkrar edirəm ki, öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi. Cənab prezidentin dediyi kimi bu, hərbi-siyasi yolla tənzimlənir. Hərbi mərhələ geridə qaldı. Artıq dimplomatik mərhələ başlayır. Danışıqlar prosesinin əsas mövzusu iki icmanın mərhələli şəkildə yerləşdirilməsinin həyata keçirilməsi olacaq. Ən vacib məqam budur. Bu, BMT-nin qaçqınlarla bağlı Ali Komissarlığının köməyi ilə həyata keçiriləcək. 1 dekabrdan sonrakı mərhələ isə sülh və əmin-amanlıq dönəmidir. Naxçıvanla dəhlizin açılması, qardaş Türkiyə ilə quru yolun açılması həm də bölgə ölkələrinin kommunikasiya əlaqələri üçün vacibdir. Laçın dəhlizi ilə bağlı cənab prezidentin çıxışında da vurğulandı ki, 30 kilometrlik, sonra 10 kilometrlik dəhliz təklif olunsa da, biz bunun 5 kilometr olmasına razılaşdıq. Buranı bəyanatda göstərildiyi kimi Rusiya sülhməramlıları qoruyacaq. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü tam təmin etdi, post-müharibə dövrü başlayıb. Artıq yeni reallıqlar var. Bu reallığı da cənab prezidentimizin rəhbərliyi ilə Azərbaycan yaratdı".

Millət vəkili onu da qeyd edib ki, əslində diplomatik mərhələ elə bu torpaqların taleyi ilə bağlıdır: "Burada heç bir narahatlığa ehtiyac yoxdur. Beynəlxalq səviyyədə qəbul olunmuş Azərbaycan əraziləridir. Buralar daim Azərbaycanın ərazisi olub. İndi də Azərbaycanındır. Bəyanata uyğun olaraq, bu ərazilərə hər hansı xüsusi status verilməyəcək. Sadəcə bir az vaxt lazımdır. Mərhələli şəkildə burada yaşayan iki icmanın sülh şəraitində birgəyaşayış çərçivəsində mövcudluğunu təmin etmək üçün. Bu torpaqlarda da Azərbaycan qanunları işləyəcək və inşallah ki, gələcək illərdə də Azərbaycan bayrağı dalğalanacaq".



**Cavid Osmanov:**
**"Xankəndi və digər torpaqlarda bizim qanunlar işləyəcək və Azərbaycan bayrağı orada dalğalanacaq"**



**Məhəmməd Əsədullazadə:**
**"Azərbaycan nəyi bacarıbsa, onu da edib, Rusiya danışıqlar prosesindən kənar bir siyasi işlər görəcəksə, onun qaşısı alınmalıdır"**

MCP sədrinin muavini, politoloq Məhəmməd Əsədullazadə isə bizimlə söhbətində deyib ki, Rusiyanın Qarabağda artıq görünən odur ki, sülhməramlı əməliyyatı əsasən, burada erməniləri qorumaq, separtizmi inkişaf etdirmək və silahlı erməni birləşmələrinə dəstək olmaqdır. Onun fikrincə, Moskva ilk növbədə Arayik Arutunyanın oyuncaq rejiminin fəaliyyətini qadağan etməli idi, burada "müdafiə ordusu" adında qondarma erməni silahlı birləşmələrini ləğv edib, ermənilərlə azrbayacanlılar arasında sülh missiyasını dəstəkləməlidir: "Amma, Rusiya burada nə edir. İlk növbədə terrorçu Arayik Arutunyanın qondarma rejiminə dəstək verir. Ermənistan müdafiə naziri Vaqaraşak Arutunyan Xankəndiyə səfər edir. Bu ilk növbədə Azərbaycanın ərazi bütövlüyünü pozmaq və onun səfəri sülh imkanlarının formalaşmasının qarşısını almaqdır. Bu görüşdə "Artsaxla" Ermənistan arasında təhlükəsizlik əməkdaşlığı, "müdafiə ordusu" ilə Ermənistan silhalı qüvvələri arasında əməkdaşlığı inkişaf etdirmək, "Artsaxın müdafiə" imkanlarına dəstək verməkdir. Bu, Kreml tərəfindən dəstək verilən və qızışdırlan bir ssenaridir. İlk növbədə Rusiya sülhməramlı qüvvələri orada bu kimi məsələlərin qarşısını almalıdır. Amma, təəssüf ki, onlar buna dəstək verir. Burada Azərbaycana qarşı yeni bir təzyiq mexanizmi fomalaşdırır. Ona görə də Türkiyə ilə birgə Xankəndində və digər Laçın koridorunda patrul sisteminə razı olmadı. Rusiya burada erməni hərbi birləşmələrini silahla təchiz edəcək, onlara lojistik dəstək verəcək. Bundan əlavə, Xocalı aeroportunun açılmasını israr edir. Azərbaycanın aeroparta icazə verməsi, Dağlıq Qarabağın Azərbaycandan tam qoparılmasına səbəb ola bilər. Rusiyanın da məhz əsas siyasi planı budur. Azərbaycan buna icazə verə bilməz".

Müsahibimiz onu da qeyd edib ki, bu müharibədə Azərbaycan böyük qələbə qazanıb. Onun sözlərinə görə, bu, birmənalıdır: "Rusiya burada sülhməramlı missiyasından kənar siyasi planlar reallaşdırır və bununla da Türkiyə-Azərbaycan tandemini zəiflətməyə çalışır. Kİçik bir ərazidə Rusiyanın militarist və siyasi planlarının qarşısının alınması istiqamətində ciddi siyasi mərhələ lazımdır. Azərbaycan nəyi bacarıbsa, onu da edib. Biz tarixi qələbə qazanmışıq. Rusiya danışıqlar prosesindən kənar bir siyasi işlər görəcəksə, onun qaşısı alınmalıdır. Azərbaycanlılar Xankəndi, Xocalı, Ağdərə, Xocavəndə və Şuşanın kəndlərinə qayıtmalıdır və bunu Rusiya sülhməramlı qüvvələri kordinasiya etməlidir. Yoxsa, Rusiya gəlib, burada erməniləri müdafiə edəcəksə, Rusuyanı Türkiyə ilə birgə Qarabağdan çıxarmaq lazım gələcək. Prezident İlham Əliyev də Rusiyanın burada sülhməramlı missiyasının erməniləri müdafiə etməsinə və burada bir avtonom idarə mərkəzi yaradılmasına seyrçi qalmayacaq. Azərbaycan müharibəni ona görə başlamadı ki, Qarabağda ermənilərə müstəqillik verilsin. Rusiya gəlib, burada onları müdafiə etsin. Proses uzun olacaq və regionda dəyişən proseslər Azərbaycanın xeyrinə olacaq".

***Z.Məmmədli***



## Azadlıq Meydanında parada hazırlıq

***Hazırda Azadlıq Meydadında təmizlik işləri həyata keçirilir.***

Unikal.org xəbər verir ki, bir müddət öncə "Formula1"yarışması ilə bağlı ərazidə quraşdırılan dəmir hasarlar və oturacaqlar yığışdırılıb.

Qeyd edək ki, Vətən Müharibəsində əldə edilən qələbə ilə bağlı Azadlıq Meydanında parad keçiriləcək.

## FAO ilə AQTA arasında növbəti işgüzar görüş keçirilib

***Dekabrın 2-də Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) arasında əməkdaşlığa və hazırda birgə həyata keçirilən layihələrin icra vəziyyətinə həsr olunmuş görüş keçirilib.***

"Unikal" xəbər verir ki, AQTA-nın sədr müavini Zəkiyyə Mustafayeva və FAO-nun Azərbaycandakı tərəfdaşlıq və koordinasiya ofisinin rəhbəri Mələk Çakmakın iştirakı ilə keçirilən görüşdə əməkdaşlığın hazırki vəziyyəti və gələcək perspektivinə dair fikir mübadiləsi aparılıb.

AQTA sədrinin müavini Z. Mustafayeva FAO ilə əməkdaşlığın qazandırdığı nailiyyətlərdən bəhs edib, gələcəkdə həyata keçiriləcək layihələrlə bağlı bir sıra təkliflər edib və heyvan xəstəliyi ilə bağlı layihənin ərsəyə gəlməsində ölkədə fəaliyyət göstərən digər beynəlxalq təşkilatların və xarici ölkələrin də iştirakının vacibliyini vurğulayıb.

M. Çakmak birgə həyata keçirilən layihələrin əhəmiyyətini qeyd edərək, etibarlı tərəfdaş kimi AQTA ilə əlaqələrin daha da genişləndirilməsində maraqlı olduqlarını ifadə edib. O, FAO-nun tərəfdaş ölkələri arasında Azərbaycanın lider ölkə kimi, sağlam qidalanma, qida təhlükəsizliyi və heyvan xəstəliyi ilə bağlı məsələlərə xüsusi diqqət yetirdiyini vurğulayıb, gələcəkdə bu sahələrdə reallaşdırılacaq layihələr və onların maliyyələşdirilməsi ilə bağlı keçiriləcək görüşlərdə Avropa İttifaqının da iştirak edəcəyini bildirib.

Bundan başqa, görüşdə AQTA tərəfindən layihələrin reallaşdırılması ilə bağlı işçi qrupların yaradılması, il ərzində hansı addımların atıldığı, görülmüş işlərin nəticələri barədə rüblük görüşlərin keçirilməsi təklifi irəli sürülüb.

# 8 noyabr Azərbaycanın Zəfər Günü elan edildi

***Prezident İlham Əliyev Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncamda deyilir: "XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.



Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin".

Dövlət başçısının digər sərəncamı "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 dekabr tarixli 2312 nömrəli sərəncamı ləğv edilib.

# Türkiyənin prezidenti Azərbaycana gəlir

***Rəcəb Tayyib Ərdoğan Azərbaycana gələcək.***



"Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Ərdoğan dekabrın 9-10-da Bakıda səfərdə olacaq. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 9-10 dekabr tarixlərində Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşəcək.

Bildirilir ki, Türkiyə Xarici İşlər naziri (XİN) Mövlud Çavuşoğlu ilə Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramov arasında telefon danışıqları zamanı Qarabağdakı proseslə əlaqədar qiymətləndirmə aparılıb.

Onlar Prezident Rəcəb Tayyib Ərdoğanın səfərini də qiymətləndirib və detalları müzakirə ediblər.

# Bu gün Vətən müharibəsi şəhidlərinin xatirəsi yad ediləcək



***Prezident İlham Əliyev Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, Sərəncamda deyilir:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini yad etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə 2020-ci il dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükut elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Vilayət Eyvazov bu rayonun DYP rəisini işdən çıxardı

***Daxili İşlər orqanlarında kadr dəyişikliyi olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə, Abşeron rayon Dövlət Yol Polisi şöbəsinin rəisi, Raqif Mürsəlov tutduğu vəzifədən azad olunub.

Onun yerinə isə polis baş leytenantı Cəmil Abbasov təyin olunub. C.Abbasov daha öncə Sabirabad Yol Polisi Postunun komandiri vəzifəsində çalışıb.

***Murad İbrahimli***

# Vətən Müharibəsində şəhid olan hərbi qulluqçularımızın sayı açıqlandı

***Ermənistanın 27 sentyabr 2020-ci ildə ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır.***

Bu barədə "Unikal"a Azərbaycan Respublikası Müdafiə Nazirliyindən məlumat verilib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti Vətən müharibəsində qəhrəmancasına və şücaətlə döyüşərək Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirmiş, illər ərzində Ermənistanın işğal altındakı torpaqlarımızda qurduğu mürəkkəb konstruksiyalı mühəndis-istehkam və bunker sistemlərini darmadağın etmiş, bir neçə eşelondan ibarət və sıx şəkildə minalanmış müdafiə xətlərini yararaq torpaqlarımızı işğaldan azad etmişdir.

Rəşadətli və qorxmaz əsgər və zabitlərimiz əksər strateji yüksəkliklərin, əlverişli döyüş mövqelərinin Ermənistan silahlı qüvvələrinin əlində olması, Ermənistanın çoxsaylı artilleriya, yaylım atəşli reaktiv sistemləri və minaatan qurğularından ibarət sıx atəş zərbələri altında və çətin coğrafi relyef və iqlim şəraitində döyüş apararaq Ermənistanı məğlub etməyə müvəffəq olmuşdur. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biridir.

30 ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad olunmuşdur. Döyüş əməliyyatı planlarının yüksək peşəkarlıqla hazırlanması, yüksək texnologiyaların tətbiqi, müxtəlif qoşun növlərinin fəaliyyətinin səmərəli əlaqələndirilməsi, havada mütləq üstünlüyün əldə edilməsi, ordumuzun manevr qabiliyyəti və digər taktiki və strateji üstünlükləri şəxsi heyətin sıralarında itkilərimizi əsaslı dərəcədə azaltmışdır. Amma müharibə itkisiz olmur.

Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olmuşdur.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Şəhidlərimizin ruhu qarşısında baş əyirik!

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5[N]
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Prezidentə məktublar: "Yazdığınız Qarabağ salnaməsinin sevinci hər kəsə qürur hissi bəxş edir"

***Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məktublar gəlməyə davam edir.***

"Unikal" məktublardan bir neçəsini təqdim edir:

**Aleksandr Oreşnikovdan, Krasnoyarsk, Rusiya**

"Hörmətli cənab Prezident İlham Heydər oğlu. Mən əsgərliyimi Azərbaycanda başa vurmuşam. 1987-1989-cu illərdə indiki Gəncə, o vaxtkı Kirovabad şəhərində yerləşən 104-cü qvardiyanın hava-desant diviziyasında xidmət etmişəm.

Dağlıq Qarabağda baş verən faciələrin birbaşa şahidi və iştirakçısı idim. O vaxt xalqınızın yaşadığı iztirabları böyük ürək ağrısı ilə qəbul edirdim.

1993-cü ildə Ağdamın işğalını şəxsi bir faciə kimi qəbul etdim, çünki bu şəhərə çox bağlı idim və əziz xatirələrim var idi.

Sizi və çoxmillətli xalqınızı Qələbə münasibətilə təbrik edirəm! Nəhayət, ədalət zəfər çaldı. Mən buna ürəkdən sevinirəm və səmimi qəlbdən Sizin fəaliyyətinizin Dağlıq Qarabağa bölgəsinə sülh və firavanlıq gətirəcəyini inanıram.

Sizə və xalqınıza əmin-amanlıq, başınızın üstündə açıq səma arzulayıram!"

***

**Üzeyir Tapdıqlıdan, Antalya, Türkiyə**

"Hörmətli cənab Prezident.

Bu məktubu yazaraq Sizə hər şey üçün dərin təşəkkürümü bildirirəm. Öncə ölkəmizi inkişaf etdirdiniz, kadr islahatları apardınız, sonra isə bütün xalqımızın həsrətində olduğu Qarabağı azad etdiniz.

Mən Antalyada yaşayıram, ürək-damar cərrahlığı sahəsində həkim işləyirəm. İmkan olduqca, vaxt tapdıqca ölkəmizdə baş verənləri izləyirəm.

Təbii ki, xalq üçün gördüyünüz işlər sadəcə bu günlər baş verənlərlə kifayətlənmir. Xalqın xeyrinə yüzlərlə önəmli işləriniz olub və yenə olacağına əminəm. Hər şey üçün Sizə təşəkkürlərimi bildirirəm.

Bütün Azərbaycan xalqı Sizin arxanızdadır, bundan əmin ola bilərsiniz. Sizi çox sevirik. Ürəyimdəki sözləri, hissləri bir məktuba yerləşdirmək mümkün deyil, İnşallah, nə vaxtsa Sizinlə görüşmək qismət olarsa, ən səmimi təşəkkürlərimi Sizə çatdıraram".

***

**Kərim Yaqubovdan, Ağdam, Azərbaycan**

Hörmətli cənab Prezident.

Mən və ailəm 27 ildən artıqdır ki, öz doğma kəndimiz - İlxıçı kəndindən uzaq düşmüşük. Şükür Allaha ki, sayənizdə Qarabağ torpağımız, Ağdamımız Sizin komandanlığınız altında rəşadətli və müzəffər Ordumuz tərəfindən yağı düşməndən azad olundu.

Aztəminatlı ailənin üzvü olduğum üçün özünüməşğulluq proqramı çərçivəsində dövlət tərəfindən mənə verilmiş xırdabuynuzlu heyvanları işğaldan azad olunmuş doğma kəndimizdə saxlayıb artıracağam. Torpaqlarımızın azad olunması münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Allah Sizi və ailənizi qorusun!

***

**Rasim Əliyevdən, Kəlbəcər, Azərbaycan**

"Çox hörmətli cənab Prezident.

Çox çətin missiyanın öhdəsindən gələrək əzəli Qarabağ torpaqlarımızı erməni təcavüzkarlarından azad etdiniz, mənliyimizi, qürurumuzu özümüzə qaytardınız. Bununla düşmən bir daha qarşısında heç vaxt ərazilərinin işğalı ilə barışmayan güclü xalq gördü. Bu günün sevincini bizə yaşatdığınız üçün ailəm adından və şəxsən öz adımdan Sizə dərin təşəkkürümü bildirirəm. Uca Tanrıdan Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Zəfərimiz mübarək olsun!"

***

**Etibar Bababəylidən, Naxçıvan, Azərbaycan**

"Cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində ard-arda rayonlarımızın düşmən tapdağından azad edilməsi Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Sizin müdrik rəhbərliyinizin nəticəsidir. Sizi və müzəffər Azərbaycan Ordusunu Qarabağın azad olunması münasibətilə təbrik edirəm. Mən Sizinlə və şanlı Ordumuzla fəxr edirəm və qürur duyuram. Ulu öndərimiz Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq və onun vəsiyyətinə əməl edərək işğal altındakı torpaqlarımızı, xüsusilə də Şuşa şəhərini işğaldan azad etdiniz.

Əziz Prezidentimiz, Siz Şuşanın azad edilməsi xəbərini Şəhidlər xiyabanından xalqa çatdırmaqla mənəvi dəyərlərimizə sadiq, vətənpərvər, qeyrətli Azərbaycan oğlu olduğunuzu bir daha təsdiq etdiniz. 1990-cı ildə Nehrəm kənd ağsaqqallarının ulu öndərimiz Heydər Əliyevə Qarabağın düzgün həll variantı haqqında verdikləri sualın cavabı onun vəsiyyətinə və arzusuna tam uyğundur. Son 200 ildə dəfələrlə basılan, qarış-qarış yonulan Azərbaycan torpaqlarının bütövləşməsi, türk dünyası ilə pozulmuş coğrafi ərazilərin bərpa olunması Sizin məqsədyönlü, doğru siyasətinizin nəticəsidir. Naxçıvanla Azərbaycan, Türkiyə ilə Azərbaycan və Azərbaycan üzərindən Türkiyə-Rusiya-dünya ölkələri quru yolunun açılmasını həmişə xəyal etmişik. Bu gün bu gerçəkdir, həqiqətdir, tarixi sənətdir!

Güclü və iradəli Prezident, Müzəffər Ali Baş Komandan, bu möhtəşəm hadisə ilə bağlı Siz başda olmaqla bütün xalqımızı təbrik edir və 9 Noyabr Dövlət Bayrağı günü ərəfəsində xalqımıza bu sevinci yaşadıb şanlı Bayrağımızı Şuşada ucaltmaqla tarix yazdığınızı fəxarətlə vurğulayıram. Sizi və şanlı Ordumuzu möhtəşəm Qələbə münasibətilə şəxsən özüm və ailəm adından ürəkdən təbrik edirik, igid, qəhrəman tarix yazan əsgər və zabitlərimizə cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayıram.

Şəhidlərimizin ruhu qarşısında baş əyirəm, yaxınlarına səbir diləyirəm!

Şəhidlərimizin ruhu şad olsun! Şəhidlərimizə Allah rəhmət etsin!

Eşq olsun Ali Baş Komandana! Eşq olsun Ordumuza!

Ulu Tanrı Sizi, Azərbaycan Ordusunu, əsgər və zabitlərimizi qorusun!

Yaşasın Ali Baş Komandan! Yaşasın Ordumuz!

Yaşasın Azərbaycan! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

***

**Rüstəm Cəfərovdan, Lənkəran, Azərbaycan**

"Hörmətli cənab Prezident,

Sizi torpaqlarımızın işğaldan azad edilməsi və Qələbə qazanmağımız münasibətilə təbrik edirəm.

Torpaqlarımızın azadlığı Sizin ölkəmiz naminə yorulmaz fəaliyyətinizin nəticəsidir. Bu yolda Sizə daim müvəffəqiyyətlər arzu edirəm.

Eşq olsun Azərbaycan Ordusuna, yaşasın Azərbaycan xalqı!

Qarabağ Azərbaycandır!"

***

**Allahverdi Həsənovdan, Babək, Azərbaycan**

"Müzəffər Ali Baş Komandan.

Siz bu Vətən müharibəsində erməni faşistləri üzərində qazandığınız möhtəşəm Qələbə ilə eyni zamanda onların yüz illərdən bəri Naxçıvana olan iddialarını puça çıxartdınız.

Çox hörmətli Prezidentimiz, Sizin komandanlığınızla yenilməz Ordumuz Qarabağı mənfur düşməndən azad etdi, möhtəşəm Qələbə qazandı. Bu Qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq.

Cənab Prezident, qazandığımız Qələbənin mahir təşkilatçısı, baş memarı Sizsiniz. Uca Tanrı Sizi qorusun!

Zəfərimiz mübarək olsun!"

***

**Nailə Bağırovadan, Gəncə, Azərbaycan**

"Cənab Prezident.

Misilsiz Qələbələrimiz münasibətilə Sizi təbrik edirəm. Bu müharibə torpaq davası deyil, namus, qeyrət, mərdlik davasıdır. Bu davada qalib olduğunuz üçün xalq Sizə layiq olduğunuz adı verib "Tarix yazan Sərkərdə, xilaskar Prezident". Bütün çıxışlarınızı xalq əzbərləyib. Min illər keçsə də, Azərbaycan durduqca, dünya var olduqca, Sizin adınız tək Azərbaycan tarixində deyil, dünya tarixində qalacaq. Azərbaycan xalqının özünəinamını, mənəviyyatını, mərdlik, cəsarət, dostluq, səbir kimi keyfiyyətlərini qaytardığınız üçün Sizin qarşınızda baş əyirəm. Sağ olun, var olun. Allah Sizi və Sizin rəhbərliyiniz altında bu qələbəni bizə gətirən şanlı Ordumuzu qorusun, Haqq yolunda şəhid olanlara rəhmət eləsin!"

***

**Kənan Hümbətlidən, Beyləqan, Azərbaycan**

"Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Siz ümummilli lider Heydər Əliyevin başladığı böyük yolu layiqincə davam etdirirsiniz. Siz böyük siyasi Lider, strateq, əsl Komandan olmaqla bərabər layiqli övladsınız.

Sizi və xalqımızı Qələbə münasibətilə təbrik edirəm. Bütün idman yarışlarında və digər istiqamətlərdə könüllü kimi fəaliyyət göstərən Azərbaycan vətəndaşları, xüsusilə gənclər bu günlər qazanılan qələbədə də könüllü kimi ilk sırada idi. Hər zaman fəaliyyətimizlə xalqımız, millətimiz və dövlətimiz üçün yararlı olmağa hazırıq.

Sizin rəhbərliyinizlə könüllülərin Vətən uğrunda xidmətləri gələcəkdə də ölkəmizə rifah gətirəcək. Daim Sizin əmrinizlə irəli getməyə hazırıq".

***

**Gülüstan Qəhrəmanovadan, Sabirabad, Azərbaycan**

"Müzəffər Ali Baş Komandan.

Sizin rəhbərliyinizlə şücaətli Ordumuzun yazdığı, əsrlərlə unudulmayacaq şanlı tariximizlə fəxr edir və qürur duyuruq.

Sizin rəhbərliyinizlə şanlı Ordumuzun tarixi zəfərləri uzun zaman keçsə də, yenidən doğma Qarabağ sevincini yaşamağı bizlərə qismət etdi. Qarabağın azadlığı Vətən sevgimizi daha da nurlandırır. Mən fəxr edirəm ki, Azərbaycanımızın ayrılmaz hissəsi olan azad Qarabağ yurdunun sakiniyəm".

***

**Rəfiqə Əliyevadan, Biləsuvar, Azərbaycan**

"Möhtərəm Prezident cənab İlham Əliyev.

Sizin möhkəm iradəniz sayəsində xalqımızın 30 ilə yaxın olan ağrılı, qanlı-qadalı günləri geridə qaldı. Sizi, xalqımızı, Ordumuzu möhtəşəm qələbə münasibətilə təbrik edir, ulu xalqımın əvəzsiz Liderinə ən səmimi arzularımı çatdırıram. Hamımız sevinirik, düşməndən şəhidlərimizin qisasını aldıq, torpaqlarımız azad olundu. Şəhidlərimizin ruhu qarşısında borcumuzu verdik. Bunlar müqəddəs hisslərdir. Keçirdiyimiz bu ifadəsiz sevinc hisslərini bizə bəxş etdiyiniz üçün Sizə, yenilməz Ordumuza sonsuz minnətdarlığımızı bildiririk. İnanırıq ki, qalib, yenilməz sərkərdəmiz kimi Sizin rəhbərliyiniz altında ölkəmiz gündən-günə çiçəklənəcək, xalqımızın rifahı daha da yüksələcək. Sizə, ailənizə cansağlığı, bundan sonrakı fəaliyyətinizdə uğurlar diləyirəm.

Var olsun Azərbaycan xalqı, yaşasın Ali Baş Komandan!"

***

**Tofiq Allahverdiyevdən, Kəlbəcər, Azərbaycan**

"Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Mən öz adımdan və bütün Kəlbəcər rayonunun sakinləri adından Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Siz bizim 27 illik Vətən həsrətimizə son qoydunuz. Biz artıq öz dədə-baba yurdumuza - Kəlbəcərimizə qayıdırıq və bu, Sizin yürütdüyünüz mükəmməl siyasətin nəticəsidir. Siz bizim gözümüzdə və qəlbimizdə bir Fateh olaraq yaşayacaqsınız. Siz bu dünyada bizə cənnəti bəxş etdiniz. Allah Sizi və ailənizi daim qorusun!"

***

**Nicat Quliyevdən, Beyləqan, Azərbaycan**

"Müzəffər Ali Baş Komandan.

Doğma Qarabağın azad olunması xəbərlərini xalqımıza çatdırdığınız bu xoş günlərdə Sizə təşəkkür məktubumu göndərərək bildirmək istəyirəm ki, atam Quliyev Bəxşeyiş Maşallah oğlu 1-ci Qarabağ müharibəsində iştirak edərək, Füzuli rayonunun Aşağı Veysəlli kəndi uğrunda gedən döyüşlərdə 1994-cü il martın 16-da qəhrəmancasına şəhid olmuşdur. Mən atamın qisasını alacağım günün həsrəti ilə yaşayırdım.

Sizin güclü siyasətinizin və müzəffər Ordumuzun canı və qanı bahasına ard-arda qazanılan qələbələr məni çox sevindirdi, qürurlandırdı. Başda Siz olmaqla, qüdrətli Ordumuzun bütün igid əsgərlərinə sonsuz minnətdarlığımı bildirirəm. Şəhidlərimizin qanı yerdə qalmadı, ruhları şad oldu.

Gözün aydın, Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!"

***

**Anar Hacıyevdən, Şəmkir, Azərbaycan**

"Hörmətli cənab Prezident,

Bizə yaşatdığınız bu böyük Qələbə sevincinə görə şəxsən Sizə və müzəffər Azərbaycan Ordusuna təşəkkür edirəm. Düşmən üzərindəki zəfərimiz münasibətilə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Yazdığınız Qarabağ salnaməsinin sevinci hər kəsə qürur hissi bəxş edir.

Müzəffər Ali Baş Komandan, Sizə uzun ömür, cansağlığı arzu edirəm. Uca Allah Sizi qorusun!

Qarabağ Azərbaycandır!"

***

**Şəbnəm Yarəhmədovadan, Gəncə, Azərbaycan**

"Cənab Prezident, çox hörmətli İlham Heydər oğlu!

Sizi erməni işğalçılarına qarşı ikinci Qarabağ müharibəsində Qələbə münasibətilə təbrik edim. Sizə minnətdarlığımızı bildiririk ki, Siz və şanlı Azərbaycan Ordusu bizə, bizim hər birimizə Qələbə bəxş etdiniz. Azərbaycanda hər bir evə, kəndə, şəhərə Qələbə gəldi. Sizin əzminiz, qətiyyətiniz, Ordumuzun yenilməzliyi sayəsində Qələbə sevinci yaşadıq. Sağ olun, var olun ki, 28 illik həsrətə son qoydunuz. Qarabağımız bizim oldu, hər zaman da bizim olacaq. Biz sonsuz qürur duyuruq ki, ölkəmizin Sizin kimi Prezidenti, Ordumuzun isə Sizin kimi Ali Baş Komandanı var. Allah Sizi və ailənizi qorusun!

Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!"

***

**Raqif Tağıyevdən, Göygöl, Azərbaycan**

"Hörmətli cənab Prezident.

200 illik tariximizdə işğal olunan torpaqlarımız geri alınmayıb. Kəlbəcər rayonunun alınması mənə yuxu kimi gəlirdi. Siz bu yuxunu reallığa çevirdiniz. Buna görə Sizə sonsuz minnətdarlığımızı bildiririk.

Bundan sonra ölkəmizin və xalqımızın tarixində yeni dövr başlayır. Artıq biz məcburi köçkün deyilik, tezliklə öz evimizə dönəcəyimiz günü səbirsizliklə gözləyirik. Qazandığınız zəfərlə Azərbaycan xalqının başını uca etdiniz, məğrur və yenilməz xalq olduğunu bütün dünyaya sübut etdiniz. Allah Sizi həmişə uca etsin! Var olun, cənab Prezident!

Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan Ordusu!

Qarabağ Azərbaycandır!"



# “Hökumət və biz-vətəndaşlar əlimizdən gələn hər bir şeyi düzgün etməliyik”

## Həsrət Rüstəmov: “İnsanlar covid-19-dan deyil, iqtisadi fəlakət nəticəsində həyatlarını itirəcəklərsə, bu, daha böyük faciə olacaq”

***Koronavirus pandemiyasının yaratdığı problem daha da dərinləşməkdədir. Son günlər yoluxma və ölüm hallarının sayındakı artım ciddi narahatlıq yaradıb. Bu və ya digər məsələlərlə bağlı “Unikal” qəzetinə müsahibə verən ADP sədrinin müavini, həkim Həsrət Rüstəmov diqqətçəkən məqamlara toxunub.***

***-Hazırda koronavirus infeksiyası ciddi hal alıb. Bir həkim kimi hazırkı vəziyyəti necə dəyərləndirirsiniz. Hansı addımlar atılmalıdır?***

- Təəssüf ki, Covid-19 pandemiyası ilə bağlı hazırkı vəziyyət dünyanın əksər ölkələrində olduğu kimi bizdə də çox ciddi təşviş doğurur. Pandemiyanın dünyaya yeni yayılan vaxtlarındakı rəqəmlərlə müqayisə etsək yoluxmaların sayı konkret olaraq bizim ölkəmizdə on dəfəyədək artıb. Təbii ki, bu cür rəqəmlərin qarşısında tibbi yardım almaq çətinlikləri, xəstəlikdən ağırlaşmaların və ölüm sayının artması gözləniləndir. Bu vəziyyət davam edəcəyi təqdirdə bu cür xoşagəlməz nəticələrlə, hətta proqnozlaşdırılmayan pis nəticələrin ola biləcəyini göz önünə almalıyıq. Dövlətin və hakimiyyətin üzərinə çox böyük yük düşür. Təcili olaraq pandemiya ilə mübarizə yenə də ilk problem olaraq dəyərləndirilməlidir. Bütün digər fəaliyyətlər məhz bu məsələ ilə əlaqələndirilib idarə edilməlidir. Ötən dövr də göstərdi ki, yoluxmanın məhdudlaşdırılması ilə bağlı tədbirləri yalnız adminstrativ qaydada elan etmək və tətbiq etmək kifayət deyil. Bu qaydalara əməl etməyə insanları inandırmaq, təşviq etmək lazımdır. Bunun üçün hökümət çox ciddi və məsuliyyətlə işləməlidir. Tək cəza haqqında qərar vermək və insanları cərimə etməklə iş bitmir. Daha doğrusu bu son variant, son vasitədir. Bunadək insanların inandığı və etibar edərək əməl edəcəyi bir komanda işi həyata keçirilməlidir.Təbii ki, vətəndaşlar özləri də bütün dünyanın 1 nömrəli probleminə çevrilmiş məlum xəstəliyə bir qədər də diqqəti artırmalıdırlar. Xüsusən də nəzərə almalıyıq ki, pandemiyanın qarşısının alınması, vəziyyətin idarəolunmaz səviyyəyə çatmaması üçün hər bir insan məsuliyyətli olmalıdır. Artıq hamının məhəlləsində, qonşusunda, qohumlarının arasında xəstələnənlər var və onların da içərisində bir qismi xəstəliyi ağır keçirirlər. Təəssüf ki, ölənlər də var. Ona görə də artıq heç kimə bütün baş verənlərin hansısa ”oyun” olmadığı, vəziyyətin olduqca ciddi olması sirr olmamalıdır. Konkret addımlara gəldikdə isə məncə artıq lazım olduğu qədər məhdudiyyət tətbiq olunmasına qərar verilib. Sadəcə, insanların inanıb əməl etməsinə çalışılmalı və vətəndaşların bu proses zamanı iqtisadi cəhətdən tükənməmələri də daim diqqətdə saxlanılmalıdır.

***- Operativ Qərargah bir sıra qərarlar qəbul edib, müəyyən məhdudiyyətlər, qapanmalar tətbiq olunur. Bunun tibbi cəhətdən xeyri var, amma sosial-iqtisadi baxımdan problemlərə yol açılır. Nə etmək olar?***

-Təbii ki, qapanmalar iş yerlərinin bağlanmasına, insanların ac qalmasına səbəb olmamalıdır. Artıq müəyyən təcrübələr var. Bunlardan istifadə etməliyik. Məsələn uzaqdan işləmək imkanı olan müəssisələr mümkün qədər işçilərinin evdən işləməsinə nail olmalı, mümkün olmayan hallarda isə hansı ki, əksəriyyət təşkil edir, maska və digər qoruyucu tədbirlərə riayət işini təşkil etməlidir. Mən heç bir müəssisənin bağlanması və ya fəaliyyətinin tam məhdudlaşdırılmasına lüzum görmürəm. Hansı yerlərdə ki, insanların sıx təması qaçılmazdır, o yerlərdə fərdi protektiv vasitələrlə bağlı qaydalara xüsusi nəzarət olmalıdır. İqtisadi vəziyyəti məncə ikinci plana qoymaq olmaz. İnsanlar Covid-19-dan deyil, iqtisadi fəlakət nəticəsində həyatlarını itirəcəklərsə bu daha böyük faciə olacaqdır.



***- Vəziyyətin bu qədər kritikləşməsində iki tərəfli ittihamlar var. Bir tərəf vətəndaşların məsuliyyətsizliyini, digər tərəf isə tibbi imkanların yetərli olmamağını əsas gətirir. Hər iki tərəfi haqlı saymaq olar. Siz necə düşünürsünüz?***

- Əslində ilk baxışda bu məsələdə hər iki tərəf siz dediyiniz kimi haqlı görünür. Amma siyasi məsuliyyət həmişə idarəedənlərin üzərindədir. Vəziyyətin kritikləşməsinin həm də hər iki tərəfdən asılı olmayan hissəsi var. Məsələn çox yaxşı idarəetmə sistemi, inkişaf etmiş səhiyyəsi və yaxşı vətəndaş cəmiyyəti olan Skandinaviya ölkələrində də yoluxma sayı artır. Yəni, bir növ hökumət və biz-vətəndaşlar əlimizdən gələn hər bir şeyi düzgün etməliyik. Hökumət vəziyyətin ciddiliyini başa düşüb korrupsiyadan imtina etməli, məmurlar maaşlarına, indiyədək çapıb taladıqlarına qane olub rüşvətxorluqdan əl çəkməli, vətəndaş da bu hökumətə hörmət edib qaydaları pozmamalıdır. Bütün bunlardan sonra yenə də bu xəstəliklə bacarmayacağıqsa, artıq bu o deməkdir ki, bu bəladan çıxış yox imiş. Yəni hamı əlindən gələni etməlidir. Yoxsa qarşılıqlı ittihamlara güc versək vəziyyət olduqca pis olacaq.

***-Həsrət bəy, artıq ikinci Qarabağ savaşını arxada qoyduğumuzu demək olar. 44 günlük Vətən Müharibəsini necə qiymətləndirdiniz?***

-Bu müharibənin nəticəsi təkcə işğal olunmuş ərazilərimizin (hələlik tam olmasa da) azad olunması deyil. Bu müharibə xalqımızı birləşdirdi, hamı son illərdə ilk dəfə olaraq yumruğu bir yerə vurmağı bacardı. Biz dünyaya böyük bir xalq olduğumuzu, siyasi xalq olduğumuzu, güclü və haqlı toplum olduğumuzu sübut edə bildik. Biz Dövlət qurmağa layiq Millət olduğumuza hamını, hamıdan əvvəlsə özümüzü bir daha əmin edə bildik. Bu müharibədə və indiyədək canlarını, sağlamlıqlarını fəda etmiş Vətən övladlarının qanı yerdə qalmadı. Xocalının qisası alındı. Ordu və xalq birliyi elə bir yüksək səviyyəyə çıxdı ki, artıq hamı özünü əsgər kimi görməyə can atdı, hamının ürəyində əsgər olmaq arzusu alovlandı. Bu müharibə həm də bizə dost və düşmənlərimizi bir daha tanıtdı. Bu çox önəmli məsələdir. Çünki uzun illərin əsarətində bizim xalqa düşməni dost, dostu, hətta qardaşı düşmən kimi təqdim etdiklərinə görə bu sahədə ciddi problemimiz var idi. Məncə bu məsələ artıq xalqa tam aydın oldu. Və biz artıq qələbənin gözəl dadını bilirik və mənə elə gəlir ki, Xalqımızı daha heç kim aldada bilməz. Bizi daha heç kim qorxuda bilməz. Əminəm ki, çox keçməz Qarabağ tam azad olunacaq. Orada əli bizim xalqımızın qanına bulaşmış bir köpək belə qalmayacaq.

***-Müxalifət müharibə ərəfəsində həmrəylik nümayiş etdirərək hakimiyyətin yanında oldu. Bundan sonrakı dönəmdə müxalifət hansı missiyanı yerinə yetirməlidir?***

-Müxalifət adından da göründüyü kimi hakimiyyətdə olan qüvvəyə alternativ olmalıdır, onun siyasətinin nöqsanlarını deməlidir, onun fəaliyyətinin daim ictimai nəzarətdə qalmasına çalışmalıdır. Bir sözlə hakimiyyət müxalifət var deyə, pis işləsə, səhv etsə müxalifət onu topa tutar deyə daim narahat olmalıdır. Bu demokratik idarəetmənin əsas mahiyyətidir. Yəni əslində müxalifətin olmadığı və ya güclü olmadığı cəmiyyətlərin sonu yoxdur. Amma bütün ölkələrin tarixi, milli və mövcud gerçəkliklər səbəbindən iqtidar-müxalifət münasibətləri standart deyil, burada çoxlu özünəməxsusluqlar var. Müharibəyə gəldikdə isə, ilk olaraq müxalif siyasi qüvvələrin ordu və dövlətlə birgəlik nümayiş etdirməsi, faktiki olaraq bütün güclərini müharibədə qələbəmizə yardım etməyə yönəltmələri yüksək qiymətləndirilməlidir. Prezident İ.Əliyev də bir müraciətində bu məsələyə xüsusi toxundu. Bu da o deməkdir ki, bu müharibə ölkədaxili siyasi mübarizəyə də bir düzən verdi, fayda gətirdi. Elə hesab edirəm ki, bundan sonra siyasi mübarizənin tərəfləri bir-birilərinə daha hörmətlə yanaşacaq. Mübarizəni qanuni və əxlaqi çərçivədən kənara çıxarmaq cəhdləri azalacaq. Həm iqtidar, həm də müxalifət siyasi cəhətdən yetkinliyi ön planda saxlamağı bacarmalıdır.

***-Bu savaşda Azərbaycanın dost ölkələri bəlli oldu və münasibətlərimizin yenidən baxılması zərurəti olan ölkələr də müəyyənləşdi. Bu müharibə xarici siyasətimizdə hansı dəyişikliklər etməyi zəruri elədi?***

-Mühüm məsələdir, yuxarıda buna ötəri toxundum. Dünyadakı vəziyyət elədir ki, dost, müttəfiq olmadan dövləti qoruyub saxlamaq, yaşatmaq qeyri mümkündür. Xüsusilə də özlərini dünyanın sahibi kimi hiss edən və bu cür də davranan böyük güclərin yemi olmamaq, özünü, xalqını, ərazini qorumaq, xalqın yaxşı yaşamasını və yaxşı gələcəyini təmin etmək üçün mütləq ciddi müttəfiqlərə ehtiyac var. Təbii ki, xarici siyasətimizdə onsuz da önəmli yeri olan Türkiyə Cümhuriyyəti və Pakistan Respublikası ilə ən yaxın ittifaq münasibətləri prioritet olmalıdır. Xüsusilə də Qarabağda Rus qoşunlarının olduğu bütün məntəqələrə Türkiyə və Pakistan silahlı qüvvələrinin gəlməsinə nail olmalıyıq. Rusiya ilə münasibətlərdə ehtiyatlı əldən verməməli, onun silahlı qüvvəsinin ərazilərimizdən mümkün qədər tez çıxıb getməsinə yönələn siyasət izləməliyik. Dünyadakı digər güclərlə münasibətlərimizdə isə xalqımıza indiyədək, xüsusilə də Vətən müharibəsi dövründə təmənnasız Qardaşlıq edən, bütün gücü ilə yanımızda olan Türkiyəni prioritet kimi götürməliyik. Başqa cür desək ”Türkiyənin dostu bizim də dostumuz, düşməni bizim də düşmənimizdir” formulu ilə siyasət yürtməliyik.

***Z. Məmmədli***

# PA-nın şöbə müdiri partiya sədrləri ilə görüşüb

## Yeni qanun layihəsi hazırlanır

***Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin partiya rəhbərləri və ictimai fəallar ilə görüşləri davam etdirilir.***

"Unikal" xəbər verir ki, bu səpkidə növbəti görüşlər ayrı-ayrılıqda videokonfrans formatında dekabrın 2-də Milli Məclisin deputatları - Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, həmçinin Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə və Milli Vəhdət Partiyasının sədri Yunus Oğuz ilə keçirilib.



Görüşlərdə Vətən müharibəsində qazanılmış böyük Qələbə, Ordumuzun şücaəti, Azərbaycanın keyfiyyət etibarilə yeni inkişaf mərhələsinə keçməsi, siyasi həmrəylik istiqamətində əldə olunmuş uğurların qorunması, COVID-19 pandemiyası ilə mübarizədə vətəndaşların fəallığı, VI çağırış Milli Məclisin fəaliyyəti, "Siyasi partiyalar haqqında" Qanunun yeni layihəsi və bir sıra digər önəmli mövzular müzakirə edilib.

Vətən müharibəsi ətrafında fikir mübadiləsi aparılaraq bildirilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu, əslində, dünyaya yeni hərbi strategiya nümayiş etdirib. Əminliklə vurğulanıb ki, Azərbaycanın sözügedən təcrübəsi bir çox ölkələr tərəfindən öyrəniləcək. Belə ki, cəmi 44 gün davam edən müharibə, əslində, fərqli hərbi strategiyaların savaşı idi.

Görüş zamanı xüsusi olaraq qeyd edilib ki, müharibədən sonrakı dövrdə aparılacaq sərt informasiya müharibəsində də siyasi həmrəyliyin nümayişi olduqca vacibdir. Odur ki, siyasi partiyaların birliyinin və qarşılıqlı dəstək mühitinin qorunması strateji vəzifədir.

Administrasiyanın rəsmisi mövzunu inkişaf etdirərək, təşkil olunan görüşlər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 dekabr tarixli Qələbə nitqinə müraciət edərək sözügedən çıxışdan sitat gətirib: "Bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur".

Prezidentin bu sözlərini, əslində, ölkəmizi mahiyyət və keyfiyyət etibarilə yeni inkişaf mərhələsinə çıxardığını vurğulayan Ə.Vəliyev Azərbaycan cəmiyyətinin bundan sonra da aparılacaq islahatlara hazır olmasının vacibliyini bildirib.

"Vətən müharibəsində əldə olunmuş Qələbə, eyni zamanda, Azərbaycanda 1 milyondan çox qaçqın və məcburi köçkün probleminin həlli deməkdir. Odur ki, sözün əsl mənasında, Azərbaycanı yaxın gələcəkdə böyük quruluş işləri gözləyir", - deyən Administrasiya rəsmisi sözügedən istiqamətdə də əməkdaşlığın önəmli olduğunu bildirib.

Adıçəkilən görüşlər əsnasında Qələbənin, eyni zamanda, şəhidlərin qanı hesabına əldə olunduğunu qeyd edən Ə.Vəliyev vurğulayıb ki, düşmənin mülki əhalini atəşə tutmasını da unutmaq olmaz və bu kimi faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq prinsipial vəzifədir. Bunu əsas tutaraq bütün görüşlərdə Vətənin şəhid olmuş övladlarına Allahdan rəhmət, ailələrinə və yaxınlarına səbir, yaralılara isə şəfa diləniIib.

Ölkədə başlamış islahatların səmərəliliyi mütləq müvafiq qanunvericilik bazası ilə dəstəklənməlidir. Bu mənada Milli Məclisin rolunu vurğulayan Ə.Vəliyev islahatların ruhuna və demokratik dəyərlərin inkişafına dəstək olacaq yeni qanun layihələrinə böyük ehtiyac olduğunu bildirib. Odur ki, çeviklik, müasirlik və innovativlik kimi keyfiyyətlər müasir Milli Məclisin əsas xüsusiyyətlərinə çevrilməlidir.

Həmçinin görüşlərdə bütün dünyanı narahat edən COVID-19 pandemiyası və müşahidə olunan tendensiyalar müzakirə edilib. Ölkəmizdə koronavirusa yoluxma sayı Prezidentin rəhbərliyi ilə qəbul edilmiş qərarlar nəticəsində mümkün qədər minimal səviyyədə saxlanılıb. Bundan əlavə, dövlətimizin başçısının göstərişi ilə modul tipli yeni xəstəxanaların, həmçinin tibbi maska və dezinfeksiya vasitələri istehsal edən müəssisələrin istifadəyə verilməsi, zəruri tibbi avadanlıqların Azərbaycana gətirilməsi, xaricdən həkim-mütəxəssislərin ölkəmizə dəvət edilməsi pandemiya ilə mübarizəyə müsbət təsir göstərib.

Görüşlər zamanı siyasi partiyaların fəaliyyəti haqqında fikir mübadiləsi də aparılıb. Qeyd olunub ki, siyasi partiyaların fəallığı Azərbaycanda vətəndaş cəmiyyətinin əsaslarının inkişafı üçün zəmin yaradır. Bu səbəbdən də dövlət tərəfindən siyasi partiyalara ayrılan diqqət məhz demokratiyanın inkişafına yönəlmiş sərmayə kimi dəyərləndirilməlidir.

Partiya sədrləri Fazil Mustafa, Qüdrət Həsənquliyev, Arzuxan Əlizadə və Yunus Oğuz çıxış edərək dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda "Anım Günü", "Zəfər Günü", həmçinin Vətən müharibəsində Qələbə ilə bağlı müvafiq orden və medalların təsis olunmasına dair sərəncamlarını yüksək qiymətləndirib, bu addımların ölkəmizdə milli birliyin inkişafına əvəzsiz töhfə olacağına əminliklərini bildiriblər.

Görüşə görə təşəkkürlərini bildirən partiya sədrləri dövlətçiliyimizin, iqtidar-müxalifət arasında dialoqun və yeni siyasi konfiqurasiyanın inkişafına hər zaman dəstək olacaqlarını vurğulayıblar.

***Z.Məmmədli***

# Vilayət Eyvazov bu rayonlara komendantlar təyin etdi



***Sentyabrın 27-dən başlayaraq müzəffər Azərbaycan ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatları nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə təhlükəsizlik tədbirləri gücləndirilir.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan Unikal.org-a bildirilib ki, Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları rayonun işğaldan azad edilmiş Suqovuşan və Talış kəndlərində xidməti fəaliyyətini bərpa edib.

Kəndlərin ərazisində təhlükəsizliyi təmin etmək üçün sahə inspektorları təyin edilib və xidməti post qurulub.

Kəlbəcər və Laçına komendantlar təyin edilib. Bu barədə Unikal.org-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Laçın Polis Şöbəsinin rəisi, polis polkovniki Adil Əliyev Laçına, Kəlbəcər rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Haqverdi Əkbərov komendant təyin edilib.

Hər iki şöbə artıq müavfiq olaraq öz rayonlarına köçürülüb.

# ATƏT sədri: "Dağlıq Qarabağla bağlı substantiv danışıqlar davam etməlidir"



***"Substantiv danışıqlar hərtərəfli və davamlı razılaşmanın əldə edilməsi məqsədi ilə davam etməlidir".***

Bunu ATƏT-in fəaliyyətdə olan sədri, Albaniyanın Baş naziri və xarici işlər naziri Edi Rama ATƏT Nazirlər Şurasının videokonfrans formatında keçirilən 27-ci iclasında çıxışı zamanı deyib. "Mən çox şükür edirəm ki, Dağlıq Qarabağda döyüşlər dayanıb və atəşkəs elan edilib. İndi götürülən öhdəliklərin yerinə yetirilməsinin vaxtıdır. Mən ATƏT-in Minsk Qrupu həmsədrlərinin himayəsi altında danışıqlar prosesinin yenidən başladılması təşəbbüsünə tam dəstəyimi ifadə edirəm. İndi substantiv danışıqlar yaxşı niyyətlə, sülh yolu ilə hərtərəfli və davamlı razılaşmanın əldə edilməsi məqsədi ilə davam etməlidir", - deyə E. Rama bildirib.

Qeyd edək ki, ATƏT-in Nazirlər Şurasının iclası başlayıb. ATƏT-in fəaliyyətdə olan sədri, Albaniyanın Baş naziri və xarici işlər naziri Edi Ramanın dəvəti ilə baş tutan qurumun Nazirlər Şurasının 27-ci iclası COVID-19 pandemiyası ilə əlaqədar videokonfrans formatında keçirilib.

Dekabrın 3-4-də keçiriləcək iclasda regiondakı təhlükəsizlik məsələləri, ATƏT-in hazırkı və gələcək kursu və ATƏT rəhbərliyindəki boş postlara təyinatlar müzakirə olunacaq. Nazirlər Şurasının iclasında 50-dən çox ölkənin xarici işlər naziri iştirak edir. Nazirlər Şurasının iclası həm də Albaniyanın ATƏT-ə sədrliyinin yekunu ilə bağlıdır və videokonfransda ATƏT-in növbəti il üçün kursu müəyyənləşəcək. 2021-ci il yanvarın 1-dən etibarən ATƏT-ə sədrlik İsveçə keçir.

# Həlak olan 103 hərbçinin DNT yolu ilə şəxsiyyəti müəyyənləşdirilir

***Vətən müharibəsində həlak olmuş Silahlı Qüvvələrimizin 103 nəfərinin DNT analiz metodu ilə şəxsiyyətinin müəyyən edilməsi üzrə işlər davam etdirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Məlumatda bildirilib ki, Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olub.

# Paşinyan daha bir məmuru işdən çıxardı

***Ermənistanın baş naziri Nikol Paşinyan daha bir məmuru vəzifəsindən azad edib.***

Unikal.org Ermənistan KİV-ə istinadən xəbər verir ki, Ermənistanın Sünik əyalətinin qubernatoru Unan Poğosyan istefaya göndərilib. 2018-ci ildəki inqilabdan sonra bu vəzifəni tutan qubernator uzun müddət polis sistemində işləyib. Onun işdən çıxarılmasının səbəbləri açıqlanmayıb.

10 noyabrda imzalanan üçtərəfli bəyanatdan sonra Ermənistanda kütləvi istefalar və kadr dəyişikliyi dalğası davam etməkdədir. Qeyd edək ki, Sünik əyaləti tarixi Zəngəzur mahalının ərazisində yerləşir.

# Şuşanın azad edilməsi dünya hərb tarixinə düşəcək - MN



***Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biridir.***

Unikal.org xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib.

Qeyd olunub ki, 30 ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad olunub:

"Döyüş əməliyyatı planlarının yüksək peşəkarlıqla hazırlanması, yüksək texnologiyaların tətbiqi, müxtəlif qoşun növlərinin fəaliyyətinin səmərəli əlaqələndirilməsi, havada mütləq üstünlüyün əldə edilməsi, ordumuzun manevr qabiliyyəti və digər taktiki və strateji üstünlükləri şəxsi heyətin sıralarında itkilərimizi əsaslı dərəcədə azaldıb".

# Kollegiya sədri Adil İsmayılovdan yazdı

## Anar Bağırov:"Təsəvvür edə bilməzdim ki, bu, bizim son danışığımızdır"

***"Adil İsmayılov qəlbimizdə təcrübəli, savadlı, prinsipial, müdrik bir həmkar kimi həmişə yaşayacaq".***

"Unikal" xəbər verir ki, bunu Vəkillər Kollegiyasının sədri Anar Bağırov "Facebook"dakı səhifəsində yazıb.

Kollegiya sədrinin sözlərinə görə, son dəfə təxminən 20 gün əvvəl Adil İsmayılovla telefonla danışıb:

"Özüm zəng vurdum, çoxdandır ondan xəbər yox idi, nə isə narahatçılıq hiss etdim. Mənə hər şeyin qaydasında olduğunu, narahatçılıq üçün heç bir əsasın olmadığını bildirdi.

Mən isə o zaman heç vaxt təsəvvür edə bilməzdim ki, bu, bizim son danışığımızdır. Adil müəllim 28 ildən çox vəkil kimi fəaliyyət göstərirdi. Ölkənin ən tanınan və nüfuzlu vəkillərindən idi. Vəkilliyin nüfuzunun artırılmasında xidmətləri danılmazdır. Son 3 ildə Vəkillər Kollegiyası tərəfindən 2 dəfə təltif olunmuşdu. Hər dəfə təltifi təqdim edəndə deyirdi ki, mənim heç vaxt təltifim olmayıb və buna lüzum görmürəm. Hər dəfə izah edirdim ki, Adil müəllim, bu sizin zəhmətinizə, xidmətlərinizə peşə birliyiniz tərəfindən gec də olsa verilən qiymətdir, bunu çoxdan öz fədakar əməyinizlə qazanmısınız.

Allah sizə rəhmət eləsin, əziz Adil müəllim, məkanınız cənnət olsun, Allah bütün vəkillərimizə və yaxınlarınıza səbr versin!".

# Şəhidlərin adları, təvəllüdü, rütbəsi açıqlanacaq - MN

***Vətən Müharibəsində həlak olan hərbi qulluqçuların adları, təvəllüdü, rütbəsi və keçdiyi döyüş yolu barədə təfərrüatlı məlumatlar əlavə olaraq ölkə ictimaiyyətinə təqdim olunacaq.***

"Unikal"ın xəbərinə görə, bu barədə Azərbaycan Müdafiə Nazirliyinin yaydığı açıqlamada bildirilib.

"Aidiyyəti dövlət qurumlarının əməkdaşlarından ibarət komissiya bu istiqamətdə fəaliyyət göstərir", - məlumatda qeyd olunub.

Qeyd edək ki, Vətən Müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olub. Onların sırasında 103 nəfər hərbi qulluqçunun DNT analiz metodu ilə şəxsiyyətinin müəyyən edilməsi üzrə işlər davam etdirilir. 100 nəfərdən artıq hərbi qulluqçumuz isə itkin düşmüş hesab olunur. Onların tapılıb ailələrinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür. Hazırda 1245 nəfər hərbi qulluqçumuzun tibb müəssisələrində müalicəsi davam edir.

# Dövlət Dəniz Agentliyinə mətbuat katibi təyin olunub

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinə yeni mətbuat katibi təyin olunub.***

Bu vəzifə Pərvanə İmanovaya həvalə edilib.

O, indiyə qədər "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin baş redaktorunun müavini olub və yeni vəzifəsində Tural Müseyibovu əvəz edib.

# Vilyam Hacıyevin inadı...

## Sabiq icra başçısı azadlığa çıxmaq üçün vəsatət ardınca vəsatət qaldırır, lakin ölkə reallıqlarının artıq çox fərqli olduğunu unudur



***Yola salmaq üzrə olduğumuz həftə Səbail Rayon Məhkəməsində İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyevin barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı müdafiəçisinin verdiyi vəsatətə baxılıb.***

Bu barədə xəbərdə deyilirdi ki, hakim Ülviyyə Şükürovanın sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub.

Qərara əsasən, vəkil Orxan Zeynalovun verdiyi vəsatət təmin edilməyib və sabiq icra başçısı barədə qətimkan tədbiri dəyişdirilməyib.

Xatırladaq ki, İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyevin icra hakimiyyətinin sərəncamında olan vəsaitlərin sosial yardım adı altında bir hissəsini ələ keçirilməsini, eləcə də ölkə ərazisində xüsusi karantin rejiminin tələblərinin pozulması ilə sərbəst hərəkət etmək üçün bəzi vətəndaşlara saxta arayışların verilməsini tapşırmasına, vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə mənimsənilən pul vəsaitlərini sahibliyində olan yaşayış evində qəbul etdiyinə əsaslı şübhələr müəyyən olunub.

2020-ci il mayın 5-də məhkəmənin qərarı əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Vilyam Hacıyevin xidməti və yaşadığı ünvanlarda əməliyyat-istintaq tədbirləri həyata keçirilib, ardınca isə barəsində həbs qətimkan tədbiri seçilib.

Sabiq icra başçısı bu qərarın dəyişdirilməsi üçün ilk addımı elə həbs olunduğu ayda - mayın ortalarında atıb. Lakin bununla bağlı vəsatəti elə indi olduğu kimi rədd edilib.

Oktyabrda isə bu dəfə Səbail rayon Məhkəməsində Vilyam Hacıyevin ev dustaqlığına buraxılması ilə bağlı vəsatətə baxılıb. Hakim İlkin Rüstəmovun sədrliyi ilə keçirilən həmin prosesdə də vəsatət araşdırılıb, ancaq təmin edilməyib.

Göründüyü kimi, keçmiş rayon rəhbəri azadlığa buraxılması üçün indiyədək üç dəfə səy göstərib, lakin hər dəfə cəhdi nəticəsiz qalıb. Qeyd edək ki, həbsdə olan digər icra başçılarının heç biri bu inadkarlığı göstərməyib - barələrindəki həbs qətimkan tədbirinin dəyişdirilməsi üçün ardıcıl vəsatətlər qaldırmayıb.

Bunun səbəbi aydındır.

"Hər şey yaxşı olacaq. Bu günlər keçəcək. Haqq yerini tapacaqg" - bu sözləri İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı hələ haqqında həbs qətimkan tədbiri seçildikdən sonra məhkəmə qarşısında yaxınlarına xitabla demişdi.

Həmin vaxt bu KİV-də və ictimai rəydə onun kimlərə və yaxud nələrəsə arxayınlığı kimi yozulmuşdu. Belə güman olunurdu ki, V.Hacıyev həbsdə çox qalmayacağına inanır və bu zaman naməlum himayədarının, yaxud himayədarlarının hər hansı formada yardımına ümid edir.

Lakin sabiq icra başçısının həmin ümidi ilk dəfə mayın 15-də apellyasiya şikayətinə baxıldıqdan sonra boşa çıxmışdı. Onun barəsində həbs- qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə qərarından verilən şikayət rədd edilmişdi. Ardınca oktyabr və noyabrda qaldırdığı iki vəsatət də rədd olundu. Ancaq yəqin ki, Vilyam müəllim oxşar cəhdləri bundan sonra da davam etdirəcək.

Reallıq isə başqa şeyi deyir: rüşvət və korrupsiyaya bulaşan yüksək vəzifəlilərin hansısa vasitələrlə qısa zamanda "sudan quru çıxacaqlarına" ümid etmələri, azadlıqlarına qovuşacaqlarına inam bəsləmələri mənasızdır.

Ölkə başçısı da bir sıra çıxışlarında açıq şəkildə vurğulayıb ki, hansısa məmur kimləsə arxayın olub, arxalanıb özünü toxunulmaz hesab edirsə yanılır. Dövlət rəhbəri, eyni zamanda, korrupsiyaya bulaşmış heç bir məmurun toxunulmaz olmadığını da bəyan etmişdi. V.Hacıyevin timsalında bu deyilənlər növbəti dəfə təsdiqləndi. Bir daha məlum oldu ki, heç bir korrupsioner, rüşvətxor məmur qanunsuz əməllərini müxtəlif yollarla, vasitələrlə, yaxud vasitəçilərlə pərdələyəcəyinə bel bağlayır, cəzasız qalacağına, cəzadan qurtulacağına inanırsa kökündən yanılır.

Necə deyərlər, artıq dəmlər o dəmlər deyil...

Ona görə də vəzifəli şəxslər qanunsuz əməllərə imza atarkən V.Hacıyevin timsalında onları gözləyəcək aqibəti bəri başdan görməli, qanunazidd işlərə qol qoymaqdan çəkinməlidirlər. Tutduqları posta vətəndaşı incitmək, onu süründürmək, hakimiyyətdən narazı salmaq, dövlət büdcəsini yağmalayaraq var-dövlət sahibi olmaq, hətta işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün əmək-haqqı kartlarına köçürülən məbləğləri belə mənimsəmək vasitəsi kimi baxmamalıdırlar. Əks halda sonra gec olacaq.

Necə ki artıq Vilyam Hacıyev üçün gecdir - "qatar gedib", bundan sonra o, ancaq və ancaq törətdiyi qanunsuz əməllərin cəzasını çəkmək barədə düşünməlidir...

Elə digərləri də!

***Sənan Mirzə***

# Oqtay Şirəliyevin müəmmalı gələcəyi...

## Səhiyyə Nazirliyinin ləğv edilməsi və ya ƏƏSMN-ə birləşdirilməsi ilə bağlı müzakirələr yenidən gündəmə gəlib



***Son günlər xüsusilə sosial şəbəkələrdə Səhiyyə Nazirliyi (SN) yenidən tənqid hədəfinə çevrilib. Bu qurumun illər ərzində düzgün idarə olunmaması nəticəsində səhiyyə sistemində ciddi boşluqların meydana gəldiyi vurğulanır. Ardınca isə bildirilir ki, pandemiya dövründə həmin boşluqlar daha aydın görünüb. Elə bu səbəbdən də nazirliyin bir çox səlahiyyətlərinin yeni yaradılan quruma - TƏBİB-ə verilməsi məqsədəuyğun sayılıb.***

Sosial şəbəkələrdəki müzakirələrdə artıq SN-nin səhiyyə sistemi üzərində funksionallığının qalmadığına və ləğv edilməsinin zəruriliyinə diqqət çəkilir. Digər bir variant isə zaman-zaman gündəmə gələn təklifdir: söhbət adıçəkilən nazirliyin Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə (ƏƏSMN) birləşdirilməsinin mümkünlüyündən gedir.

Əksər ekspertlər də SN ilə bağlı tənqid və iradları bölüşür; eyni zamanda ölkədə son illər aparılan ciddi kadr və struktur islahatları, xüsusilə də hökumətin optimallaşması çərçivəsində Oqtay Şirəliyevin rəhbəri olduğu nazirliyin ƏƏSMN-ə birləşdirilməsini doğru saydıqlarını ifadə edirlər.

Bir daha yada salaq ki, 2020-ci ildən etibarən bir çox səhiyyə müəssisələrinin Səhiyyə Nazirliyinin tabeliyindən çıxarılaraq TƏBİB-ə verildiyi üçün nazirlik artıq səhiyyə qanunvericiliyinin tətbiqi qaydaları, beynəlxalq əməkdaşlıq, təlimatlar, instruksiyalar, xəstə-tibb işçisi arasında münasibətlər və bu kimi digər funksiyaları həyata keçirir.Həmçinin ekspertlərin fikrincə, İcbari Tibbi Sığorta (İTS) pilot layihə kimi uğurlu nəticə verib. İTS vətəndaşlara istər profilaktika nöqteyi-nəzərdən, istərsə də müalicə nöqteyi-nəzərdən xidmət edən qurumdur. Prezidentin bu istiqamətdə imzaladığı sərəncamda da bütün bunlar öz əksini tapıb.SN isə dövlətin səhiyyə siyasətini həyata keçirən orqan kimi fəaliyyətinə davam edir. Onun balansında olan bir sıra müəssisələr var ki, onlar TƏBİB-ə tabe edilməyib. Məsələn, Azərbaycan Tibb Universiteti, Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və onun şöbələri, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin tabeliyindəki dezinfeksiya stansiyaları və profilaktik dezinfeksiya şöbələri, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və onun filialları, Milli Onkologiya Mərkəzi və onkoloji xəstəxanalar (dispanserlər), Respublika Leproz (Cüzam) Xəstəxanası və digər bu kimi digər müəssisələr... İcbari Tibbi Sığorta Agentliyi isə profilaktika və müalicə sahəsində icraçı qurumdur. Amma bu profilaktika qaydalarının, müalicə protokollarının həyata keçirilməsi və nəzarəti SN-in funksiyalarına aiddir. SN gələcəkdə İcbari Tibbi Sığortanın keyfiyyətini müəyyənləşdirəcək.

Ekspertlərin fikrincə, bütün bunlar deməyə əsas verir ki, Şirəliyevin rəhbərlik etdiyi qurumun ayrıca nazirlik kimi qalması gərəksizdir. Onun hazırkı səlahiyyətləri ƏƏSMN şərçivəsində də gerçəkləşdirilə bilər. Yuxarıda sadalanan, yenə hələ ki, SN-nin tabeliyində qalan müəssisələrin isə TƏBİB-ə verilməsi mümkündür.

Mütəxəssislərin qənaəti ondan ibarətdir ki, adları çəkilən iki nazirliyin birləşdirilməsi labüddür, eyni zamanda, bir çox ölkələrdə səhiyyə sistemi sosial müdafiə sisteminin tərkib hissəsi kimi, vahid qurum tərəfindən idarə olunur. Çox uzağa getməyək, elə bizim region ölkələrində - Rusiya və Gürcüstanda bu, sınaqdan keçirilib. Nəzərə almaq lazımdır ki, səhiyyə bütövlükdə sosial müdafiənin tərkib hissəsidir. Həm də onu nəzərə almaq lazımdır ki, bu ilin əvvəlindən Səhiyyə Nazirliyinin, yuxarıda da vurğuladığımız kimi, bir çox önəmli səlahiyyətləri tam məhdudlaşdırılıb. Yəni bir halda ki, SN-nin əsas işi səhiyyə siyasətinin həyata keçirilməsidir, elə isə bu çox rahat şəkildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibində həyata keçirilə bilər. Məsələn, həmin nazirliyin tərkibində səhiyyə siyasətini həyata keçirən bir departamentin yaradılması mümkündür.

Qısası, əksər ekspertlərin qənaəti ortaqdır: SN-nin ləğv edilməsi və ƏƏSMN-ə birləşdirilmsi tamamilə məqbul bir modeldir.

Və sonda: görünən odur ki, Oqtay Şirəliyevin rəhbərlik etdiyi nazirliyin taleyi ilə bağlı müzakirələr hələ uzun müddət davam edəcək. Müzakirələrin nə ilə nəticələnəcəyini isə zaman göstərəcək. Odur ki, gözləyək...

***Sənan Mirzə***

# Aktiv COVID-19 xəstələri Bakının mərkəzində tutuldu

***Nərimanov rayon Polis İdarəsi 17-ci Polis Şöbəsinin əməkdaşları rayon ərazisində ictimai yerdə aktiv COVID-19 xəstəsi olan Bakı şəhər sakini, 34 yaşlı Mahmud Məmmədovu saxlayıblar.***

DİN mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, polis əməkdaşları tibbi prosedurları gözləməklə onu yaşadığı evə qaytarıblar. Onun barəsində Nərimanov rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb, istintaq araşdırmaları davam etdirilir.



DI?N-in Mətbuat Xidmətindən verilən məlumata görə, Səbail RPŞ 8-ci Polis Bölməsinin əməkdas?ları tərəfindən rayon ərazisində ictimai yerdə, əmək fəaliyyəti ilə məşğul olan aktiv "COVID-19" xəstəsi - Bakı şəhər sakini Rəşad Səfərov müəyyən olunaraq saxlanılıb. Polis əməkdaşları tibbi prosedurları gözləməklə onu yaşadığı evə qaytarıblar. Onun barəsində Səbail RPŞ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb, istintaq araşdırmaları davam etdirilir.



# "Münaqişədən sonrakı yeni mərhələyə qədəm qoyuruq" - Ceyhun Bayramov

***"Azərbaycan tərəfi etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bərabər şəkildə və ayrı-seçkilik olmadan bütün Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarını təmin edərək Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin ərazilərində yaşayan erməni əsilli vətəndaşlarını ölkənin siyasi, sosial, iqtisadi məkanına yenidən inteqrasiya etməkdə qərarlıdır. Bu baxımdan Azərbaycan Respublikasının Konstitusiyası möhkəm hüquqi bazanı təmin edir".***

Unikal.org xəbər verir ki, bunu ATƏT-in Nazirlər Şurasının 27-ci iclasında Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov çıxışı zamanı deyib. Nazir bildirib ki, münaqişənin əhatə etdiyi ərazilərdəki azərbaycanlı və erməni sakinlərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində bir-birlərinin təhlükəsizliyinə, etnik və dini mənsubiyyətinə hörmətə əsaslanan dinc birgəyaşayışı təmin edilməlidir və sonunda təmin ediləcək:

"Biz münaqişədən sonrakı yeni mərhələyə, yenidənqurma və bərpa mərhələsinə, dinc birgəyaşayışın bərpa mərhələsinə qədəm qoyuruq. İnkişaf və əməkdaşlıq üçün yeni imkanlar meydana çıxır. Həmkarlarımızı və tərəfdaşlarımızı yeni perspektivli reallıqları qiymətləndirməyə və onlardan faydalanmağa çağırırıq".

# "Bu, Azərbaycanın suverenliyi çərçivəsində həll olunmalıdır" - Çavuşoğlu

***"Son hadisələr Azərbaycan torpaqlarının 30 il davam edən işğalının sonsuza qədər davam etməyəcəyini göstərdi".***

Unikal.org xəbər verir ki, bunu ATƏT Xarici İşlər Nazirləri Şurasının bu gün başlamış iclasında Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.

O, daim beynəlxalq hüququn tərəfində olduqlarını da qeyd edib.

"ATƏT-in Minsk qrupunun üzv ölkəsi olaraq biz bu münaqişənin uzunmüddətli həlli üçün əlimizdən gələn səyləri göstərməyə daim hazırıq. Həmişə münaqişənin beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT prinsiplərinə əsasən həll olunmasının vacibliyini bildirmişik. Münaqişə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır", - deyən türkiyəli nazir Azərbaycan ilə Ermənistan arasında Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılaşmanı 30 il sonra sülh üçün həqiqi şans olaraq dəyərləndirib:

"Bu fakt regional sabitlik üçün, o cümlədən Azərbaycan - Ermənistan, Türkiyə - Ermənistan münasibətləri üçün müsbət hadisədir".

# Ərdoğan Kılıçdaroğlunu məhkəməyə verdi

***Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğan Kamal Kılıçdaroğlunu məhkəməyə verib.***

Unikal.org "TRT Haber"ə istinadən xəbər verir ki, Ərdoğan müxalif Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlundan 500 min türk lirəsi təzminat tələb edir.

Buna səbəb Kılıçdaroğlunun parlamentdəki çıxışı zamanı ölkə prezidentini təhqir etməsi və şərf və ləyaqətə toxunan ifadələr işlətməsi olub. İş artıq məhkəmə icraatına götürülüb.

# Zakir Həsənov Rusiya sülhməramlılarının komandanı ilə görüşdü

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı general-leytenant Rüstəm Muradov ilə görüşüb.***

Müdafiə Nazirliyindən Unikal.org-a verilən məlumata görə, görüşdə Azərbaycan, Rusiya Prezidentləri və Ermənistanın baş nazirinin birgə Bəyanatının müddəalarının icrası məsələləri müzakirə olunub.

# DİN-dən azad olunan ərazilərə getmək istəyənlərə müraciət

***Daxili İşlər Nazirliyi partlayıcı maddələrdən təmizlənənə qədər vətəndaşlarımızın azad olunan ərazilərə getməməsi üçün növbəti dəfə müraciət edib.***

"Unikal"ın məlumatına görə, müraciətdə DİN bir daha əhaliyə xəbərdarlıq edərək təhlükənin mövcudluğunu nəzərə alıb müvafiq icazə olmadan, işğaldan azad olunmuş ərazilər minalardan və digər partlayıcı vasitələrdən tam təmizlənənədək həmin bölgələrə səfər etməmələrini xahiş edib.

# Zəngilanda növbəti ağacəkmə aksiyası keçirildi

***Növbəti ağacəkmə işğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kəndi ərazisində keçirilib.***

"Unikal"ın məlumatına görə, Meşələrin İnkişafı Xidmətinin rəis müavini Mehman Səfərov bildirib ki, Ekologiya və Təbii Sərvətlər və Kənd Təsərrüfatı Nazirliklərinin əməkdaşlarının iştirakı ilə keçirilən ağacəkmə tədbirində karantin rejiminin tələblərinə əməl olunmaqla 400-ə yaxın tut ağacı əkilib.

M.Səfərovun sözlərinə görə bu, Zəngilan rayonu ərazisində keçirilən ikinci əkin-bərpa tədbiridir, bundan əvvəl rayon ərazisində Şərq çinarları əkilmişdi.

"Xatırladım ki, payız ağacəkmə kampaniyası çərçivəsində işğaldan azad olunmuş Füzuli, Ağdam və Qubadlı rayonlarının ərazilərində də ağacəkmə tədbirləri keçirilib, yerli şəraitə uyğun müxtəlif cinsli ağaclar əkilib və meşəcinsli ağac toxumları səpilib. Respublikanın bütün bölgələrində əkin-bərpa işləri davam edir".

# Gəncə Şəhər İH-ə növbəti onlayn qəbul keçirilib

***Gəncə Şəhər İcra Hakimiyyətində növbəti vətəndaş qəbulu keçirilib. Qəbul xüsusi krantin rejimi qaydalarına uyğun olaraq onlayn qaydada təşkil olunub.***

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov müvafiq idarə, müəssisə və təşkilat rəhbərləri ilə birlikdə vətəndaşların probemlərini dinləyib, səsləndirilən məsələlərin həlli istiqamətində tapşırıq və tövsiyyələrini verib.

Qəbula yazılan vətəndaşların səsləndirdikləri müraciətlər işlə təminat, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, fərdi evlərə su, qaz və elektrik xətlərinin çəkilişi və digər məsələlərdən ibarət olub.

Niyazi Bayramov vətəndaşların şikayət və təklifləri ilə bağlı onlayn qəbulda iştirak edən məsul şəxslərlə müzakirələr aparıb, qaldırılan məsələlərin nəzarətə götürülməsi barədə tapşırıqlar verib. Bəzi məsələlər yerindcə öz həllini tapıb, araşdırılması vacib olan müraciətlər isə aidiyyatı qurumlar üzrə yönləndirilib.

# UNEC brendi Gürcüstanda tanındı

***Universitetlərin beynəlmiləlləşməsi və dünta təhsil bazarında baş verən qlobal trendlər ali təhsil müəssisələri arasında güclü rəqabət mühitinin yaranmasını zəruri edir.***

UNEC bu istiqamətdə öz fəaliyyətini uğurla davam etdirir. Unikal.org xəbər verir ki, UNEC dünya təhsil brendləri arasında öz mövqeyini gücləndirərək artıq Gürcüstanda da tanındı. Belə ki, Gürcüstanın İntellektual Mülkiyyət İnstitutu "UNEC"i Azərbaycan Dövlət İqtisad Universitetinin brendi kimi qorunma altına aldı.

Beləliklə, UNEC Türkiyə, Slovakiya, Macarıstan, Xorvatiya, Polşa, Latviya, Litva, Estoniya, Rusiya və Ukraynadan sonra 11-ci ölkədə tanınmış oldu.

# Nizaməddin Quliyevlə oğlunun şirkəti arasında qaranlıq ilişgilər...

## Milyonlarla manat dövlət vəsaitinin taleyi hələ də müəmmalı qalıb

***Ötən ilin dekabrında Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilən Nizaməddin Quliyevin yeni korrupsiya əməlləri ortaya çıxıb. Belə ki, onun hələ Goranboy rayonunun icra başçısı olarkən külli miqdarda dövlət vəsaitini guya tender yolu ilə oğluna məxsus şirkətə yönəltdiyi aydınlaşıb.***

Qeyd edək ki, ötən ilin sonlarında Nizaməddin Quliyev və başqaları vəzifə səlahiyyətlə-edib.

21.05.2012-ci il tarixli tenderdə isə "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsi" ilə Goranboy rayonunda abadlıq və quruculuq işləri üçün N.Quliyevin oğlunun nəzarətindəki firmaya 1 352 704,79 manat (bir milyon üç yüz əlli iki min yeddi yüz dörd manat yetmiş doqquz qəpik) məbləğində ödəniş olunub.

Bu da son deyil. 25.12.2012-ci il tarixli "Mallar (işlər və xidmətlər) üzrə satı-həyata keçirilən quruculuq və abadlıq işlərində subpodratçı kimi iştirak etmişəm. Hər dəfə görülən işlərə görə pulu "Fəqan Xidmət"in rəhbəri Fəyyaz Məmmədovdan deyil, məhz icra başçısı Nizaməddin Quliyev və onun müavini Baxış Abdullayevdən almışam. Necə ola bilər ki, şirkətlə işlədiyim halda, görülən işin pulunu onun rəhbərindən deyil, icra başçısı və müavinindən alınıb? Bundan əlavə, "Fəqan Xidmət" şirkətinin fəaliyyətində yetərli qədər



rindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə və digər faktlara görə Dövlət Təhlükəsizliyi Xidmətində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanılmış cinayət işləri üzrə şübhəli şəxs qismində saxlanılıblar. Hazırda iş üzrə cinayətin digər iştirakçılarının müəyyənləşdirilərək istintaqa cəlb olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

N.Quliyev bundan əvvəl isə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı postunu tutub. Həmin vaxt o, rayonda keçirilən dövlət satınalmalarının böyük bir hissəsini müəmmalı şəkildə özünə yaxın şirkətlərə istiqamətləndirib.

"Unikal" qəzetinin araşdırmalarına görə, təkcə 2012-ci ilin mart ayında Goraboy rayonunda abadlıq işləri aparılması üçün dövlət büdcəsindən 2.000.000 manat pul ayrılıb, tender keçirilib və həmin tenderin qalibi kimi "Fəqan Xidmət" firmasının adı açıqlanıb. 28.03.2012-ci il tarixli "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsi" ilə Goranboy rayonunda abadlıq və quruculuq işləri üçün həmin firma MMC 272 547 (iki yüz yetmiş iki min beş yüz qırx yeddi) manat məbləğində tenderi qəbul nalma müqaviləsi" ilə Goranboy rayonunda abadlıq və quruculuq işləri üçün N.Quliyevin oğlunun şirkəti 105 000 (yüz beş min) manat məbləğində tenderin "qalibi" olub.

Ən maraqlısı odur ki, udduğu milyonluq dövlət satınalmalarına baxmayaraq, adıçəkilən şirkət elə də böyük kollektivə malik olmayıb, üstəlik, "Fəqan Xidmət"in nizamnamə kapitalı da qəpik-quruşla ifadə edilir.

İddialara görə, sözügedən firma ilə bağlı son 10 ildə yetərincə ciddi qalmqallar da yaşanıb. Məsələn, 2014-cü ildə o vaxt həbsdə olan iş adamı Müqayis Verdiyevin mətbuatda yer alan müraciətində bildirilib ki, həmin şirkət 2012-ci ildə Goranboy rayon İcra Hakimiyyəti tərəfindən elan edilmiş tenderin müəmmalı şəkildə qalibi olub. Həmçinin vurğulanıb ki, "Fəqan Xidmət" MMC-nin rəhbəri Fəyyaz Məmmədov Goranboy Rayon İcra Hakimiyyətinin o vaxtkı başçısı Nizaməddin Quliyev və müavini Baxış Abdullayevlə əlbir olaraq, dövlət büdcəsindən ayrılmış pulları mənimsəməklə məşğul olublar. Bildirilib ki, "Fəqan Xidmət" MMC-nin Fəyyaz Məmmədov tərəfindən idarə edilməsi həqiqətəuyğun deyil: "Mən Goranboy rayonunda qanun pozuntusu mövcuddur və onların araşdırılması zərurəti var..."

İş adamı həmçinin sifarişlə həbs olunması məsələsinə də toxunub. Bildirib ki, həbsinin sifarişini birbaşa Nizaməddin Quliyev verib: "Rayona ayrılmış milyonlarla manat pul icra başçısı tərəfindən mənimsənilib. Bu adam öz əməllərini örtbasdır etmək üçün mənə şər ataraq, həbs etdirib. "Fəqan Xidmət" şirkəti də bilavasitə icra başçısının oğlu Ramal Quliyevə məxsusdur. Fəyyaz Məmmədov isə formal olaraq şirkətə rəhbər təyin edilib ki, iz itirilsin. Mənim sifarişlə həbs olunmağımı təsdiq edən sənədlər də əlimizdədir və onu mətbuat vasitəsi ilə yayımlamışıq..."

Bənzər iddia, ittiham və faktlar yetərincədir. Aydın görünür ki, hazırda həbsdə olan N.Quliyev icra başçısı olarkən dövlətin milyonlarla manatlıq vəsaitini de-fakto oğluna məxsus şirkətə yönəltməklə misli görünməmiş korrupsiya əməllərinə yol verilib. Yəqin ki, eks-icra başçısının məhkəməsində bu əməllərlə bağlı ictimaiyyətin məlumatsız olduğu yetərincə sensasiyalı bilgilərin açıqlanmasına şahidlik edəcəyik...

***Elvin Rüstəmov***

# Etibar Pirverdiyevi 2015-ci ildə həbsdən qurtaran səbəb...

## Sabiq "işıq şefi"nin korrupsiya əməlləri ətrafında söz-söhbət səngimir

***Bir zamanlar Azərbaycanın ən qüdrətli məmur-oliqarxlarından biri olan "Azərenerji" ASC-nin sabiq prezidenti Etibar Pirverdiyev sayılırdı. Pirverdiyev korrupsiya pulları hesabına qısa vaxtda özünə nəhəng biznes şəbəkəsi yaratmışdı. Sabiq "işıq şefi" məsul olduğu sahəyə ayrılan dövlət vəsaitlərinin, necə deyərlər, "altından girib üstündən çıxırdı". Nəticədə onun adı ölkənin əsas oliqarxları sırasında çəkilirdi.***

Lakin 2018-ci ildə 54 yaşlı Pirverdiyevin karyerası biabırçı şəkildə başa çatdı. O, "Azərenerji" ASC-nin prezidenti vəzifəsindən azad edildi.



Pirverdiyevin işdən çıxarılması həmin il iyulun 3-də Mingəçevir şəhərində fəaliyyət göstərən ölkənin ən böyük elektrik stansiyası olan "Azərbaycan" İES-in 1-ci və 6-cı enerji blokunda partlayışla birbaşa əlaqəli idi. Bütün ölkəni işıqsız qoyan, dövlətə və əhaliyə böyük ziyan vuran bu hadisədən dərhal sonra ölkə başçısı baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzaladı. Dövlət Komissiyasının bir müddət sonra hazırladığı yekun rəydə baş verən hadisədə Pirverdiyevin məsuliyyəti aydın ifadə edilmişdi.

"Unikal"a daxil olan məlumata görə isə, sabiq "işıq şefi" əslində bu hadisədən üç il öncə - 2015-ci ildə vəzifədən azad edilə bilərmiş. Buna səbəb isə onun rəhbəri olduğu ASC-də misli görünməmiş korrupsiya faktlarının aşkar edilməsi imiş.

Belə ki, həmin il Hesablama Palatası "Azərenerji" -də audit aparıb.

Çox keçmir ki, Palatanın rəsmi saytında auditin nəticələri dərc olunur. Bununla bağlı müvafiq hesabatda "Azərenerji"yə ayrılan büdcə vəsaitlərinin xərclənməsində ciddi pozuntular üzə çıxdığı məlum olur.

Məsələn, yoxlama nəticəsində aydınlaşır ki, sözügedən ASC tərəfindən dövlət əsaslı vəsait qoyuluşu üçün tələb olunan büdcə vəsaitlərinin proqnozlaşdırılması zamanı sahə üzrə dövlət investisiya layihələrinin əsaslandırılmasını, ilkin strukturunu və qiymətləndirilməsini özündə əks etdirən investisiya təklifləri tərtib edilməyib.

Birbaşa layihə-smeta sənədlərinin hazırlanması, layihənin texniki iqtisadi əsaslandırılması və qiymətləndirilməsi aparılmayıb. Tikinti layihələri şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması, həmin tikinti obyektlərinə ayrılmış vəsaitlərin səmərəli istifadəsinin qiymətləndirilməsi üçün ekspertizadan keçirilməyib. Habelə müvafiq qaydaların tələblərinə uyğun olaraq tikintilərin cari qiymətlər səviyyəsində ehtimal olunan dəyəri müəyyən edilməyb.

Auditor bir neçə halda paylayıcı elektrik şəbəkələrinin yenidən qurulması layihəsi üzrə obyektlərin layihə-smeta sənədlərinin podratçı təşkilatın sifarişinə əsasən hazırlandığını müəyyən edib. Həmçinin layihə-smeta sənədlərinin hazırlanması xərclərinin podrat müqaviləsinə daxil edildiyini, işlərin yerinə yetirilməsi zamanı podratçıya artıq vəsait ödənildiyini üzə çıxarır.

Yoxlamalar nəticəsində müəyyən olunur ki, Pirverdiyevin rəhbərlik etdiyi qurum işlərin və xidmətlərin satın alınması zamanı bəzi hallarda satınalma proseduru tətbiq edilmədən podratçılarla birbaşa müqavilələr bağlayıb.

Hesablama Palatası həmçinin müəyyənləşdirib ki, bir neçə obyektin tikintisi başa çatdırılsa da Dövlət qəbul Komissiyası tərəfindən istismara qəbul edilməyib. Ancaq həmin obyektlərin dəyərinin ASC-nin maliyyə hesabatlarında aktivlərə aid edildiyi üzə çıxır.

Bütün bu ciddi pozuntulara baxmayaraq Hesablama Palatası "Azərenerji"də aparılmış yoxlamaların nəticəsini tədbir görülmək üçün hüquq-mühafizə orqanlarına göndərmir. Palata "Azərenerji"də aparılmış yoxlamaların nəticələrinin müzakirə olunmasına həsr edilmiş kollegiya iclasında ASC-yə tövsiyə edir ki, bu pozuntuları aradan qaldırsın və belə hallara gələcəkdə yol verməsin.

Hərçənd ki, ortaya çıxarılmış pozuntulardan ciddi korrupsiya iyi gəldiyi tamamilə aydındır. Əgər "Azərenerji" heç bir texniki-iqtisadi əsaslandırma aparmadan, ekspertiza keçirmədən, müvafiq şəhərsalma normalarına məhəl qoymadan tikinti layihələrinə büdcə vəsaitlərini xərcləyibsə, bəyəm burada korrupsiya əlamətləri yox idi? Yaxud layihə-smeta xərclərinin podratçı tərəfindən hazırlanması, podratçıya əlavə pul ödənilməsi və ya podratçının tender yolu ilə deyil, birbaşa seçilməsi korrupsiyadan xəbər vermirdi? Hansı ki adıçəkilən ASC-nin podratçısı əksər hallarda elə bu strukturun rəhbəri Etibar Pirverdiyevin nəzarətindəki şirkətlər olurdu.

Ən acınacaqlısı isə o idi ki, "Deloitte" şirkəti tərəfindən aparılan audit də "Azərenerji"nin maliyyə göstəricilərinin kəskin pisləşdiyini üzə çıxarmışdı. "Deloitte" şirkəti tərəfindən aparılan audit yoxlaması nəticəsində məlum olub ki, səhmdar cəmiyyətin ümumi gəlirləri 2014-cü ildə 4,3 dəfə azalıb - 84 milyon 589 min manatdan 19 milyon 594 min manata enib.

Operatorun vergilərin ödənilməsindən əvvəlki gəlirləri də kəskin aşağı düşüb. 2013-cü ildə bu gəlirlər 130 milyon 607 min manat təşkil etmişdisə, 2014-cü ildə həmin rəqəm 55 milyon 378 min manata enib.

Habelə "Azərenerji"nin əməliyyat fəaliyyətindən daxilolmaların həcmi 237 milyon 748 min manatdan 168 milyon 269 min manata qədər azalıb.Lakin bütün bu aşkar korrupsiya əməllərinə baxmayaraq, Etibar Pirverdiyev hansısa formada "sudan quru çıxmağı" bacarır. Halbuki ondan ən azı bunu soruşmaq olardı ki, niyə sabiq sədrin şəxsi biznesi gündən-günə çiçəklənərkən "Azərenerji" büdcə öhdəliklərini belə yerinə yetirə bilmir və ən iri vergi borcu olan müəssisələrdən biri kimi qalır. Axı bu ASC, ən azından, büdcədən ən iri investisiya qoyuluşlarının yönəldildiyi müəssisədir. 2005-ci ildən 2014-cü ilə qədər dövlət büdcəsindən "Azərenerji" ASC-yə 1 milyard 132 milyon manat investisiya yönəldilib. ASC 2010-cu ilə qədər 1,45 milyard dollara yaxın xarici kreditlər cəlb edib.

Bir sözlə, 2015-ci ildə Pirverdiyev hərtərəfli şəkildə çətin suallar və ciddi korrupsiya faktları qarşısında idi. Nəinki işdən azad edilməsi, hətta barəsində daha sərt cəza tədbiri görülməsi qaçılmaz idı. Ancaq sabiq "işıq şefi" nəyə görəsə (!) qurtulmağı bacarır. Nəticədə üç il sonra bütün ölkə işıqsız qalır və bu bardağı daşıran son damlaya çevrilir. Pirverdiyev işdən kənarlaşdırılır. Halbuki onun qanunlar qarşısında cavab verməli olduğu yetərincə qeyri-qanuni əməllər vardı.

Sabiq "işıq şefi" ən azı 2015-ci ildə aşkarlanan mənimsəmələrə görə məsuliyyətə cəlb olunmalıydı.

Maraqlıdır: konkret hər iki halda o, həbsə düşməkdən necə xilas olmuşdu? Pirverdiyev artıq iki ildir vəzifədə deyil, lakin yuxarıdakı sual hələ uzun müddət aktual olaraq qalacaq...

***Toğrul Əliyev***



# Bakıda əlillərin hərəkəti üçün 2200-dən çox pandus

***Ölkəmizdə əlliliyi olan şəxslərin sosial müdafiəsi, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Dövlət başçısının bu istiqamətdə sosial siyasətinin tərkib hissəsi olaraq şəhər nəqliyyatında müyəssərliyin təmin olunması məqsədilə son 5 ildə çox əhəmiyyətli işlər görülüb.***

Bakı Nəqliyyat Agentliyinin Mətbuat katibi Mais Ağayev "Unikal"a açıqlamasında bildirib ki, bu çərçivədə 160-dan çox küçə və prospektdə 2200-dən artıq pandus təşkil edilib. Həmçinin, 10-dan artıq küçə və prospektdə "İdeal səki" layihəsi icra olunub ki, nəticədə həmin ərazilərdə əsasən görmə imkanları məhdud şəxslər üçün rahat hərəkət imkanı yaradılıb.

İctimai nəqliyyatda da müyəssərliyin təmin olunması məqsədi ilə vacib addımlar atılır. Sərnişin avtobusları ilə bağlı norma və standartlarda da bu amil mütləq şəkildə nəzərə alınıb. Bu gün marşrut şəbəkəsində 1000-dən artıq avtobusda xüsusi panduslu mexanizimlərin olması da məhz bununla əlaqədardır.

Eyni zamanda yeni ictimai nəqliyyat infrastrukturları yaradılan zaman da müyəssərlik əsas tələb olaraq nəzərə alınır. Bu mənada "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzini göstərmək istərdim. Burada tam formada müyəssərlik təmin edilib. Bundan sonra yaradılacaq digər bu kimi məkanlarda da bu tendensiya saxlanılacaq.

# Alimlərdən şok açıqlama

***Koronavirus nə avtobusda, nə kafedə, nə də dükanda yayılır...***



Çinin elm adamları koronavirusa yoluxma riskinin ən yüksək olduğu məkanı açıqlayıb.

Lent.az xaricə KİV-ə istinadən xəbər verir ki, Çinin elmi jurnallarından birində dərc edilən araşdırmanın nəticələri hər kəsin marağına səbəb olub.

Alimlər bu qənaətə gəliblər ki, insanların daha çox yoluxma riskinə nə avtobusda, nə kafedə, nə təyyarədə, nə də ticarət mərkəzlərində məruz qalır. Sən demə, ən çox yoluxa biləcəyimiz məkan yaşadığımız evimizdir.

Kotai mütəxəssislərinin Uhanla həmsərhəd olan Hunan əyalətinin, təxminən 1200 xəstə sakini üzərində apardıqları araşdırmanın nəticələri bunu deməyə əsas verib.

Çünki ailə üzvlərinin hər biri fərqli məkanlardan gəlir və bir yerdə daha çox təmasda olurlar. Ona görə də alimlər evdə də maska taxmağın qaçılamz olduğunu bəyan ediblər.

Alimlər tibbi müəssisələrdə də yoluxma ehtimalının yüksək olduğunu üzə çıxarıblar. Bu, xəstəxana qarşısında yaranan uzun növbələrdə və s. baş verə bilir. Məhz buna görə Çində tibb müəssisələri qarşısında uzun növbələrə icazə verilmir.

# Düşmənin üstünə şahin kimi şığıyan şəhid - ŞAHİN

***O, son döyüşdə ermənilərin xeyli sayda texnikasını və canlı qüvvəsini məhv edib.***

...Amalya Ana deməkolar ki, hər gün səhər və axşam, evlərinin yaxınlığındakı qəbristanlıqdakı oğlunun qəbrini ziyarət edir. Əvvəlcə, təzə tər gül dəstəsini qəbrinin üstünə səpələyir və sonra isə baş daşını sığıallaya-sığallaya, qara torpaqla örtülmüş qəbrini qucaqlayaraq hönkür-hönkür ağlayır və ürəyini boşaldır. Və deyir: "Kim qıydı sənə, o mənfur düşmənmi, artıq başları əzilmiş ermənimi? Rahat uyu şəhid oğlum, sənin, sənin kimi yüzlərlə şəhid balamızın qanı yerdə qalmadı. Sənin kimi Şahin - igid döyüşçülərimiz sizə namərdcəsinə atəş açanları məhv edibləр. Sizin, şəhidlərimizin qisasını alıblar və alacaqlar. Rahat ol oğlum, mənim, hamımızın fəxri, Vətənin xilaskarı Şahin! Sən tək deyilsən oğlum, həmişə yanındayıq..."

Bəli, bu bir şəhid anasının fəryadıdır. Dünyaya mərd, vətənpərvər oğul gətirmiş, ürəyinin oduyla, gözünün nuruyla, min bir əzab-əziyyətlə böyüdən Amalya ananın...

İndi, cəmi 19 il yaşamış - Şahin Ziyad oğlu İsgəndərov - təkcə Zaqatalanın deyil, bütöv Azərbaycanımızın fəxridir, xilaskar və qəhrəmanıdır.

Vətən yolunda canını fəda edən, şəhidlik zirvəsini fəth edən, Şahin öz ömrünü rəşadətlə, fəxarətlə yaşadı, öz mərdliyi, şücaəti ilə valideylərinin, nəslinin, elinin-obasının, qızılgüllər diyarı, igidlər məkanı Zaqatalanın adını uca etdi. O, bir qəhrəmanlıq simvolu kimi gənclərə, gələcək Vətən keşikçilərinə bariz nümunə oldu.

İkinci Vətən müharibəsinin qəhrəmanı Şahin Ziyad oğlu İsgəndərov Zaqatala rayonunun Qandax kəndində 2001 -ci ilin 21 avqust tarixində, sadə, zəhmətsevər bir ailədə dünyaya göz açıb. Ailədə iki qardaş olublar. Atası Ziyad və Anası Amaliya xanımın hər iki övladı, yaşadıqları kənddə çox mülayim xasiyyətli, sakit təbiətli və işgüzar, üstün tərbiyəli gənclər kimi tanınıblar. Valideynləri isə onlara uşaq yaşlarından vətənpərvərlik ruhunu aşılayıblar.

Haqqında söhbət açdığımız, haqq dünyasına qovuşmuş, Şahin İsgəndrov Şəhid Vasif Saatov adına Qandax kənd tam orta məktəbini 2019 -cu ilin iyun ayında bitirib. Hər dəfə şəhid ailəsinə baş çəkəndə nə qədər qürurlu olsada, şəhidin valideynlərinə, yaxın qohum - əqrabasına, əzizlərinə və dostlarına ruhu şad olsun, Allah rəhmət eləsin, desək də, onlara təskinlik versək də, səbr, can-sağlığı arzulasaq da, Vallah azdır.

Etiraf etməliyəm ki, Vətənimizin, torpaqlarımızın işğaldan azadlığı uğrunda həlak olan bir gəncin valideynlərini danışdırmaq mənə çox ağır gəlir. Axı, onların hansı psixoloji durumda olduqlarını çox yaxşı anlayıram...

Qəhrəman Şahin İsgəndərovun atası elə bil məni hiss etmişdi: "Oğlum məktəb yaşlarından idmana, hərbiyə meyilli idi. O, həmişə hərbi formadakıları görəndə sakitcə, çox maraqla baxardı. Qarabağdan, işğal altında olan torpaqlardan danışanda çox-çox fikirləşər, xəyallara dalardı. Bu günlər artıq oğlumun həmin xəyalları gerçəkləşib. 2019 -cu ilin 24 oktyabr tarixində oğlum Şahini həqiqi hərbi xidmətə yola saldıq. Əvvəlcə Müdafiə Nazirliyinin Ağcabədidə yerləşən "N" saylı hərbi hissəsində xidmətə başladı. O, hərbi and içdikdən sonra hərbi xidmətini Cəlilibad rayonunun Göytəpədə Xüsusi Təyinatlıların Dəstəsində hərbi xidmətini davam etdirmiş və eyni zamanda mütəmadi hərbi təlimlərdə iştirak etmişdi. Oğlumuzla tez-tez telefonla əlaqə saxlayırdıq və vaxtaşırı onunla görüşə gedirdik. Biz, Şahinin hərbi and içmə mərasimində iştirak etdikdən sonra, Cəlilabad rayonunda xidmət edərkən də 3 dəfə oğlumuzla görüşmüşdük. Narahatçılıq yox idi, oğlumuz tamamilə dəyişilmişdi. Elə bil böyümüşdü, vətənpərvərlik hissiyyatı daha da artmışdı, əsil hərbiçiyə xas xüsusiyyətlərə malik olmuşdu, düşməndən qisas almaq istəyi daha da artmışdı. Oğlum o vaxtdan müharibəyə hazırlaşdıqlarını bilirdi, ancaq bizə heç bir məlumat vermirdi...





Atasının söylədiyinə görə Şahin hərbi xidmətini nümunəvi keçirdiyindən xidmətə görə, hərbi təlimlətdə fəal iştirak etdiyinə görə dəfələrlə komandirləri tərəfindən təşəkkürlər bildirilmişdir...

Şəhid anası Amalya xanım isə, gözlərinin yaşını silə-silə şəhid oğlunun iri portretini əli ilə sığallaya-sığallaya dedi: "Onunla sonuncu görüşə gedəndə Şahini tanımadım. Böyümüşdü, hərbi forma elə gözəl yaraşırdı ki, oğluma. Oğlum deyirdi ki: "Ana düşmənin başını əzib evə dönəcəyik, mənə bir gözəl, ailəmizə uyğun kənd qızını gözəlt et. Allahın köməkliyi ilə hərbi xidməti başa vurandan sonra, kəndə dönəndə sonra bir şənlik quraрıq..." Mən də Şahin balama dedim ki, "Vətənimizə göz dikəni əz oğlum, Dost kimdir, düşmən kimdir bil oğlum, adını şərəfinlə tariximizlə yaz oğlum". Sanki Şahin balam mənim nəsihətlərimə qulaq asdı. Sanki, Şahin oğlumuz, Şahin kimi düşmənin üstünə şığıdı, onun başını əzdi, məhf etdi, yaralı döyüşçülərimizi xilas etdi, özü isə...

Amalya xanım göz yaşlarını boğa bilmədi, söhbətini yarımçıq qoydu... Əslində isə o, artıq fikrini tamamlamışdı. Oğlu əsil qəhrəmanlıq nümunəsi göstərərək, şəhidlik zirvəsini fəth etmişdi...

Atası qeyd etdi ki, müharibə başlamazdan bir ay əvvəl, oğlu ilə telefon əlaqəsi yaratmışdılar. Şahin həmin vaxt hər şeyin yaxşı olduğunu bildirmişdir. Sonradan onlara (yəni, valideynlərinə) məlum olub ki, oğlu da digər hərbiçilərlə birlikdə İsmayıllı və Qusar rayonlarında hərbi təlimlərdə iştirak etdikdən sonra Beyləqan rayonuna gedibləр...

Şahinin əmisi Zöhrab İsgəndərov isə söhbət zamanı vurğuladı ki: "Qardaşı oğlunun xidmətdə olduğu Xüsusi Təyantlıların taboru həmişə döyüş əməliyyatlarında birinci olublar". Sentyabrın 27 -də ermənilərin təxribat hücumundan sonra Şahingil əvvəlcə Ağdam, Ağdərə, sonra isə Cəbrayıl-Fizuli istiqamətində döyüş əməliyyatlarına başlayıblar. Elə ilk döyüşlərdə onlar düşmənin xeyli sayda canlı qüvvəsini, texnikasını məhv edib. Komandirin söylədiyinə görə Cəbrayıl və Fizuli rayonlarının işğaldan azad edilməsində xüsusi şücaət göstəriblər. Şahin birinci döyüş əməliyyatlarından sonra valideynləri ilə əlaqə saxlayıb. Qardaşımın oğlu özünün və hərbiçi yoldaşlarının yaxşı olduqlarının bildirib. Valideynlərinin narahat olmamalarını təsəlli verərək, tezliklə qələbə sevincləri ilə doğma kəndinə dönəcəyini bildirib. Sonra bizə məlum oldu ki, Şahinin olduğu Xüsusi Təyinatlılardan ibarət taboru Hadrut-Ağdərə-Xocavənd-Ağdam istiqamətində gedən qızğın döyüşlərin önündə gedirdilər...

Şəhidin əmisi qeyd etdi ki,hətta Şahin mərd döyüşçülərlə birlikdə Hadrut rayonunun Tuğ kəndinin, Tərtər rayonunun Talış kəndinin, Suqovuşan qəsəbəsinin işğaldan azad olunmasında da şücaət göstərib. Şanlı ordumuzun qəhrəman, cəsur əsgəri olan Şahin İsgəndərov son döyüşdə əsil vətənpərvər kimi hünər göstərdi. Oktyabr ayının 9-10 tarixlərində Xocavənd-Ağdərənin -Xocavənd-Ağərə-Ağdam rayonlarının işğaldan azad edilməsində gedən ölüm-dirim mübarizəsində Şahin digər döyüşçü hərbiçilərlə birlikdə qəhrəmanlıq nümunəsini göstəriblər. düşmənin xeyli sayda canlı qüvvəsi ilə üz-üzə qalan igid döyüşçü həmin döyüşdə düşmənin 40-45 sayda canlı qüvvəsini məhv etmişdi.

Atası Ziyadın söylədiyinə görə, komandirin rayon rəhbərliyinə təqdim etdiyi təqdimatda göstərilib ki, Milli Ordumuzun hərbi qulluqçusu Şahin Ziyad oğlu İsgəndərov oktyabrın 10 -da cəbhədə gedən şiddətli döyüşdə əsil qəhrəman kimi vuruşaraq, düşmənə güclü müqavimət göstərərək, pulemyot silahla düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv etmişdi. O, ağır yaralansa da digər yaralı hərbiçilərimizi döyüş meydanından çıxartmışdır. O, hətta ağır yaralı döyüşçülərimizin göstərərək, erməni işğalçılarına qarşı son nəfəsinədək döyüşmüşdür...

Qeyd edək ki, Azərbaycanımızın Xüsusi Təyinatlıların cəngavər oğlu Şahin, hərbi andına sadiq qalaraq Vətənimizin azadlığı uğrunda həlak oldu. Zaqatalanın Qandax kəndinə, üç rəngli bayrağımızın müşayiəti ilə, şəhid kimi fəxrlə, şərəflə qayıtdı... Və, 11 oktyabr 2020 -ci il tarixdə izdihamın müşayiəti ilə Şahin Ziyad oğlu İsgəndərov evlərinin yaxınlığındakı qəbristanlıqda son mənzilə yola salındı - Allahın dərgahına qovuşdu...

Başınızı dik tutun, qürurula gəzin!

Siz qəhrəman atasısınız - Ziyad Ata, qəhrəman, cəsur övladın Anasısınız - Amalya Ana!

Sən - adını fəxrlə çəkdikləri şəhid qardaşısan - Kənan!

Düşmənin üstünə Şahin kimi şığıyan igid Şahin - Azərbaycan xalqının oğludur - Ruhun Şad Olsun...!

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# 100-dən çox əsgəri əməliyyat edən həkim: "Gözlərini açan kimi..."



***İkinci Qarabağ müharibəsinin qələbə ilə başa çatmasında əsgərlərimizin sağlamlığının keşiyində dayanan tibb işçilərinin də müstəsna xidmətləri olub. 44 günlük müharibənin gözə görünməyən qəhrəmanlarından biri də Fərhad Hüseynovdur.***

Yenisabah.az xəbər verir ki, Fərhad Hüseynov hazırda Mərkəzi Neftçilər Xəstəxanasında travmatoloq cərrah kimi çalışır. O, müharibə dövründə 100-dən çox cərrahi əməliyyat həyata keçirib:

"Müharibənin ilk günü Mərkəzi Neftçilər Xəstəxanasının böyük bir heyəti ilə Gəncə şəhərinə ezam olunduq. TƏBİB-in dəstəyi, qrup rəhbərimiz Elmir həkimin və Şəhər Səhiyyə Şöbəsinin rəhbəri Nazim müəllimin təşkilatçılığı ilə yerli xəstəxananın bazasında çoxprofilli hospital yaratdıq. Hospitalda travmatoloji, cərrahi, döş qəfəsi, damar, üz-çənə, göz cərrahiyyəsi, neyrocərrahiyyə, anesteziologiya və reanimasiya, o cümlədən radioloji xidmətləri təşkil etdik. Bu işdə yerli və könüllü həkimlər, tibb işçiləri bizə yaxından köməklik göstərdilər. Qısa zaman ərzində yaralı qəbuluna başladıq".

Həkim qeyd edib ki, hospitalda, müştərək yaralanması olan hərbçilərimiz çoxluq təşkil edib. Hətta elə vəziyyət olub ki, 2 və ya 3 həkim briqadasının eyni vaxtda əməliyyatda iştirak etməsinə ehtiyac duyulub.

"Travmatoloji yardımın təşkilində mənimlə birgə fəaliyyət göstərən Rövşən, Vusal, Rəşad, Emil, Amil, Nicat doktora, rezidentlərimizdən Elnur və Rəşada xüsusi təşəkkürlərimi bildirirəm. Çünki bizim heyət 300-dən artıq əməliyyat icra etdi. Yaralılarımızın əksəriyyəti çox saylı qəlpə yarasından və açıq sınıqlardan əziyyət çəkirdi. Əməliyyatlarımızın əsasını isə açıq sınıqlarda İlizarov üsulu ilə osteosintez, yaraların cərrahi işlənməsi, qəlpələrin xaric edilməsi, vətər-sinir təmiri, digər osteosintez əməliyyatları təşkil edirdi. Bununla yanaşı yaralıların sarğılarının dəyişdirilməsi, təyinatlarının verilməsi, qəbul şöbəsində ilk yardım və çeşidlənmə prosesində də heyətimiz aktiv iştirakçı idi",-deyə həmsöhbətimiz əlavə edib.

Fərhad həkim damar cərrahları ilə müştərək əməliyyatlarından da söz açıb:

"Seymur həkimin başçılığı ilə damar cərrahiyəsi briqadamız uğurlu əməliyyatlar icra edir, yüksək nəticələr göstərirdi. Ümumi cərrahlar, neyrocərrahlar, oftolmoloq və üz-çənə cərrahları çoxsaylı uğurlu əməliyyatlar icra edirdilər. Əməliyyatlarımızın uğurla nəticələnməsində Fuad, Ceyhun, Rəşad, Gülşən həkimin və könüllü reanimatoloqlarımızdan ibarət olan anesteziologiya-reanimasiya briqadamızın, həmçinin Sevda xanımın təşkilatçılığında əməliyyat blokunun əməyi xüsusi yer tutur. Bizimlə yanaşı 24 saat fəaliyyət göstərən radioloqlarımızın da xidmətini qeyd etmək istəyirəm. Yaralılarımızın əməliyyat və müalicəsində qardaş Türkiyə Respublikasından könüllü gəlmiş həkim və rezidentlər, yerli həkim və tibb işçiləri də aktiv iştirak edirdilər.

Xəstələrin qəbulunda və çeşidlənməsində qəbul şöbəsinin həkimləri olan Elnur, Hüseyn, Azər, Orxanın xidməti olduqca peşəkar idi. Yüngül yaralılar və əməliyyatdan sonrakı xəstələr üçün nəzərdə tutulmuş bölməmiz Vüqar doktorun rəhbərliyində uğurlu fəaliyyət göstərirdi. Könüllü psixoloq və nevropatoloqlardan ibarət briqada isə psixoloji yardımın təşkilində fəal iştirak edirdi".

Həmsöhbətimiz hospitalda əsgələrlə yanaşı Gəncə və Bərdə şəhərlərində baş vermiş terror hadisəsi zaman yaralanan mülkü şəxslərin də müalicə olunduğunu diqqətə çatdırıb.

Arxa cəbhə qəhrəmanı olan cərrahımızın sözlərinə görə, əməliyyat masasında neçə-neçə əsgərimiz "Vətən, sənə canım fəda" mahnısını ifa edib, heç təəccüblü deyil ki, bir çox yaralı hərbçimiz əməliyyatdan dərhal sonra cəbhəyə nə zaman qayıda biləcəyini soruşub. Bu cür hadisələr isə Azərbaycan Ordusunda ruh yüksəkliyinin və vətənpərvərlik hissinin hansı səviyyədə olduğunu açıq şəkildə göstərib".

Həkim deyib ki, tibbi personalın fədakarlığı qələbənin qazanılmasında az rol oynamayıb:

"Yaralının əl-üzünü, ayaqlarını yuyan, ona güclə yemək yedizdirməyə çalışan, sarğı zamanı yaralının ağrıdığını hiss edib kövrələn tibb personalı gördükdə insan çox duyğulanırdı. Bu, ordu-xalq-dövlət birliyinin bariz nümunəsidir. Qələbəmizn qazanılmasında xüsusi yeri olan şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza isə şəfa diləyirəm. Bizim bu şərəfli işimizdə əməyi olan hər kəsə öz təşəkkürümü bildirirəm".

*Sayad HƏSƏNLİ*

# Vətən müharibəsinin daha bir qəhrəmanı: "Yaralananda bircə ona təəssüfləndim ki..." - minaya düşən zabitimiz

***Azərbaycan tarixinin ən parlaq səhifələrindən birinə çevrilən 44 günlük Vətən müharibəsində qazandığımız Böyük Qələbənin əsas memarı, Ali Baş Komandanın da dəfələrlə vurğuladığı kimi, şanlı Ordumuzdur, onun cəsur ürəkli əsgərləri və zabitləridir.***

Bizə bu zəfər sevincini yaşadanlara, bayrağımızı qanları, canları bahasına işğaldan azad edilən torpaqlarımızda ucaldanlara ehtiram hər birimizin borcudur.

Sizə təqdim etdiyimiz bu yazıda belə qəhrəman vətən övladlarından biri - Yusifov Abbas Mədət oğlu ilə tanış olacaqsınız.

24 yaşlı Abbas Qazax rayonunun İncə Dərəsində, Aslanbəyli kəndində dünyaya göz açıb. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olan Abbas üç il sonra buranı bitirib.

Hərbi təhsilini 2014-cü ildən Ali Hərbi Məktəbdə davam etdirib.

Buranı 2018-ci ildə başa vuran A.Yusifov elə həmin ildən etibarən Azərbaycan Ordusu sıralarında, Tərtər rayonu istiqamətində hərbi xidmətdədir.

Azmarka.az-ın əməkdaşı ilə söhbətində qəhrəman zabitimiz Vətən müharibəsinin başlanmasını təkcə hərbçi kimi yox, ümumiyyətlə, hər bir azərbaycanlı kimi fərəhlə qarşıladığını deyib: "İçimizdəki neçə illik intiqam hissini döyüş meydanında nümayiş etdirmək, şəhidlərimizin qanını yerdə qoymamaq, torpaqlarımızın işğalına son vermək üçün fürsət yetişdiyini görmək qürurverici idi. Odur ki, cəsarətlə, əzmlə irəli atıldıq və çox şükür ki, istəyimizə çatdıq".



Abbasın sözlərinə görə, 44 günlük Vətən savaşında onun şanlı döyüş yolu sentyabrın 27-də Suqovuşan (Madagiz) istiqamətindən başlayıb: "İki gün sonra isə Talış kəndi uğrunda döyüşlərdə iştirak edirdim. Bilirsiz ki, hər iki ərazini ordumuz çox qısa vaxtda düşməndən təmizlədi. Savaşın ilk günlərindəncə əsgər və zabitlərimizin necə mərdliklə, ölüm qorxusu nədi bilmədən vuruşduğunu sözlə ifadə etmək mümkünsüzdür. Bunu gərək öz gözlərinlə görəydin. Elə bu şücaət də qısa zamanda işğaldakı vətən torpaqlarının bir-birinin ardınca azad edilməsinə gətirib çıxardı".

Qəhrəman zabitimiz necə yaralandığına da aydınlıq gətirib: "İrəlidəki qüvvələrimizə yardım üçün tələsirdik. Mən öndə, yol aça-aça irəliləyirdim. Bir qədər getdikdən sonra mina gördüm, arxamca gələn əsgərlərimə dayanmaq əmri verdim. O anda dabanımı yerə basınca minaya düşdüm".

Abbas deyir ki, yaralanması ona çox pis təsir edib: "Erkən yaralanmağıma hədsiz üzülmüşdüm. Bircə ona təəssüflənirdim ki, döyüşə davam edə bilməyəcəm. Çünki daha çox irəliləmək, daha çox torpağımızın azad olunmasında iştirak eləmək istəyirdim. İnanın, hər bir əsgər, zabit də yaralandıqda mənim keçirdiyim hissləri keçirib. Axı hamımızın beynində ancaq bir fikir vardı - yalnız döyüş, yalnız intiqam, vəssalam!"

Qəhrəman zabitimiz deyir ki, döyüşlər zamanı digər istiqamətlərdən gələn qələbə xəbərləri onların savaş əhval-ruhiyyəsini daha da yüksəldir, zəfər əzmini artırırdı: "Biləndə, eşidəndə ki, bütün cəbhə boyu ordumuz uğurla irəliləyir, həmin anlarda bir yandan daha da qürurlanır, o biri yandan da daha şövqlə, əzmlə irəli atılırdıq. Bir çox döyüş yoldaşlarımızın gözlərimiz qarşısında şəhid olmasına, əlbəttə, çox üzülür, kədərlənirdik. Lakin eyni zamanda başa düşürdük ki, bu müharibədir və müharibədə itkisiz qələbə ola bilməz. Əbəs yerə deyilməyib ki, "Torpaq - uğrunda ölən varsa Vətəndir!" Alllah bütün şəhidlərimizə rəhmət eləsin. Hər birinin xatirəsinə dərin ehtiramımı bildirirəm. Əminəm ki, onların ruhu şaddır. Çünki biz tarixi zəfər qazandıq və Azərbaycanımızın 30 ilə yaxındır qanayan yarasını sarıdıq, sağaltdıq".

Abbası qürurlandıran başqa bir məqam isə odur ki, döyüşlərdə iştirak etdiyi müddətcə düşmənin çox sayda canlı qüvvəsini məhv etməyə nail olub.

Zabitimiz deyir ki, Böyük Zəfər həm Ordumuzun Vətən müharibəsinə hərtərəfli şəkildə yüksək hazırlığının, həm də bir xalq kimi ülvi ideal uğrunda sıx birləşməyimizin nəticəsidir: "Bu elə bir uca idealdır ki, onun uğrunda qazi olmaq da, şəhid olmaq da böyük şərəfdir. İndi fəxrlə "Qarabağ Azərbaycandır!" deyə biliriksə, bundan böyük hansı xoşbəxtlik, hansı sevinc ola bilər?!".

# TRAMPIN GEDİŞİ ƏRƏFƏSİNDƏ İRANI QARIŞDIRMAQ PLANI

## Ərdoğan vasitəçi kimi, yenidən dövrəyə girə bilər - TƏHLİL

***Amerikanın İrana hücum etməsi üçün ictimai rəyin necə formalaşdırılmağa başlandığının nümunəsini "New York Times"-ın Orta Şərq üzrə mütəxəssis sayılan yazarı Tom Fridmanın dünənki köşə yazısında görmək olar. Fridman yekunda "Nüvə silahlarını bir tərəfə buraxın, əsl hədəfi dəqiq vuran İran istehsalı raketlərə baxın" deyir. İranın bu raketlərdən istifadə edərək, hər an İsrailə hücum edə biləcəyindən və "İranın AES-indən, hava limanlarından, dəniz limanlarından, elektrik stansiyalarından, yüksək texnologiya əsasında işləyən fabriklərindən və hərbi bazalarından" bəhs edir.***

Ən qatı İran düşmənləri belə, Tehranın əlində nüvə silahı istehsal etmək üçün yetərli qədər uran olmadığını qəbul edir. ABŞ kəşfiyyatına görə, İranın nüvə silahı proqramı 17 il öncə bitib. Son illərdə uran istehsalı artmışdı, lakin bu, Donald Trampın İranla imzalanan nüvə anlaşmasından çəkilməsinə reaksiya xarakterli bir həmlə idi. Ayrıca, İran hakimiyyəti Bayden dövründə uran istehsalını əvvəlki səviyyəyə endirmək haqqında vəd də verdi.

Fridman da, hətta İsrailin özü də, İranın nüvə silahından istifadə edəcəyini düşünmür, ancaq Tehran əlində olan mövcud silahlarla belə, bölgəyə təhdid təşkil edir. Bu şərhin qarşılığı da budur: "İranı mütləq durdurmaq lazımdır".

Anladığım odur ki, yeni administrasiya işə başladığı zaman mediada İranın bölgədə necə bir təhdid yaratdığına dair daha çox xəbər çıxacaq.

### İsrailin oyunu

Yaxşı, əgər İranın əlində nüvə silahı yoxdursa, nüvə fiziki Möhsün Fəxrizadə nə üçün öldürüldü?

İsrail hakimiyyəti və Donald Tramp indidən Co Baydenin əlini-qolunu bağlamaq və İranla münasibətlərin normallaşdırılmasını əngəlləmək üçün hər şeyi edir. İranla nüvə anlaşması yenidən imzalanarsa, tətbiq edilən sanksiyalar yüngülləşəcək, ölkənin çətin durumda olan iqtisadiyyatı düzəlməyə başlayacaq və təbii olaraq da bölgədəki təsiri artacaq. Məsuliyyəti İsrailin daşıdığı hər şeydən bəlli olan Fəxrizadə sui-qəsdinin məqsədi də diplomatik əlaqələrin erkəndən başlamasını əngəlləməkdir.



Fridman kimi neokonlar üçün İsrailin BƏƏ, Bəhreyn və Səudiyyə Ərəbistanı ilə barışması Trampın ən böyük xarici siyasət nailiyyətidir. Son aylar ərzində "Orta Şərqdə sülh" adı ilə təqdim edilən bu həmlənin yeganə məqsədi İrana qarşı düşmən cəbhə formalaşdırmaqdır. İsrail onsuz da lap əvvəldən bu nüvə anlaşmasına qarşı idi. Yenidən nüvə anlaşmasını imzalamaq istəyən Bayden indi daha güclü bir etiraz cəbhəsilə qarşılaşa bilər.

Baydenin 20 yanvara qədər edə biləcəyi yeganə şey İrana səbirli olmasını tövsiyə etməkdir. Hələ ki, İranın bu tövsiyəyə əməl etdiyi görünür, çünki İran Prezidenti Həsən Ruhani intiqamın uyğun bir zamanda alınacağını açıqlayıb. Ən azı, vaxt qazanılıb, lakin ilin əvvəlində törədilən Qasım Süleymani cinayətindən bəri İranın səbrinin sınağa çəkildiyi də ortadadır. Bir də Süleymani və Fəxrizadə sui-qəsdləri arasında, iyul ayında müəmmalı şəkildə partlayan nüvə obyekti məsələsi var. İran önçəki iki hücuma ya yalançı cavab verib, ya da heç bir şey etməyib. Ancaq ABŞ mətbuatında yer alan xəbərlərə görə, İran hakimiyyətinə bir şeylərin edilməsi üçün ölkə daxilindən də təzyiq var.

İran indi Fəxrizadə sui-qəsdinə görə intiqam almağa cəhd edərsə, Tramp da vəzifə müddəti bitməmiş savaşa girməyə məcbur olacaq. Onsuz da Trampın məqsədi getmək ərəfəsində aranı qarışdırmaqdır.

### Türkiyənin önündəki fürsət

Məsələnin dinc yolla həll olunmasını istəyənlər İranla nüvə sazişində imzası olan Avropa ölkələrinin dövrəyə girib gərginliyi azaltmasını gözləyirlər. Ancaq biz İrana onlardan daha yaxınıq, sərhəddimizdə mümkün bir savaşın çıxması bizə birbaşa təsir edəcək. Türkiyənin bu böhranda üzərinə vasitəçi rolu götürməsi, proaktiv rol oynaması sabitlik üçün önəmlidir.

Ancaq Ankara bir az təmkinli davranır, çünki Trampın gedəcəyi qəbul edilsə də, hələ 20 yanvaradək tərəfmüqabil olacağı məlumdur. Xüsusilə nəzərə alınmalıdır ki, S-400-lə bağlı sanksiya qərarının dekabr ayında Senatdan keçməsi gözlənilir. Daha öncə bu qərarın Senatdan keçməsi Tramp sayəsində gecikdirilmişdi, ancaq bu durum Trampla Senatın arasının pozulmasına səbəb olmuşdu. Eynilə Trampın Şimali İraqdakı kürdlərə verilən dəstəyi geri çəkməsində olduğu kimi, öz partiyasından olan bir çox senator belə, Prezidenti Türkiyənin dediyi hər şeyi etməklə bağlı tənqid etmişdi.

Sanksiyalar haqqında qərar dekabr ayında Senatdan keçə bilər. Çünki yanvarda Corciya ştatında keçiriləcək II tur seçkilər Senatda əksəriyyəti müəyyən edəcək və respublikaçıların əksəriyyəti itirmək ehtimalı var. Senatdan keçən qərar imzalanması üçün prezidentə təqdim olunacaq.

Ankaranın təmkinli davranması da bununla bağlıdır. Tramp sayəsində daha yüngül sanksiyalar tətbiq oluna bilər, onsuz da həssas durumda olan iqtisadiyyatımız ağır zərər görməz. Bayden haqqında öncədən əmələ gəlmiş mənfi rəy də Trampa çox ümid bəslənməsinə səbəb olur. Əslində, Trampın Türkiyənin lehinə olan bir qərar verməsinə təminat yoxdur.

Halbuki Trampa və İsrailə rəğmən, İranla bağlı vasitəçilik roluna girişmək 20 yanvardan sonra Türkiyənin daha çox işinə gələ bilər. Bu, Bayden administrasiyası ilə sıfırdan başlayacaq münasibətlər baxımından önəmli bir üstünlük olar. Türk hökuməti ABŞ-la bazarlıq masasında bu həmlədən, əlbəttə, istifadə edə biləcəkdir. Əslində, görünən odur ki, bu mərhələdə Prezident Ərdoğanın dövrəyə girməkdən başqa, sanki, seçimi yoxdur.

***Oray Eğin***
***"Habertürk", Türkiyə,***
***01 dekabr 2020-ci il***

# Bayden ABŞ-ı nüvə sazişinə qaytaracaq? - ZƏRİFİN EHTİMALLARI GERÇƏYƏ ÇOX YAXINDIR

***İranlı fizik Möhsün Fəxrizadənin öldürülməsi Cozef Baydenin İslam Respublikasına yaxınlaşma planlarına heç bir şəkildə təsir etməyib. ABŞ-ın yeni seçilmiş prezidenti ölkəsini İranın nüvə proqramı ilə bağlı Birgə Hərtərəfli Fəaliyyət Planına (JCPOA) qaytaracağını təsdiqləyib. Donald Tramp isə Amerikanı İran əleyhinə beynəlxalq sanksiyaların ləğvini nəzərdə tutan nüvə anlaşmasından çıxarıb.***

Noyabrın 27-dən İranın nüvə proqramının rəhbəri Fəxrizadə Tehranın yaxınlığında öldürüldükdən sonra ABŞ rəsmiləri bu hadisəni heç bir şəkildə şərh etməyib. Bu cinayətin İsrail tərəfindən törədildiyini birbaşa söyləyən İranın ittihamları, mənbələrə istinad edilərək, "New York Times" qəzetində təsdiqlənib.

İddialara görə, ABŞ kəşfiyyatı Fəxrizadənin İsrail xüsusi xidmət orqanlarının əməliyyatı nəticəsində qətl olunduğundan xəbərdardır.

Beləliklə, Bayden, bir növ, İrandakı hadisələrə şərh verib. Pulitzer mükafatı laureatı, "New York Times" qəzetinin köşə yazarı və Amerikanın ən məşhur Yaxın Şərq jurnalistlərindən biri olan Tomas Fridman onunla telefon əlaqəsi qurub. Söhbət əsnasında jurnalist seçilən prezidentin seçki kampaniyası dövründə elan etdiyi hədəfə - ABŞ-ı nüvə razılaşmasına qaytarmaq niyyətində olub-olmadığını soruşub. "Bu asan olmayacaq, amma bəli", - deyə Biden cavab verib.



Sonra Bayden deşifrə etməyi lazım bilmədiyi bir düzəliş edib. O, "müttəfiqlər və tərəfdaşlarla birlikdə İranın nüvə proqramındakı məhdudiyyətləri gücləndirəcək və genişləndirəcək" bəzi əlavə razılaşmalar hazırlamaq niyyətində olduğunu söyləyib.

Əslində, JCPOA özü də İrana qarşı sanksiyaların zəifldilməsi müqabilində bu cür məhdudiyyətlərin tətbiq olunmasını nəzərdə tutur. Barak Obamanın səyləri ilə ABŞ-ın bağladığı bu razılaşmadan geri çəkilmə iranlıların nüvə tədqiqatlarını davam etdirməsinə səbəb olub. İndi, Fəxrizadənin öldürülməsindən sonra İran parlamenti ölkənin JCPOA-dan çıxmasını göstərən bir qanun qəbul edib. Düzdür, o hələ təsdiqlənməyib və qüvvəyə minməyib.

Bəlkə də, Fridmanın özü haqlıdır. Bundan əvvəl, mənbələrinə istinad edərək, o, Baydenin JCPOA iştirakçı sayını artıracağı fikrini irəli sürüb. Sənədi BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü (Rusiya, Çin, Böyük Britaniya, Fransa və ABŞ), eləcə də Almaniya imzalayıb. Bu, İrana qarşı sanksiyaların ləğv edilməsinə dünyanın aparıcı güclərinin zəmanət verdiyi "5 + 1" deyilən formuldur.

Bayden İranın ərəb qonşuları Səudiyyə Ərəbistanı və BƏƏ-nin JCPOA-ya qoşulmasını istəyir. İlk ərəb dövləti, iqtisadi cəhətdən güclü ölkə İslam Respublikasının geosiyasi və ideoloji rəqibidir. BƏƏ bölgədə xüsusi rol oynayır. Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun Ərəb və İslam Araşdırmaları Mərkəzinin baş tədqiqatçısı Vladimir İsayevin "NG"-yə müsahibəsində qeyd etdiyi kimi, bu ölkə ənənəvi olaraq, İran və Səudiyyə Ərəbistanı ilə bərabər münasibətlər qurmağa çalışır. Bu yaxınlarda BƏƏ, Bəhreynlə birlikdə "İbrahim Sazişi"nin üzvü olub. Vaşinqtonun vasitəçiliyi ilə və Trampın İsraillə münasibətləri normallaşdırmaq səyləri sayəsində bağlanan müqavilənin adı belədir. Beləliklə, BƏƏ JCPOA-ya üzv olarsa, qismən siyasi ortağı olduğu yəhudi dövlətini təmsil edəcək.

Ancaq İsrail hələ Baydenin nüvə anlaşmasına qayıtmaq niyyətindən məmnun deyil. Noyabr ayında İsrailin baş naziri Binyamin Netanyahu onu açıq şəkildə fikrini dəyişməyə çağırıb. "Nüvə anlaşmasına qayıtmayın. İranın nüvə silahı istehsal etməməsini təmin etmək üçün güzəştsiz bir siyasətə riayət etməliyik", - deyə İsrailin ilk baş naziri David Ben-Qurionu anma tədbirində söyləyib.

İsrail mətbuatı bu mövzuda seçki kampaniyası dövründə Baydenin komandası nümayəndələrinin verdiyi açıqlamaları xatırlayır. Avqust ayında onun vitse-prezidenti Kamala Harris birmənalı şəkildə yəhudi dövlətini dəstəkləyib. "Açıq deyim, İranın nüvə silahı almasına icazə verməyəcəyik. İsrailə qırılmaz ABŞ dəstəyi verməyə davam edəcəyik".

Ancaq qeyd etmək lazımdır ki, Baydenin ölkəni JCPOA-ya qaytarmaq niyyəti barədə dediyi sözlər yalnız indiyə qədər seçilmiş prezidentlə müsahibədir, başqa bir şey deyil. Eyni zamanda, Fəxrizadənin qətlinə heç bir qiymət verməməsi də əhəmiyyətlidir. Tramp da susur. Fəxrizadə məsələsinə BMT Təhlükəsizlik Şurasında baxılsaydı, ABŞ-ın mövqeyi aydınlaşacaqdı. İran bunu tələb edib. Bununla birlikdə, Cənubi Afrikanın BMT-nin nümayəndəsi, hazırda Təhlükəsizlik Şurasının sədri olan Cerri Mac-ila "Reuters"-ə verdiyi açıqlamada heç bir dövlətin bu məsələnin Təhlükəsizlik Şurasının gündəminə daxil edilməsini istəmədiyini söyləyib.

***Gennadi Petrov***
***"Nezavisimaə qazeta",***
***02.12.2020***

## Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Azərbaycan bundan sonra da Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün addımlar atmalıdır

## Elçin Mirzəbəyli: "Ayrı-ayrı dairələrin güc mərkəzlərinin də bu konteksdən marağını nəzərə alaraq Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında davamlı bir proses getməlidir"



***Dağlıq Qarabağ müharibəsindən sonra erməni yalanları bütün dünyada ifşa olunsa da onlar özlərinə havadar tapmağa davam edirlər. Azərbaycanın son boşaldılan rayonlarından olan Laçından çıxmaq istəməyən erməni qadının bu torpaqların sanki ermənilərin dədə-baba yurdu kimi qələmə verməyə çalışması, digər tərəfdən çıxdıqları evlərə od vurub yandırması Qarabağın tarixən Azərbaycana məxsus olduğunu sübut edir. Amma Azərbaycan bu məsələdə təmkinlə davranır, artıq işğaldan azad edilmiş ərazilərin bərpası üçün infrastrukturun qurulmasına start verilib.***

Bəs görəsən bu haqq savaşını qələbə ilə başa vuran Azərbaycan Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində bundan sonra hansı işləri görməlidir?

Politoloq Elçin Mirzəbəyli "Unikal"a açıqlamasında bildirib ki, artıq müharibənin birinci mərhələsi başa çatıb. Azərbaycan torpaqlarını işğaldan azad edib. Bundan sonrakı proses Azərbaycanın mövqelərinin daha da möhkəmləndirilməsinə və bölgədə sülh və əminamanlığın bərpasına yönəldilməlidir. Ermənistan şübhəsiz ki, öz yalanlarını dünyaya ixrac etməkdən əl çəkməyəcək. Burada təkcə Ermənistanın rolunu nəzərə almaq lazım deyil. Dünyanın hər tərəfinə səpələnmiş erməni diasporunun da xidmətini diqqətdə saxlamaq lazımdır. Eyni zamanda onlardan istifadə edən ayrı-ayrı dairələrin, güc mərkəzlərinin də bu konteksdən marağını nəzərə alaraq Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında davamlı bir proses getməlidir. İllərdir ki, başladılan intensiv davranışlar ardıcıl şəkildə uzun illər sərgilənməlidir. Həmçinin Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi vandalizm aktları, cinayətləri davamlı olaraq dünyanın diqqətinə çatdırılmalı, gündəmdə saxlanılmalıdır. Eyni zamanda müharibə cinayətkarlarının təqib olunması istiqamətində də addımlar atılmalı, həmçinin Ermənistan tərəfindən döyüşlərdə iştirak edən muzdlu döyüşçülərin də üzə çıxardılaraq məhkəmə qarşısında dayanması üçün müvafiq addımlar atılmalıdır. Mütəmadi olaraq təzminat davaları açılmalı, bu proses Azərbaycan dövləti tərəfindən həyata keçirilməlidir. Eyni zamanda Ermənistanın həyata keçirdiyi müharibə cinayətlərindən əziyyət çəkən vətəndaşlarımız da beynəlxalq məhkəmələr qarşısında Avropa İnsan Haqları Məhkəməsində məsələ qaldırmalı, iddialarla çıxış etməsi kütləvi hal almalıdır. Müharibənin davamı olaraq elə bir strategiya seçilməlidir ki, Ermənistanın nəfəs almağa macalı olmasın.Bu gün bizim qarşımızda duran əsas prioritet budur. İkinci yerdə isə Ermənistanın işğalından azad olunmuş torpaqlarımızda yurd yerlərmizin bərpası dayanır"

Qeyd edək kİ, 30 ildir ki, işğal altında saxlanılan torpaqlarımıza erməni qəsbkarlarının vurduğu ziyan ölçüyə gəlməz həddədir. Azərbaycan Prezidenti İlham Əliyev də öz çıxışlarında vurğulayıb ki, Ermənistan tərəfi vurduğu ziyana görə təzminat ödəməlidir. Artıq Azərbaycan torpaqlarımızın işğalı zamanı Ermənistanın vurduğu ziyanın hesablanması üçün beynəlxalq təşkilatları bu prosesə cəlb edib.

Ermənistanın 30 ilə yaxındır ki, işğal altında saxladığı torpaqlarımıza vurduğu ziyana görə təzminatın hansı sənədə əsasən tələb ediləcəyini, təzminatın məbləği və ödənilməsi ilə bağlı ictimaiyyəti maraqlandıran suallara aydınlıq gətirməyə çalışıb.Hüquqşunaslar da növbəti mərhələlərdə Ermənistana qarşı təzminat davasının açılmasının vacibliyini vurğulayırlar. Tanınmış vəkil Fuad Ağayev bizimlə söhbətində bildirib ki, Ermənistanın Azərbaycana vurduğu ziyanı ödəməsi üçün bir sıra beynəlxalq hüquqi mexanizmlər mövcuddur: "Haaqa məhkəməsi var. Düzdür, Azərbaycan və Ermənistan beynəlxalq məhkəmənin statusunun iştirakçıları deyil. Amma müvafiq razılaşma olarsa, hərbi əməliyyatlardan sonra yaranan dəymiş ziyan məsələsinə baxa bilər. Azərbaycan Avropa İnsan Hüquqları məhkəməsinə dövlət adından Ermənistana qarşı şikayət verə bilər".

Azərbaycan Avropa İnsan Hüquqları məhkəməsinə dövlət adından Ermənistana qarşı şikayət verə bilər. Sülh müqaviləsi çərçivəsində tərəflərin hüquq və öhdəliklərinin əksini tapdığı sənədlə də bu nizamlana bilər: "ATƏT və Minsk qrupu da buna öz töhvəsini verə bilər. 1945-ci ildən sonra Yalta konfransının nəticəsi olaraq Almaniya vurmuş olduğu ziyanı, hətta insanlara vurduğu ziyanla bağlı təzminat ödədi. Hər bir təcavüzkar dövlət əməllərinə görə cavab verməlidir. Əks halda, planetdə cəzasızlıq mühiti yaranar".

F.Ağayev deyir ki, Ermənistan beynəlxalq hüquq normalarına əməl etməməsi ilə seçilir: "Ehtimal var ki, onlar təzminatdan boyun qaçırsınlar. Odur ki, qərarların icrası ilə bağlı ciddi detallara keçmək hələ tezdir".

Vəkilin sözlərinə görə, ortada nasis Almaniyasının təzminat ödəmə təcrübəsi var: "Tərəflər arasında məhkəmə qərarı olmasa bu imzalana biləcək sülh müqaviləsi ilə həll oluna bilər. Hələki Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi yoxdur. Hazırda birgə bəyanat var, bu da atəşkəs və sülhməramlıların fəaliyyəti ilə məhdudlaşır. Sülh müqaviləsi imzalanacağı halda isə ərazi mübadiləsi ilə dəymiş ziyan qismən öz həllini tapa bilər".

F.Ağayev deyir ki, Ermənistanın Azərbaycana vurduğu ziyana görə təzminatı ərazisindən vermə ilə ödəməsi Ermənistanın hüququdur: "Əgər Ermənistan başqa şəkildə bunu məqbul saymırsa, təzminatı ərazisindən verməklə ödəmək istəyirsə, Azərbaycan bunu düşünə bilər. Kalinqrad vilayəti prussiyanın ərazisi idi. Almaniyanın hissəsi sayılırdı. Elzas və Lotorengiya İkinci Dünya Müharibəsi başlamamışdan Almaniyanın ərazisi idi. Almaniya vurduğu ziyanın təzminatını öz ərazisini verməklə ödədi. Kalinqrad Rusiya, Elzas və Lotorengiya isə Fransaya verildi. Almaniyanın ərazisinin bir hissəsi Çexiyanın, Polşanın tərkibinə keçdi. Ona görə də borc içində itib-batan Ermənistanın Azərbaycana vurduğu ziyanın təzminatı olaraq torpaqlarından verməsi mümkündür".

Qeyd edək ki, işğal nəticəsində Azərbaycana dəymiş ziyanın məbləği hələki hesablanmasa da, bunun milyardlarla dollarla ölçüləcəyi barədə fikirlər səslənir.

Ermənistanın keçmiş baş prokuroru və Avropa İnsan Hüquqları Məhkəməsindəki keçmiş nümayəndəsi Gevorg Kostanyan təzminat məsələsindən narahatlığını dilə gətirib: "Bu sənədə görə nəinki ərazilərimizi itirdik, həm də Ermənistan üzərinə bizim və gələcək nəsillərimizin ödəyəcəyi 50 milyard dollardan çox öhdəlik qoyulub. İki il əvvəl Qarabağ və ətraf yeddi rayonda Azərbaycana dəymiş maddi ziyanla əlaqədar olaraq Ermənistana qarşı təzminat iddiası ilə bağlı məhkəmə prosesinin hazırlandığı barədə xəbərdarlıq etmişdik. Lakin Ermənistanın bu məsələdə məsuliyyət daşıdığı barədə kifayət qədər dəlil olmadığından bu iddianı təqdim edə bilməyiblər".

O qeyd edib ki, Nikol Paşinyan tərəfindən imzalanan sənəd həm də Ermənistanın gələcək nəsillərinin də ödəyə bilməyəcəyi ciddi maliyyə problemlərinə səbəb olacaq.

Məlumat üçün bildirək ki, işğaldan azad edilmiş ərazilərimizin demək olar ki, 99 faizində bütün binalar dağıdılıbdır - yaşayış binaları, məktəblər, xəstəxanalar, ictimai binalar, tarixi abidələr, əcdadlarımızın qəbirləri, məscidlərimiz viran qoyulub. Bu görüntülər yayıldıqca dünya bunu görə bilir. Bu, vəhşilik, vandallıq, hərbi cinayət olsa da, dünya və beynəlxalq təşkilatlar, insan haqları təşkilatları buna nədənsə göz yumur. Artıq ermənilərin viran qoyduğu rayonlarımıza beynəlxalq ekspertlər, xarici media nümayəndələri dəvət edilir. Məlumatlara görə, beynəlxalq ekspertlərin iştirakı ilə bütün dağıntıların maddi və mənəvi ziyanı hesablanacaq. Həm insanlar fərdi qaydada, eyni zamanda, mütəşəkkil qaydada düşməni beynəlxalq məhkəmələrə verəcək. Əminik ki, düşmən çirkin əməllərinə görə cavab verəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı




## Zəngilanda yük maşını körpüdən aşdı: ölən var

***Zəngilan rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, İmişli rayon sakini Nicat Qasımov idarə etdiyi "Shacman" markalı yük avtomobilini Oxçu çayının rayon ərazisində keçən hissəsində körpüdən aşırıb. Ağır xəsarət alan sürücü hadisə yerində ölüb.

Faktla bağlı Zəngilan rayon Polis Şöbəsində araşdırma aparılır.

## İdman kompleksi qarət olundu

***Gəncədə idman kompleksindən oğurluq edilib.***



DİN mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, Kəpəz rayonu ərazisindəki idman komplekslərinin birindən 875 manat dəyərində 4 ədəd qapı, 3 qapı kilidi və hamam aksesuarları oğurlanıb.

Kəpəz rayonu Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluqda şübhəli bilinən Gəncə şəhər sakini E.Məmmədov saxlanılıb.

## İki koronavirus xəstəsi müalicə aldığı yeri tərk etdi

***Ucarda müalicə aldıqları ünvanı tərk edən 2 COVID-19 xəstəsi müəyyən edilib.***

DİN-in mətbuat xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, polis əməkdaşlarının keçirdiyi tədbirlər nəticəsində koronavirus pandemiyasına yoluxmuş və karantin qaydalarına zidd davranaraq müalicə aldıqları ünvanı tərk etmiş 2 rayon sakini - M. Məmmədov və B. Babayev müəyyən edilib. Həmin şəxslər rayonun müxtəlif yerlərində aşkar olunaraq müalicə aldıqları ünvanlara geri qaytarılıblar. Onlarla bir daha profilaktiki səpkidə söhbətlər aparılaraq koronavirus pandemiyasının bəşəri bəla olduğunu, bütün dünyanın bu bəladan əziyyət çəkdiyi deyilib.

Faktla bağlı Ucar rayon Polis Şöbəsinin İstintaq Bölməsində araşdırma aparılır.

# Bakıda şok: Oğlan azyaşlı nişanlısına dəfələrlə təcavüz etdi

***Bakıda on altı yaşına çatmayan qızla cinsi əlaqədə ittiham olunan 1995-ci il təvəllüdlü Əmrah Kərimovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Əmrah Kərimov Qaradağ rayonu, Ələt qəsəbəsində yaşadığı ünvanda 2005-ci il təvəllüdlü Lalə Bağırova ilə təbii yolla cinsi əlaqədə olub. Daha sonra o, müxtəlif vaxtlarda Lalə Bağırova ilə təbii və qeyri-təbii yolla cinsi əlaqədə olub.

İstintaq orqanı tərəfindən Əmrah Kərimovun barəsində Cinayət Məcəlləsinin 152.1-ci (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Əmrah Kərimov elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O, qeyd edib ki, Ələt qəsəbəsində yaşayır, Azərbaycan Dəmir Yolları QSC-nin İnfrasturktur Departamentinin 3 nömrəli Ələt yol sahəsinin keçid növbətçisi vəzifəsində işləyir:

"Başqa bir cinayət törətməmişəm, əvvəllər məhkum olunmamışam. 2019-cu ilin may ayının əvvəlində valideynlərim Salyan rayonu Xalac kənd sakini Laləyə elçi getdilər, 2005-ci il təvəllüdlü Lalənin hərisini aldılar. Növbəti iyun ayında isə Laləyə nişan apardıq. Həmin vaxtdan sonra bir neçə dəfə valideynlərim Laləni bizə qonaq gətirdi, 1-2 gün qonaq saxladıq, sonra öz evlərinə apardılar".

Əmrah Kərimovun ifadəsinə görə, 2019-cu ilin oktyabr ayında onlar xalası oğlunun Göyçay rayonuna qohum toyuna gediblər: "Laləni də özümüzlə toya apardıq. Nişanlandıqdan sonra Lalə dəfələrlə mənə zəng edib, gəlib onu aparmağımı istəyib. Lalə deyirdi ki, artıq öz evlərində valideynləri ilə birlikdə yaşaya bilmir, əllərindən cana doyub.



2020-ci ilin martında Lalə mənə zəng etdi, onu evimizə aparmağımı istədi. Novruz bayramının axır çərşənbə günü Lalənin yaşadığı Salyan rayonu Parça Xalac kəndinə gəldim. Küçə qapısına çatdıqda Laləyə zəng etdim, onlara çatdığımı xəbər etdim. Bir azdan Lalə küçəyə çıxdı, biz gəldiyim taksi avtomobilə əyləşdim və Ələt qəsəbəsinə gəldik".

Təqsirləndirilən şəxs qeyd edib ki, həmin gün Lalə onların evində qonaq qalıb: "Mənim valideynlərim Lalənin valideynləri ilə telefonda danışdı, bayram münasibətilə qızlarını qonaq gətirdiklərini dedilər. Ertəsi gün Laləni öz evlərinə aparmaq istədik. Lalə evlərinə qayıtmaq istəmədiyini dedi. Valideynlərim Lalənin valideynləri ilə telefonda danışdı, qızlarının evə qayıtmaq istəmədiyini, bizim evimizdə qalmaq istədiyini dedilər. Lalənin valideynləri buna etiraz etmədilər və hətta bizə xeyir-dua da verdilər. Bu səbəbdən həmin gündən etibarən Lalə bizdə bacımla bir otaqda qalmağa başladı".

Əmrah Kərimov qeyd edib ki, gecə saatlarında evlərində öz otağında televizor qarşısında yatağında uzanıb və yatmağa hazırlaşıb: "Həmin gecə atam Əvəz işdə olub, anam Mənsurə və bacım Aynur isə otaqlarında yatıblar. Lalə mənim otağıma gəldi, birlikdə bir qədər televizora baxdıqdan sonra öz istəyimizlə razılığa gələrək təbii yolla cinsi əlaqədə olduq. Həmin gecə Lalənin bakirəliyini pozdum. Ertəsi gün bu barədə valideynlərimə dedim. Sonra Lalə ilə ər-arvad kimi yaşamağa başladıq.

Birgə yaşadığımız 3 ay ərzində bir neçə dəfə Lalənin öz istəyi və razılığı ilə təbii və qeyri-təbii yolla cinsi əlaqədə oldum. Lakin bir müddət sonra Lalə öz evləri üçün darıxmağa, mənimlə və valideylərim ilə mübahisələr etməyə başladı. Ona görə də atam və bacım Laləni apararaq öz valideynlərinə təhvil verdilər".

Təqsirləndirlən şəxsin ifadəsinə görə, Lalə ilə hazırda ər-arvad kimi münasibətdədilər və gələcəkdə toy mərasimi edib, yaşamaq fikirindədilər.

Qaradağ rayon Məhkəməsinin hökmü ilə Əmrah Kərimovun barəsində Cinayət Məcəlləsinin 70-ci (şərti məhkum etmə) maddəsi tətbiq edilib.

Ona 1 il sınaq müddəti olmaqla 11 ay 28 gün müddətinə şərti cəza təyin olunub.

# Sabiq nazir müavini və idarə rəisinin həbs müddəti artırılır - İş məhkəmədə

***Mədəniyyət Nazirinin sabiq müavini Rafiq Bayramov, nazirliyinin tabeliyində olan Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sabiq rəisi Zakir Sultanovun barəsində seçilmiş həbs qətimkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanın təqdimatına baxılacaq.***

Teleqraf.com-un xəbərinə görə, təqdimata baxılması üçün Səbail rayon Məhkəməsinə təqdim olunub.

İş araşdırılması üçün hakim Mədinə Bağırovanın icraatına verilib. Təqdimata nə vaxt baxılacağı açıqlanmayıb. Mədəniyyət nazirinin müavini Bayramov Rafiq Yasin oğlu və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Sultanov Zakir İmran oğlunun vəzifə səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə, vətəndaşların hüquqlarına mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol vermələrinə dair məlumatlar əldə edilib.

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il mayın 8-də məhkəmənin qərarı əsasında Rafiq Bayramov və Zakir Sultanovun xidməti və yaşadıqları ünvanlara keçirilmiş baxış zamanı Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin qəbul etdikləri pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, ayrı-ayrı valyutalarda saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilib.




İstintaq araşdırmaları zamanı Azərbaycan xalqının çoxəsrlik mədəni irsi və sərvəti olan tarixi abidələrin və mədəniyyət nümunələrinin qorunması, bərpası, rekonstruksiyası və mühafizəsi üçün zəruri işlərin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin bir hissəsinin Zakir Sultanov tərəfindən müntəzəm olaraq mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

Davam edən cinayət işi üzrə, mədəni irs hesab edilən xüsusi arxitektura-memarlıq üslubuna malik binalarda rekonstruksiya işlərinin aparılmasına maddi maraq müqabilində vəzifə səlahiyyətlərindən istifadə edərək razılıq verilməsi ilə bağlı əldə olunmuş məlumatlar araşdırılır.

Həmçinin araşdırmalar nəticəsində, Rafiq Bayramov tərəfindən Mədəniyyət Nazirliyinin regional idarələrinin rəhbərləri vasitəsi ilə rayonlarda fəaliyyət göstərən musiqi məktəblərində müəllimlərin adına artıq tədris saatlarının rəsmiləşdirilərək bunun müqabilində onların əmək haqlarından tutulan vəsaitlərin, habelə müxtəlif qanunsuz yollarla əldə edilən digər vəsaitlərin hər ay toplanaraq ələ keçirilməsinə əsaslı şübhələr müəyyən edilib.

Respublika ərazisindəki musiqi məktəblərinin, mədəniyyət evlərinin, kitabxanaların, rəsm məktəblərinin, qalereyaların, klubların, muzeylərin və sair mədəniyyət müəssisələrinin tikintisi, cari və əsaslı təmiri işlərinə görə ayrılan dövlət vəsaitlərinin bir hissəsinin Rafiq Bayramov tərəfindən şəxsən və Mədəniyyət Nazirliyinin regional idarələrinin rəhbərləri vasitəsi ilə müntəzəm olaraq nağdlaşdırılıb mənimsənildiyinə dair məlumatlar əldə edilmişdir.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Zakir Sultanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib.

İstintaq davam edir.

# Vergi uçotu mühasibat uçotundan nə ilə fərqlənir?



*Vergi və mühasibat uçotları arasındakı əsas fərq onların tənzimlənməsi sistemindədir. Mühasibat uçotu "Mühasibat uçotu haqqında" Qanunla, eləcə də digər qanunvericilik sənədləri və standartlarla tənzimlənir. Vergi uçotu isə Vergi Məcəlləsi və digər hüquqi normativ aktlara əsaslanır.*

"Unikal" xəbər verir ki, mövzunu şərh edən maliyyə üzrə ekspert Ramin Ramazanov vergi və mühasibat uçotu arasındakı fərqlərin böyük hissəsinin vergi və mühasibat mənfəətinin müəyyənləşdirilməsi zamanı yarandığını bildirib.

Onun sözlərinə görə, vergi və mühasibat uçotunun əsas fərqlərinə gəlir və xərclərin fərqli təsnifatı; amortizasiya hesablamaları metodları; gəlir və xərclərin tanınması metodları; material və istehsal ehtiyatlarının dəyərləndirilməsi üsulları və sair aid edilə bilər: "Məsələn, mühasibat uçotunda əsas vəsaitlərin amortizasiyası bir neçə üsulla (xətti, azalan qalıq, faydalı istifadə müddəti və sair) hesablana bildiyi halda, vergi uçotunda yalnız bir metoddan istifadə edilir. Əgər mühasibat uçotunun qiymətləndirmək və nəzarət etmək bacarığı varsa, vergi uçotunu qanunvericiliyin tələblərinin yoxlanılması və yerinə yetirilməsi üçün vacibdir".

Ekspert qeyd edib ki, vergi uçotu ilkin sənədlərin məlumatları əsasında vergilər üçün bazanı müəyyən edən ümumiləşdirilmiş informasiya sistemidir. Mühasibat uçotu onun tələblərinə uyğun olaraq, qanunda nəzərdə tutulmuş obyektlər haqqında sistemləşdirilmiş və formalaşmış informasiyadır. Əsas fərq təyinatdadır: mühasibat uçotu təşkilatın fəaliyyətinin və onun vəziyyətinin hesabatı üçün tərtib edilir, vergi uçotu isə vergilərin vaxtında ödənilməsinə nəzarət üçün vacibdir. Mühasibat və vergi uçotunun bəzi fərqlərinə baxmayaraq, onlar bir-biri ilə qarşılıqlı əlaqəlidir.

R.Ramazanov, həmçinin vergi və mühasibat uçotu arasında daimi və müvəqqəti fərqlərin ola biləcəyini vurğulayıb: "Daimi fərqlər bəzi gəlir və ya xərclərin mühasibat uçotunda qəbul edildiyi halda, vergi uçotunda nəzərə alınmamasına görə yaranmış fərqdir. Müvəqqəti fərq isə bir hesabat dövründə yaranan və müddət keçdikcə növbəti hesabat dövrlərində aradan qalxan fərqdir. Bu fərqlərin yaranma səbəbləri Vergi Məcəlləsinin tələbləridir. Çünki Vergi Məcəlləsində bəzi xərclər gəlirdən çıxılmayan xərclər kimi təsnifləşdirilib. Bu fərqlərə qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclər, əyləncə və yemək xərcləri, faktiki ezamiyyə xərclərinin normadan artıq hissəsindən yaranan fərqlər daxildir. Belə xərclər Vergi Məcəlləsində gəlirdən çıxılmayan xərclərə aid edildiyinə görə mühasibat uçotu ilə vergi uçotu arasında daimi fərqlər yaranır".

# İndiyədək 50-dək əlilliyi olan şəxs KOBİA-nın təlim və məsləhət xidmətlərindən yararlanıb

***3 dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Günüdür. Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası və məşğulluğunun təmin olunmasında onların sahibkarlıq fəaliyyətinə və özünüməşğulluq proqramlarına cəlb olunması xüsusilə əhəmiyyətlidir.***

Bu məqsədlə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən əlilliyi olan şəxslər arasında sahibkarlıq fəaliyyəti təşviq edilir, onların biznesə başlamasına və sahibkarlıq fəaliyyətlərinin inkişafına müxtəlif dövlət dəstəyi mexanizmləri çərçivəsində dəstək göstərilir, biznesyönümlü təlim və məsləhət xidmətləri, əlaqələndirmə, məhsullarının tanıdılması və satışına dəstək olunur. Əlilliyi olan şəxslər öz bizneslərini qurmaq və mövcud sahibkarlıq fəaliyyətlərini genişləndirmək üçün KOBİA-nın Bakı, Sumqayıt, Xaçmaz və Yevlax şəhərlərində fəaliyyət göstərən KOB inkişaf mərkəzlərinin ödənişsiz təlim, məsləhət, şəbəkələşmə və digər xidmətlərindən istifadə edə bilərlər.

KOBİA-dan "Unikal"a bildirilib ki, indiyədək 50-dək əlilliyi olan şəxs KOBİA-nın biznesə başlamaq və sahibkarlıq fəaliyyətini inkişaf etdirmək üçün təlim və məsləhət xidmətlərindən yararlanıb. Agentliyin "KOB Dostu" şəbəkəsi və KOB inkişaf mərkəzləri əlilliyi olan şəxslərin biznesə başlaması üçün zəruri mal və avadanlıqlarla təmin olunmaları məqsədilə onları özünüməşğulluq proqramları ilə əlaqələndirib, bu istiqamətdə müvafiq dəstək göstərib.

KOB

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

Agentlik əlilliyi olan şəxslərin məhsullarının tanıdılması və satışına da dəstək göstərir. İndiyədək KOBİA 70-dək əlilliyi olan şəxsin 10-dan çox sərgi, yarmarka və festivalda ödənişsiz iştirakını təmin etməklə onların məhsullarının tanıdılmasına və satışına, işgüzar əlaqələr qurmasına dəstək olub. 2019-cu ildə isə Beynəlxalq Əlilliyi olan Şəxslər Günü ərəfəsində KOBİA tərəfindən 20-dək əlilliyi olan şəxsin əl işlərindən ibarət satış sərgisi təşkil olunub.

Ümumilikdə KOBİA-nın təşkilatçılığı və dəstəyi ilə əlilliyi olan şəxslərin iştirakı ilə 20-dək təlim, sərgi, konfrans və sair tədbirlər təşkil edilib, 100-dən çox əlilliyi olan şəxs biznesə başlamaq və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün agentliyin dəstək və xidmətlərindən faydalanıb. Eyni zamanda, KOBİA yanında İctimai Şurada təmsil olunan 15 təşkilatdan biri də "Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyidir və indiyədək birgə əməkdaşlıq çərçivəsində bir sıra tədbirlər və layihələr həyata keçirilib.



# İşğaldan azad edilən ərazilərdə yol infrastrukturu bərpa ediləcək

***İşğaldan azad olunan şəhər və rayonlarımızda yük daşınması, avtobus və taksilərlə sərnişindaşıma xidmətlərinin göstərilməsi məqsədilə avtomobillərə xidmət etmək üçün təmir sexləri, texniki qulluqların aparılması sahələri, yanacaq doldurma məntəqəsi, avtoyuma məntəqəsi və avtomobillərin texniki cəhətdən saz vəziyyətdə saxlanılması üçün digər sexlər və duracaq sahələri olan avtonəqliyyat təsərrüfatının təşkil edilməsi nəzərdə tutulub.***

Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən "Unikal"a bildirilib ki, nəzərdə tutulan işlər dövlət-özəl sektor tərəfdaşlığı layihələrinin tərkib hissəsi kimi reallaşdırılacaq. Bu, həmçinin özəl sektor üçün yeni investisiya imkanlarının yaranması və böyük layihələrin idarə edilməsi ilə bağlı təcrübələrin formalaşmasına geniş təkan vermiş olacaq.

Bu məqsədlə Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən avtomobil nəqliyyatına dair təklif olunan infrastruktur obyektlərinin nümunəvi tikinti-layihə sənədləri hazırlanır.

# "Azərişıq" texniki itkiləri son 5 ildə birrəqəmli həddə qədər azaldıb

***"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti (ASC) texniki itkilərin azaldılması, uçot sisteminin təkmilləşdirilməsi, habelə dayanıqlı elektrik təchizat sisteminin təmin olunması üçün zəruri texniki tədbirləri davam etdirir.***

ASC-dən "Unikal"a bildirilib ki, 2015-ci ildə "Azərişıq" yaradılanadək şirkətdə elektrik enerjisi üzrə texniki itki 13,9 faiz təşkil edib. 2016-cı ildə bu rəqəm 10 faiz, 2017-ci ildə 9,9 faiz, 2018-ci ildə 9,8 faiz, 2019-cu ildə 9,7 faiz, 2020-ci ildə isə 0,8 faiz azaldılmaqla 8,9 faiz təşkil edib.

Səhmdar cəmiyyətin mətbuat xidmətinin rəhbəri Vaqif Mustafayev deyib ki, bu gün də "Azərişıq" texniki itkilərin azaldılması, uçot sisteminin təkmilləşdirilməsi, habelə dayanıqlı elektrik təchizat sisteminin təmin olunması üçün zəruri texniki tədbirləri davam etdirir. Bu məqsədlə elektrik şəbəkələrində əsaslı yenidənqurma işləri aparılır, ağac dayaqlar yeni dəmir-beton dayaqlarla əvəz olunur, eləcə də uçot sistemi təzələnərək sayğaclar yenilənir.

"2015-2020-ci illər ərzində ümumilikdə 1 milyon 300 minədək abunəçi yeni sayğaclarla təchiz olunub ki, bunun da 1 milyon 157 mini əhali, 142 min 309-u isə qeyri-əhali abonentlərinə aid uçot nöqtələri təşkil edib. Cari ilin 10 ayında isə ümumilikdə 196 min 436 abonent yeni sayğacla təchiz edilib və bunun da 185 min 543-ü əhali, 10 min 893-ü isə qeyri-əhali abonentlərinə aiddir. Görülən tədbirlər nəticəsində ümumilikdə "Azərişıq" üzrə son 5 il ərzində texniki itki səviyyəsinin 5 faizədək azalmasına nail olunub", - deyə V.Mustafayev əlavə edib.

O qeyd edib ki, "Azərişıq" tərəfindən respublikanın bütün kənd və qəsəbələrində elektrik enerjisi sisteminin yenidən qurulması ilə bağlı genişmiqyaslı işlər həyata keçirilir: "Son 5 ildə 500-dən çox kənd və qəsəbələrdə, cari ilin 10 ayında isə 50-dən çox inzibati ərazi vahidliklərində (0,4 kilovoltluq şəbəkələrdə) yenidənqurma işləri aparılaraq ümumilikdə minlərlə istehlakçının 24 saat ərzində dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatı tam təmin olunub".



## Azərbaycanda antioksidanlarla zəngin iki yeni meyvə sınağa verildi

***AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində (LREM) çay və sitrus bitkiləri ilə paralel olaraq tropik-subtropik quayava (Psidium quayava) bitkisinin yerli şəraitə uyğunlaşdırılması, yetişdirilməsivə onun təsərrüfat əhəmiyyətnin öyrənilməsi sahəsində uğurlu nəticələr əldə edilib.***

"Unikal" AMEA-ya istinadən xəbər verir ki, ilk dəfə mərkəzin direktoru, professor Fərman Quliyevin rəhbərliyi ilə İrandan introduksiya edilən tropik-subtropik quayava (Psidium quayava) meyvə bitkisinin yeni iqlim şəraitində öyrənilməsi və rayonlaşdırılması istiqamətində son illər geniş araşdırmalar aparılıb.

"Quayava mərsinkimilər fəsiləsinin psidium cinsinə aid bitki növüdür. 20 ilə yaxındır ki, quayavanın yeni şəraitdə öyrənilməsi və rayonlaşdırılması istiqamətində elmi-tədqiqat işləri aparırıq. Vətəni Cənubi Amerika olan quayavanın bölgəmizdə açıq havada, qışda sintetik örtük və otaq şəraitində becərilməsinə dair bir sıra uğurlu nəticələr əldə etmişik", - deyə professor Fərman Quliyev bildirib.

Quayava bitkisinin meyvəsindən qənnadı və tibb sənayesində, təbabətdə geniş istifadə edildiyini vurğulayan F.Quliyev bu ətirli meyvənin bütün hissələrinin vitaminlərlə zəngin olduğunu, turşaşirin dad verdiyini, yarpaqlarından efir yağları alındığını diqqətə çatdırıb. Həmçinin yarpaqları, çiçəkləri və meyvələri bakterisid təsirə malikdir. Dekorativ yaşıllaşdırmada, müxtəlif kompozisiyaların tərtibatında da istifadə olunur. Quayava faydalı xassələri ilə nar, gavalı, alma, üzüm, banan və hətta manqodan üstündür. Heydərabaddakı (Hindistan) Milli İnstitutun alimləri yer üzündəki ən dəyərli meyvəni təyin etmək üçün bir sıra təcrübələr aparıblar və müəyyənləşdiriblər ki, tərkibində rekord miqdarda antioksidanlar olan quayava ən qiymətli meyvədir.

Quayavada rekord miqdarda, orta hesabla 100 qramda 240 mqr C vitamini olduğundan, ondan müxtəlif tənəffüs yolları xəstəlikləri və qrip zamanı, xüsusən indiki pandemiya dövründə tez-tez istifadə edilməsi tövsiyə olunur.

Kökü, qabığı, yarpaqları, çiçəkləri, meyvələri, bir sözlə bütöv bitkinin müalicəvi xüsusiyyətlərə malik olması bu həmişəyaşıl möcüzəvi ağacın təsərrüfat əhəmiyyətini qatqat artırır. Cənub bölgəsinin simvollarına çevrilmiş limon, narıngi, feyxoadan geri qalmayan və bəzi hallarda öz müalicəvi xüsusiyyətləri ilə onları üstələyən quayava bitkisinin təsərrüfat sahiblərinin, fermerlərin, həvəskar bağbanların böyük marağına səbəb olacağını qeyd edən alim bu möcüzəvi bitkinin tezliklə tanınacağına, bölgədə becərilən sitrus bitkiləri arasında öz layiqli yerini tutacağına əminliyini ifadə edib.

Hazırda Lənkəran REM-in əməkdaşlarının Azərbaycan Meyvəçilik və Bağçılıq Elmi Tədqiqat İnstitutunun Lənkəran çay filialındakı təcrübə bazasında quayavanın öyrənilməsi rayonlaşdırılması, becərilməsi və çoxaldılması istiqamətində apardıqları tədqiqatlar öz bəhrəsini verməkdədir.

Professor F.Quliyev psidium quayava bitkisinin qırmızı və sarı sortlarının öyrənilib və rayonlaşdırılması məqsədilə sort sınağından keçirilməsi üçün Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinə təqdim edildiyini bildirib.

# Komandir: "Şuşanı əlbəyaxa döyüşlərlə azad etdik"

***Xüsusi təyinatlı dəstənin komandiri, mayor Zaur Rəhimov müzəffər Ordumuzun tarixi zəfərində əməyi olan qazilərimizdəndir.***

Vətən Müharibəsinin başlaması ilə mayor Zaur Rəhimovun da arzusu reallaşıb. O, döyüş yoldaşları ilə birlikdə torpaqlarımızın işğaldan azad olunması üçün canı və qanı ilə mübarizə aparıb: "Uzun müddət idi ki, bizə hərbçi olaraq bundan şərəfli tapşırıq ola bilməzdi ki. Torpaqların azad olunmasını biz çoxdan arzu edirdik. Allaha çox şükürlər olsun ki, o tapşırıq xidmətimiz dövründə bizə verildi. Mən özümü ona görə xoşbəxt sayıram ki, bu tapşırığın icra olunmasında, bu tapşırığın yerinə yetirilməsində mən iştirak etmişəm".

Murov dağı silsiləsində gedən döyüşlərdə boynundan qəlpə yarası alan Zaur həkimlərin cərrahi müdaxiləsindən sonra 10 gün keçməmiş cəbhəyə qayıdır: "İlk dəfə yaralandıqdan sonra bizim Ali Baş Komandanla görüşümüz oldu. Ali Baş Komandanın çıxışı nəticəsində, onun bizə verdiyi ruh yüksəkliyi nəticəsində və təbii ki, həkimlərimiz də sağ olsunlar, onların müalicələri nəticəsində tez bir zamanda sağalıb döyüşə qatıldım. Təkrar döyüşlərə qatılanda artıq Cəbrayıl, Füzuli istiqamətlərində gedən döyüşlərə, Hadrutun alınması, ondan sonra digər kəndlərimizin alınmasında iştirak etmişəm. Xüsusi təyinatlı taborun komandiri olaraq da bir sıra nailiyyətlərimiz olub. Düşmənin strateji mövqelərinin alınması, müəyyən kəndlərimizin boşalmasında, təmizlənməsində iştirak etmişəm. Sonuncu dəfə Şuşada noyabrın 6-da düşmənin Xankəndi istiqamətindən gələn 2 bölməsinin qarşısını alarkən orada yaralanmışam".



Ali Baş Komandan tərəfindən "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunan cəsur mayor Şuşada ayağından snayper gülləsi ilə vurulub: "Hətta mən elə hərbi qulluqçu görürdüm ki, avtomatla belə tanka atəş açırdı. İnandırım ki, düşmən tankını qoyub qaçırdı. Düzdür, qumbaraatan silahlarımız vardı, bəzilərini onunla sıradan çıxardıq, bəzilərini vurub yandırdıq. Düşmənin üzərinə əlbəyaxa döyüşlərlə və kiçik çaplı silahlardan hücuma keçərək biz Şuşanı azad etdik. Şuşanı azad edərkən özüm də ağır yaralandım".

Qolundan, ayağından yaralanan əsgərlərinin, döyüş yoldaşlarının sarğı ilə vuruşmağa davam etməsindən, irəli getməsindən qürurla danışır komandir. Deyir ki, bəzi döyüşlərdə düşmənin canlı qüvvələrinin sayının çox olması da şəxsi heyətin qarşısını ala bilməyib: "Döyüşdə əsas torpaqların azad olunmasını düşünürdük ilk növbədə. Düzdür, adamın ailəsi, uşağı yadına düşür, darıxır onlar üçün. Amma öncə Vətən! Vətən əgər dardadırsa, təbii ki, ailə də, uşaq da qalır ikinci planda".

Ailədən söz düşmüşkən, Zaur ailədə 7 qardaşdan biridir. Qardaşlardan 5-i Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edib, 3-ü yaralanıb. İndi isə ailənin sonbeşiyi olan Zaur Rəhimov xalqımızın 28 illik Vətən həsrətinə son qoymaq naminə müharibəyə qatılıb və yaralanıb:

Qardaşı İlqar Rəhimzadə qardaşı ilə fəxr etdiyini deyir: "Biz də ailəmiz adından cənab Ali Baş Komandana minnətdarlığımızı bildiririk, şəhidlərin ruhu qarşısında baş əyirik. Allah cəmi şəhidlərimizə rəhmət eləsin! Yaralı əsgərlərimizə də tez sağalmağı Allahdan arzu edirik".

Qohumu Könül Rəhimzadə də belə vətən oğulları ilə fəxr edir: "Xəstəxanalarda müalicə alan qazilərimizə Allahdan şəfa diləyirik və şəhid analarının qarşısında baş əyirik ki, belə Vətənə layiqli övladlar yetişdiriblər. Mən bir daha fəxr edirəm ki, mənim qaynım da məhz Qarabağ qazisidir. Bütün Azərbaycan qəhrəmanları ilə fəxr edirik ki, nə yaxşı, bizim belə qəhrəman övladlarımız var"(apatv).

# Azərbaycanın "Maxaraşvili"si: 62 yaşlı Zahir dayı oğlunun dalınca getdi...Şuşada tapdı

***"Əsgər atası? Hə, hə yaxşı xatırlayıram..Elə məni də o filmdəki qoca Maxaraşviliyə bənzətsələr yaxşıdı. Oğlumun dalınca getdim mən də...".***

Bu sözləri Lent.az-a əsgər atası Zahir Həsənov deyir. O əsgər atası ki, 62 yaşı olmasına baxmayaraq oğlunun dalınca cəbhəyə yollanıb, döyüş meydanında onunla çiyin-çiyinə vuruşub. İndi bütün ölkə bu atadan danışır. Onu məşhur "Əsgər atası" filmindəki qoca gürcü kəndlisi Georgi Maxaraşviliyə bənzədirlər. Çünki bəhs etdiyimiz filmdəki əsgər atası da bizim qəhrəman atamız kimi oğlunun dalınca cəbhəyə yollanır, yolboyu başına hər cür hadisə gəlir, amma buna baxmayaraq oğlunu tapır. Bunu Zahir dayıya deyəndə əvvəlcə güldü. Səsindən də hiss olunurdu ki, bu bənzətmə lap ürəyincə olub:

"Hə, hə yaxşı xatırlayıram o filmi. Qoca Maxaraşvili... İndi deyirsən ki, məni də ona bənzədirlər? Lap yaxşı. Düz edirlər. Elə mən də o filmdəki qoca kimi oğlumun dalınca getdim".

Zahir dayı müharibə başlayandan cəbhəyə getmək istəyib. Hərbi komissarlığına müraciət edib, onlar da sadəcə qeydiyyata salıblar. Amma yaşına görə apara bilməyəcəklərini də bildiriblər:

"Elə oğlumla birlikdə getdik, könüllü olaraq müraciət etdik, qeydiyyatdan keçdik. Onu hələ müharibə başlamazdan bir neçə gün qabaq çağırıb apardılar. Məni isə yox. Dəfələrlə müraciət etdim. Amma həm yaşım, həm də II qrup əlil olmağım buna mane oldu".

Bəli, Zahir dayı II qrup Qarabağ əlilidir. O, birinci Qarabağ müharibəsinin iştirakçısıdır. 1991-ci ildə N saylı hərbi hissədə motoatıcı əsgərlərin komandiri olub. Fizuli şəhərində doğulub, böyüyən Zahir dayı bu yerlərin azadlığı uğrunda döyüşüb və yaralanıb. Azərbaycan Bayrağı ordeni ilə təltif olunan həmsöhbətimiz bildirir ki, Vətən müharibəsi başlayanda yenidən könüllü olaraq orduya qatılmaq, doğma yurdunun işğaldan azad olunmasında iştirak etmək istəyib. Hərbi komissarlıqdan cavab gəlməyincə, Müdafiə Nazirliyinə müraciət edir. Zahir dayının istəyi nəzərə alınır və o, yenidən döyüş meydanına, gənclikdə vuruşduğu torpaqlara yollana bilir:

"Yenidən keçmiş döyüşçüləri toplayıb könüllülər qrupu yaratdıq. Komandiri olduğum hərbi hissənin o vaxtkı döyüşçüləri ilə döyüş meydanına getdik. Aslan Aslanov, Bəhrəm Həsənov, Cəmşid Ağayev o vaxtı da mənimlə birlikdə idilər, indi də. Əslində mən oğlumdan təxminən 10-15 kilometr öndə vuruşurdum. Sonra bilmirəm necə oldusa uşaq məndən qabaqda oldu. Bir də xəbər tutdum ki, öndədir. Mən də onun dalınca getdim".

Oğlu Ceyhunun 26 yaşı var. Cəbrayıl rayonunun Daşkəsən kəndi və Xocavəndin Azıx istiqamətlərində döyüşüb.



Zahir dayı onunla Şuşa istiqamətində görüşə bilir:

"Əlbəttə, gözümdə həmişə uşaq olan Ceyhunu döyüş meydanında görmək mənə ancaq qürur hissi verə bilərdi. O qədər sevincli idim ki, özümdə qəribə bir güc hiss edirdim".

Zahir dayı müharibədə kəllə-beyin travması alıb. Hazırda Füzulidədir. Səhhətinin yaxşı olduğunu bildirən Zahir dayı deyir ki, qazandığımız qələbənin bəxş etdiyi sevinc hissi bütün ağrılarımı alıb aparıb.

***Lamiyə Məmmədova***

# Fransa mükafatı almış Azərbaycan elm və mədəniyyət xadimlərindən bəyanat

***Fransa Respublikasının mükafatlarını almış Azərbaycanın elm və mədəniyyət xadimləri Fransanın qərəzli mövqeyinə etiraz olaraq bəyanat imzalayıblar.***

Mədəniyyət Nazirliyindən “Unikal”a verilən məlumata görə, bəyanatın mətnində deyilir:

“Biz - fərqli illərdə Fransanın mükafatlarına layiq görülmüş Azərbaycanın mədəniyyət xadimləri və təhsil işçiləri - bu mükafatlarla fəxr edirdik, çünki bu mükafatlar bizim üçün dünyaya bu qədər gözəllik bəxş edən bir ölkənin simvolu idi! Biz Rablə, Molyer, Volter, Hüqo və s. bu kimi dahi yazıçı və filosofların təmsil etdikləri fransız ədəbiyyatının şərəf, bərabərlik, sülh və ədalət kimi ən ali və ümdə məfhumlar uğrunda mübarizə apardığını həmişə xatırlamışıq. Xüsusilə qeyd etmək istərdik ki, bu dəyərlərə olan hörmətimiz təsadüfi deyil, belə ki, Azərbaycanda ədalət və bərabərlik prinsipləri, hörmət və sülh, şərəf və ləyaqətin qorunması yaşam tərzinin təməlidir. Əsrlər boyu Azərbaycan bütün bölgənin mədəniyyət mərkəzi, eləcə də bir çox millət və din mənsublarının yüzilliklər boyu yanaşı yaşayaraq dinc şəkildə, çiyin-çiyinə fəaliyyət göstərdikləri ev olmuşdur. Məhz bu mədəniyyətlərin sintezi ölkəmizin misilsiz mədəni irsinin yaranmasına səbəb olmuşdur və bu gün Azərbaycan dünyanın ən çoxmədəniyyətli və çoxkonfessiyalı ölkələrindən biridir. Təsadüfi deyil ki, 2016-cı ilin oktyabrında Roma Papası Fransisk Azərbaycana səfəri zamanı Azərbaycanı dini tolerantlıq baxımından dünyada nümunəvi ölkə kimi yüksək qiymətləndirmişdi. BMT Baş Assambleyasının qərarına əsasən, 2017-ci ildə hər iki ildən bir Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun mədəniyyətlərarası dialoq üçün əsas qlobal platforma hesab edilməsi də bunu bir daha sübut edir.

Müsəlman icması ilə yanaşı, ölkəmizdə xristian və yəhudi icmaları da cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir. Ölkəmizdəki bütün abidələr və dini binalar, eləcə də məscid və kilsələr Azərbaycan dövləti tərəfindən tam qorunur və mütəmadi olaraq restavrasiya olunur. Ölkəmizdə məscidlər, kilsələr və sinaqoqlar yan-yana fəaliyyət göstərir.

Azərbaycan təkcə ölkə daxilində deyil, həm də bütün dünyada mədəni irsin qorunmasına öz töhfəsini verib. Azərbaycanın maliyyə dəstəyi ilə həyata keçirilən işlər arasında Luvr və Versal sarayında aparılan renovasiya işlərini, Fransanın Orne departamentinin Sen-İler, Frene-o-Sovaj, Sen-İler-la-Jerar, Tanvil, Kurjo, Reveyon və Mal yaşayış məntəqələrində yerləşən X-XII əsrlərə aid yeddi kilsənin bərpasına dəstəyi, həmçinin Fransada XIV əsrə aid Strasburq Kafedral kilsəsinin vitraj hissələrinin, o cümlədən Vatikandakı Müqəddəs Sebastyan, Müqəddəs Marsellino və Müqəddəs Pyetro katakombalarının bərpasını qeyd etmək olar.

Bu gün Azərbaycan öz inkişafının ən vacib və tarixi mərhələlərindən birini yaşayır. İkinci dünya müharibəsi zamanı Fransa başqa bir ölkənin işğalı altında olduğu kimi, bizim ərazilərimizin də bir hissəsi 28 il idi ki, Ermənistan tərəfindən işğal edilmişdi. On minlərlə insan öldürülüb, bir milyona yaxın Azərbaycanlı etnik təmizləmə nəticəsində daimi yaşayış yerlərini itirib və qaçqına çevrilib. BMT Təhlükəsizlik Şurasının BMT Nizamnaməsində ifadə edilmiş ölkələrin ərazi bütövlüyünə əsaslanan 822, 853, 874 və 884 saylı qətnamələrində Ermənistan işğalçı qoşunlarının Azərbaycan Respublikasının beynəlxalq müstəvidə tanınmış ərazilərindən dərhal çıxarılması tələb edilmişdir. Lakin 30 ilə yaxın idi ki, bu qətnamələrin heç biri yerinə yetirilmirdi.



Bütün bu işğal illərində hər gün insanlarımız həlak olur, qədim mədəniyyət abidələrimiz qərəzli şəkildə məhv edilir, neçə-neçə şəhər büsbütün xarabalığa çevrilir, bizim dünya ictimaiyyətinə kütləvi mədəni soyqırımın dayandırılması barədə etdiyimiz çoxsaylı müraciətlərimiz isə cavabsız qalırdı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Xocalı şəhərinin sakinlərinə qarşı soyqırım törədib və bir gecədə 106 nəfəri qadın, 63 nəfəri uşaq və 70 nəfəri qoca olmaqla, 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirərək param-parça ediblər. 1275 mülki şəxs əsir götürülüb (onlardan 150 nəfərin taleyi hələ də məlum deyil), 475 vətəndaş əlil olub, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə iki valideyndən birini itirib. Xocalı şəhəri yerlə yeksan edilib. Artıq bir sıra dünya ölkələri dinc əhaliyə qarşı törədilmiş Xocalı soyqırımını tanımışdır.

Bu günlərdə isə ədalət zəfər çalıb və Fransa İkinci dünya müharibəsi əsnasında etdiyi kimi, biz də torpaqlarımızı erməni işğalından azad edib BMT, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı da daxil olmaqla, bütün nüfuzlu beynəlxalq təşkilatlar və dünyanın bütün ölkələri tərəfindən tanınan ərazi bütövlüyümüzü bərpa edə bildik. Müharibənin ilk günlərindən Azərbaycan öz dövlət sərhədlərini bir santimetr də keçməmiş və bütün döyüş əməliyyatları birbaşa ölkəmizin ərazisində aparılmışdır.

27 sentyabr 2020-ci il tarixindən başlayaraq, şəhər və kəndlərimizin bütün dünyada qadağan edilmiş silah növləri ilə bombardman edilməsinə və ərazilərimizin atəşə tutulmasına baxmayaraq, müzəffər Azərbaycan Ordusu əks-hücum əməliyyatları nəticəsində işğal altında olan ərazilərimizin böyük hissəsini, o cümlədən Azərbaycan mədəniyyətinin incisi, tarixi-memarlıq qoruğu, muğamın və Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin doğulduğu yer - Şuşa şəhərini azad etməyə müvəffəq oldu.

1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunana qədər Şuşa sakinlərinin 98%-ni Azərbaycanlılar təşkil edirdi. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistanın Baş naziri və Rusiya Federasiyasının Prezidenti arasında sülh bəyannaməsi imzalanmışdır. Bu bəyannamənin şərtlərinə əsasən, işğalçı qüvvələr öz qoşunlarını Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən tədricən çıxarmaq barədə öhdəlik götürməyə məcbur oldu. Mülki insanlar isə artıq öz evlərinə qayıtmaq şansı əldə ediblər.

Bu gün bütün dünya otuz illik erməni işğalının dəhşətli nəticələri ilə əyani şəkildə tanış ola və vəhşicəsinə məhv edilmiş şəhər və kəndləri, yandırılmış meşələri və dağıdılmış torpaq sahələrini, eləcə də dünya mədəni irsinin nümunələri olan tarixi mədəniyyət və memarlıq abidələrini, habelə xarabalığa çevrilmiş dini binaları görə bilər.

Azad edilmiş ərazilərdə demək olar ki, bütün məscidlər, hətta pravoslav kilsəsi belə dağıdılıb və ya murdarlanıb.

Azərbaycan Respublikasının rəhbərliyi (konfessional mənsubiyyətlərindən asılı olmayaraq) dağıdılmış bütün ərazilərin, şəhər və kəndlərin, eləcə də mədəniyyət abidələrinin və dini obyektlərin bərpa ediləcəyini bəyan edib.

Azərbaycana qarşı 30 ilə yaxın davam edən təcavüzə daha əvvəl heç bir şəkildə reaksiya verməyən Fransa Senatının və onun elitasının mövqeyi, habelə kukla rejiminin müstəqilliyini tanımağın zəruriliyinə dair birmənalı şəkildə qərəzli qərar qəbul etməsi bütün Azərbaycan ictimaiyyətində qəzəb və hiddətə səbəb olmuşdur.

Xüsusilə təəccüblüdür ki, Fransa BMT Təhlükəsizlik Şurasında erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməyə səs verən ölkələrdən biridir.

Biz səmimi qəlbdən inanırdıq ki, Fransa Respublikasının dəyərləri yalnız bu ölkənin yaxın müttəfiqlərinə deyil, həm də dünya ölkələrinə şamil olunur. Lakin qəbul edilmiş bu qərar ikitərəfli münasibətlərimizin uğurlu gələcəyi üçün ciddi təhlükə yaradır. İndi Azərbaycanın mədəniyyət xadimləri üçün ölkə ictimaiyyətini Fransa ilə əlaqələrimizi inkişaf etdirməyin məqsədəuyğun olduğuna inandırmaq çətin olacaq.

Xüsusi olaraq qeyd etmək istərdim ki, Azərbaycan şərqin ilk demokratik respublikasıdır və yeri gəlmişkən, ölkəmiz Fransadan çox əvvəl qadınlara səsvermə hüququ verib.

Respublikamızın himninin müəllifi, Qarabağda dünyaya göz açmış Üzeyir bəy Hacıbəyov Şərqdə ilk operanın müəllifidir. Onun “Arşin Mal Alan” operettası 4 iyul 1925-ci il tarixində Parisin Yelisey sarayındakı “Femina” teatrında fransız dilində səhnələşdirilib. İlk balet, eləcə də Şərqin ilk balerinası da məhz Azərbaycan səhnəsinə çıxıb. Bu siyahını sonsuza qədər uzatmaq olar.

Biz başa düşürük ki, Fransada güclü erməni diasporunun olması vacib amildir, lakin Fransa kimi bir dövlətin rəsmi mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də ədalət və dövlət məsuliyyəti prinsiplərinə əsaslanmalıdır.

Fransanın mədəniyyət xadimləri tərəfindən imzalanmış müraciətlə tanış olduqdan sonra belə görkəmli sənət nümayəndələrinin lazımi tədqiqatlar aparmadan erməni təbliğatının alətinə çevrilməsi bizi kədərləndirir. Təəssüf ki, belə qeyri-peşəkar yanaşma onların nüfuz və qərəzsizliyinə də kölgə salır.

Biz Fransanın hakimiyyət orqanlarının nümayəndələrini və mədəniyyət xadimlərini Azərbaycanın işğaldan azad edilmiş ərazilərini ziyarət etməyə və erməni işğalçıları tərəfindən törədilən dağıntıları və vandalizmin miqyasını yerində görməyə çağırırıq. Güman edirik ki, o zaman sizin fikrinizin ümumbəşəri dəyərlərə və beynəlxalq hüquq prinsiplərinə söykənəcək”.

Tahir Salahov, “Fəxri Legion” ordeni (Zabit dərəcəsi)

Fərhad Bədəlbəyli, “İncəsənət və ədəbiyyat” ordeni (Kavaler dərəcəsi)

Ramiz Abutalıbov, “Fəxri Legion” ordeni (Kavaler dərəcəsi)

Sevda Məmmədəliyeva, “İncəsənət və ədəbiyyat” ordeni (Zabit dərəcəsi)

Fərhad Xəlilov, “İncəsənət və ədəbiyyat” ordeni (Kavaler dərəcəsi)

Çingiz Fərzəliyev, “İncəsənət və ədəbiyyat” ordeni (Kavaler dərəcəsi)

Səməd Seyidov, “Fəxri Legion” ordeni (Kavaler dərəcəsi)

Hicran Hüseynova, “Fəxri Legion” ordeni (Zabit dərəcəsi)

Fəxriyyə Xələfova, “İncəsənət və ədəbiyyat” ordeni (Kavaler dərəcəsi)

Çəmən Babaxanova, “Akademik palma” ordeni, (Kavaler, Zabit dərəcələri)

Azelma Həsənova, “Akademik palma” ordeni, (Kavaler, Zabit dərəcələri)

Röya Tağıyeva, “İncəsənət və ədəbiyyat” ordeni (Zabit dərəcəsi)

Zöhrə Əliyeva, “Akademik palma” ordeni, (Kavaler dərəcəsi)

Gülbəniz Camalova, “Akademik palma” ordeni, (Kavaler dərəcəsi)

Afaq Quliyeva, “Akademik palma” ordeni, (Kavaler dərəcəsi)

Murad Hüseynov, “İncəsənət və ədəbiyyat” ordeni (Kavaler dərəcəsi)

Gülnarə Sadıxova, “Akademik palma” ordeni, (Kavaler dərəcəsi)

Reyhan Hüseynova, “Fəxri Legion” ordeni (Kavaler dərəcəsi)

Tahirə Cabbarova, “Akademik palma” ordeni, (Kavaler dərəcəsi)

Elmira Fərəcullayeva, “Akademik palma” ordeni, (Kavaler dərəcəsi)

Soylu Xəlilova, “Akademik palma” ordeni, (Kavaler dərəcəsi)

Məhərrəm Orucov, “Akademik palma” ordeni, (Kavaler dərəcəsi)

Rəfiqə İsayeva, “Akademik palma” ordeni, (Kavaler dərəcəsi).




# "Koronavirus testinin neqativ çıxması xəstə olmamağınız demək deyil" - ALİM DANIŞIR

***Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının tibb elmləri doktoru, azərbaycanlı alim Nuran Abdullayev son günlər vətəndaşlar arasında COVID-19 testlərinin nəticələri ilə bağlı şübhə doğuran məlumatlara münasibət bildirib.***

Bununla bağlı "Unikal"a açıqlama verən azərbaycanlı alim bildirib ki, insanlar arasında doğru götürülən test nəticələrinə şübhələrin əsası var və bunun dəqiq elmi cavabları da mövcuddur:

"Mən niyə görə doğru götürülən dedim? Çünki texniki olaraq doğru götürülməyən testlərdən danışmağın mənası yoxdur və onların nəticələri onsuz da doğru deyil. Amma texniki cəhətdən doğru götürülən testlərin cavablarına olan şübhələrin əsasına nümunə ilə aydınlıq gətirmək mümkündür.

Məsələn, bir insan həqiqətən yeni növ koronavirus infeksiyası xəstəsidir, bütün simptomları var. Hətta öskürür, test verir və nəticəsi neqativ çıxır. Sonra da həmin insan deyir ki, götürülən testlər yanlışdır, çünki mənim xəstəliyimə "yox" dedi, halbuki mən xəstəyəm. Daha sonra müalicə həkimini də bir az "çaşdırır", müalicə həkimi KT (kompüter tomoqrafiyası) tövsiyə edir. KT-də isə COVID-19-a tipik dəyişikliklər görünür və xəstəyə COVID-19 diaqnozu qoyulur. Bu dəfə xəstədə testə qarşı daha da inamsızlıq yaranır".

N.Abdullayev qeyd edib ki, həmin insanlar başa düşməlidirlər ki, virusun çoxalması artıq boğazda sona çatıb və ağciyərlərə enib:

"Ona görə də boğazdan götürülən testin cavabı da neqativ çıxır, çünki boğazda aktiv virus qalmayıb. Amma indi bu, o anlama gəlməməlidir ki, hər kəs birbaşa KT elətdirməlidir".

Tibb elmləri doktoru qan analizinin (PSR testlər) və ya KT-nin daha dəqiqliklə koronavirus as?karladıg?ı ilə bağlı məsələyə də aydınlıq gətirib:

"Qan analizi ilə verilən testlər anticismləri təyin edir. Bunu isə simptomların başlamasından sonra, minimum 3-6 həftə arasında etmək lazımdır. Bu zamandan öncə simptomları olan xəstədə edilən antigen testlərinin heç bir anlamı yoxdur. Onların informativliyinin doğru olmamaq şansı çoxdur.

KT isə virus artıq ağciyərlərə endikdən sonra daha çox önəmlidir. Buna görə də bildirmək istəyirəm ki, koronavirus testinin neqativ çıxması xəstə olmamaq demək deyil".

# Qarabağın məşhur müəllimləri...

***Təhsil Nazirliyinin "Qarabağın məşhur müəllimləri" layihəsinin növbəti tarixi siması pedaqoq, publisist, tərcüməçi, jurnalist, yazıçı, naşir Haşım bəy Vəzirovdur.***

Qurumdan verilən məlumata görə, o, 1868-ci ildə Şuşa şəhərində anadan olub.

Haşım bəy Vəzirov İrəvan, Bərdə, Şəki və Şuşada müəllimlik edib. İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Böyük Vedi kəndində müəllimliyə başlayıb. Sonra Cavanşir qəzasının Alpout, Şəki qəzasının Kiçik Köynük, Cavanşir qəzasının Bərdə kəndlərində pedaqoji fəaliyyətlə məşğul olub. Bir müddət isə Şuşada yaradılan müsəlman-rus məktəbinin müdiri işləyib. Şuşa realnı məktəbinin hazırlıq sinfində ana dilindən dərs deyib.

Pedaqoji fəaliyyət Vəzirova xalqının məişətinin daha dərindən öyrənilməsinə imkan yaradıb. Xalq həyatından, məişətdən öyrəndikləri onun bir yazıçı-jurnalist kimi fəaliyyətinə səmərəli təsir göstərib. Haşım bəy müdir işlədiyi məktəbdə sərt bir nizam-intizam yaratmaqla yanaşı, savadsızlar üçün axşam kursları da açıb. Bütün varlığıyla millətinin savadlanmasına, məktəbə gələn hər bir uşağın yüksək




bilik almasına çalışıb. O, əlinin əməyi, zəhməti hesabına dolananları, cəmiyyətin bütün təbəqələrini əhatə edən çalışqan insanı millətinin sərvəti hesab edib.

Təhsil Nazirliyinin "Qarabağın məşhur müəllimləri" layihəsinin növbəti tarixi siması Azərbaycanda xalq təhsilinin inkişafında müstəsna xidmətləri olan ziyalı, Şuşada açılan darülmüəlliminin ilk təşkilatçı və müdiri Müseyib İlyasovdur. Nazirlikdən verilən məlumata görə, o, 1884-cü ildə Laçın rayonunun Oğuldərə kəndində anadan olub.

Müseyib İlyasov Bakıda və Qubada məktəbdə işləyib. 1931-ci ilədək Zəngəzur Qəza Xalq Maarif şöbəsinin müdiri vəzifəsində işləyib. Xalq Maarif şöbəsinə rəhbərlik etdiyi illərdə Laçın şəhərində, Şamkənd, Vağazin, Qorçu, Kürdhacı, Hoçaz və onlarla başqa kəndlərdə məktəblər açıb.

Təhsil Nazirliyinin "Qarabağın məşhur müəllimləri" layihəsinin növbəti siması Ənvər Rzadır. Təhsil Nazirliyindən verilən məlumata görə, o, 1939-cu il martın 3-də Kəlbəcər rayonunun Aşağı Ayrım kəndində anadan olub. Ənvər Rza M.F. Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun (indiki Azərbaycan Dillər Universiteti) ingilis dili fakültəsində təhsil alıb. Həmin institutda ingilis dili leksikası kafedrasında müəllim, baş müəllim, kafedranın müdiri vəzifəsində işləyib. Sonra institutun nəzdində ilk dəfə olaraq tərcümə kafedrasını yaradıb və ömrünün sonunadək bu kafedranın müdiri vəzifəsində çalışıb. O, istedadlı şair, cəfakeş alim, həm də peşəkar tərcüməçi olub.

Qeyd edək ki, "Qarabağın məşhur müəllimləri" layihəsi çərçivəsində Qarabağda doğulan və pedaqoji fəaliyyətlə məşğul olan tanınmış şəxslər barədə məlumatlar təqdim olunur. Layihənin məqsədi əslən Qarabağdan olan məşhur müəllimləri yad etməkdir.

# Stalin haqqında miflər və əfsanələr

***"Ellər atası" İosif Stalinin şəxsiyyəti barədə saysız-hesabsız miflər və əfsanələr yayılıb. O, hakimiyyəti qəsb etmiş totalitar lider, adı sürgünlər və repressiyalarla bağlı qanlı diktator və İkinci Dünya müharibəsinin triumfatoru kimi məşhurdur. İllər keçəndən sonra da bu odioz və koloritli personajın şəxsiyyətinə maraq azalmır. Onun qədər məşhur siyasi lider tapmaq çətindir. Onun adı çəkiləndə bəziləri qıcıqlanır, kimdəsə bu ad qəzəb, kimdəsə hörmət, kimdəsə qorxu hissləri oyadır. Amma bu xarizmatik və hərtərəfli siyasətçinin müasirlərindən heç kəs ona laqeyd qalmayıb.***

Stalinin tərcümeyi-halında Bakı taleyüklü rolu oynayıb. Stalin təxəllüsü ilə daha çox məşhur olan İosif Cuqaşvilinin inqilabi fəaliyyəti buradan başlanır. Stalinin gələcək xanımı Nadejda Alliluyeva ilə tanışlığı da Bakı ilə bağlıdır. Stalinin ailəsində yayılmış əfsanəyə görə, İosifin təxminən 20 yaşı olanda, daha dəqiq desək 1903-cü ildə ikiyaşlı Nadejda Alliluyeva Bakıda sahildən dənizə yıxılır və İosif qızcığazı xilas edir. Bundan sonra İosif və Nadejda yalnız 1917-ci ilin mart ayında yenidən görüşəcək və daha sonra evlənəcəklər.

"Ellər atası"nın həyatından Bakı ilə bağlı daha bir maraqlı epizod var. Bu epizod 1943-cü ildə Stalinin İkinci Dünya müharibəsinin nəticəsini faktiki olaraq qabaqcadan həll etməsi məşhur Tehran konfransına səfəri ilə bağlıdır. Serqey Brilyovun "Vesti v subbotu" verilişinin növbəti efiri həmin səfərin marşrutuna həsr edilmişdi.

1943-cü il noyabrın 25-nə keçən gecə Kuntsevo dəmiryolu platformasından bir qatar yola düşdü. Bu qatarın marşrutu haqqında bir qrup şəxsdən başqa heç kəs heç nə bilmirdi. Qatar Stalinqrada çatandan sonra Kotelnikovo tərəfə dönür, Qızlar və Mahaçqaladan keçərək Bakıya gedirdi. Liter qatarının hərəkətinin maksimal təhlükəsizliyini təmin etmək üçün mazutla dolu parovozdan istifadə etmək qərara alınmışdı. Buna görə qatarı Bakıya qədər aparan parovozun briqadası cəmi iki nəfərdən ibarət idi - maşinist və onun köməkçisi.

Sergey Brilyov deyib: "Biz Stalinin marşrutu haqqında bütün xatirələri, bütün versiyaları araşdırdıq. Bir versiyaya görə, Stalin Moskvadan uçub, təyyarə Krasnovodskda yerə enib, sonra İranın Ənzəli limanına qədər katerdə üzüb keçib və oradan Tehrana gedib, yəni ümumiyyətlə Bakıda olmayıb".

TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman isə bu barədə başqa fikirdədir: "Bu versiyaların müəlliflərini incitmək istəmirəm, amma bunlar hamısı miflər və əfsanələrdir".

Mixail Qusman Stalinin tərcümeyi-halında bu mübahisəli epizod haqqında öz atası Solomon Qusmandan eşidib. İxtisasca həkim olan Solomon Qusman 1941-ci il iyun ayında cəbhəyə göndərilmiş, amma 1943-cü ildə gözlənilmədən, içərisində xüsusi əhəmiyyətli sərnişinləri olan liter qatarının Bakıya gəlməsi haqqında depeşa alındıqdan sonra geriyə, Bakıya çağırılmışdı. Qatar Stalini aparırdı...

Mixail Qusman deyib: "Atam danışırdı ki, kortej şəhərə tərəf hərəkət etdi, dağüstü parka qalxdı (həmin park indi də mövcuddur), amma heç kim maşınlardan çıxmırdı. Stalin yalnız pəncərəni saldı. Şəhərdə işıqlar yanırdı. Onlar bir neçə dəqiqə orada dayandılar və Teymur Quliyevin bağına getdilər, Stalin



gecəni orada keçirdi. Və səhər tezdən, saat altıda onlar bağdan çıxdılar və artıq səhər saat yeddidə təyyarə Tehrana yola düşdü".

Tehran konfransında Çörçill Stalinə bir qılınc təqdim etdi. Həmin qılıncın tiyəsində bu sözlər yazılmışdı: "Stalinqradın polad kimi möhkəm vətəndaşlarına, Britaniya xalqının heyranlıq əlaməti olaraq Kral VI Georqdan".

Bu sirli marşrutla bağlı daha bir əlamətdar hədiyyə var. Stalinqrad dəmir yolunun Kotelnikovo stansiyasında Stalin dəmiryolçularla və stansiyanın depo işçiləri ilə görüşüb. Həmin görüşün iştirakçıları 1949-cu ildə Stalinin 70-illiyi şərəfinə bu əlamətdar hadisə haqqında xatirə kimi, sovet hökuməti nümayəndə heyətinin Tehran konfransına getdiyi qatarın maketi şəklində stolüstü mürəkkəbqabı dəsti hazırlayıb onu generalissimusa hədiyyə edəcəklər. Hazırda bu hədiyyə "Stalinqrad vuruşması" muzeyqoruğun fondlarında saxlanılır.

# Tacir Şahmalıoğlu ilə "Bayatı-Şiraz" söhbəti...



***Qarabağ nisgilini, qabıq bağlamayan yaramızı, vətənə olan müqəddəs hisslərimizi məhz bu avaz ifadə etdi illərlə. Tacir Şahmalıoğlunun 12 yaşında oxuduğu "Bayatı-Şiraz"ı hər dinlədiyimizdə iliklərimizə qədər hiss etdik Qarabağın yoxluğunu, torpaqlarımızın bağrını qanadan düşmənin ayaq səslərini. Ancaq etiraf edək ki, 30 ilə yaxın müddətdə bizi Qarabağdan, Qarabağı da bizdən ayırmayan, ayrılmağa qoymayan məhz 12 yaşlı Tacirin "Bayatı-Şiraz"ı oldu.***

Bəs heç düşünmüsünüzmü bu mahnı necə yaranıb?

Tacir Şahmalıoğlunun özünü dinləyək: "Bayatı Şiraz"ın yaranma tarixi 1976-cı ildədir. Bizim bədii rəhbərimiz Murad Rzayev eşidib ki, Sarıcalı kəndində belə bir uşaq var. Gəlib atamın yanına dedi ki, bu uşağı burda paslanmağa qoymayın, verin mənə, Bakıya aparım. 1977-ci ildə köhnə Lenin sarayı, indiki Heydər Əliyev sarayında bizim konsertimiz var idi. Mən səhnənin arxasında idim, səhnəyə çıxmaq üçün növbəmi gözləyirdim. İlk olaraq səhnədə ariya səslənməyə başladı Bethovenin əsərindən. Səhnənin arxasında həmin qalın səsli kişi ariyanı oxumağa başladı. Musiqi məni təsirləndirdi, düşdü dilimə. Yavaş-yavaş başladım zümzümə etdim, "Bayatı-Şiraz"ı oxudum öz-özümə".

12 yaşlı Tacir öz-özünə etdiyi o zümzüməni müəllimi Murad Rzayevlə bölüşmək qərarına gəlir: "Murad bəy, sizə bir şey var ki, onu oxumaq istəyirəm icazə versəniz. Dedi ki, oxu görüm. Qarmonçalan Elçin Cümşüdoğlu tez qarmonu götürdü, uşaqlardan biri zərbi, Murad müəllim özü də tarı götürdü, "Bayatı-Şiraz" üstündə. Oxudum, Murad müəllim özü də məəttəl qaldı ki çox gözəl, maraqlı ifa oldu. Dedi ki, Abbas Səhhətin "Vətən" şeirinin sözlərini kim bilir? Uşaqlardan biri dedi ki, mən bilirəm. Çünki bizim ətrafımızda qiraətçilər də olurdu. Murad müəllim dedi ki, gəl "Bayatı-Şiraz"ı Abbas Səhhətin misraları ilə oxu. Yəni oxuduğum kimi (oxuyur). Bir müəllim kimi mənə yol göstərdi, mən də oxudum".

30 illik yurd həsrətimizin sona çatdığı, qələbəmizin sevincini doya-doya yaşadığımız bu günlərimizdə də bizə ruh verən təkrarsız avazdır "Bayatı-Şiraz". Yanıb-yaxıla dinlədiyimiz bu muğamı artıq nisgillə, həsrətlə yox, sevinc və coşğu ilə dinləyirik. Hər misrasında Vətən duyulan sevgi var, Qarabağ var, qələbə var "Bayatı-Şiraz"da. Elə muğama can verən Tacir Şahmalıoğlu da ilk dəfə qələbə sevinci ilə yenidən zümzümə etdi "Bayatı-Şiraz"ı.

Müğənni ifasının uşaqlıqdakı kimi cazibədar alınmadığını özü də etiraf edir. Tacir Şahmalıoğlu hesab edir ki, "Bayatı-Şiraz" toxunulmazdır. Bu səbəbdən özünün ifasında şöhrət tapan bu muğamı hətta oğlunun da oxumasına icazə verməyib: "Bu musiqi, bu improvizə əvəzolunmazdır. Bu toxunulmaz bir şeydir, buna niyə toxunurlar ki? Bu elə bir musiqidir ki, Azərbaycanın qəmli günündə də, sevincli günündə də insanlar bunu sevir, dinləyir. Ruhi qida kimi əsgərlərimizə ilham verdi bu muğam. Bütün Azərbaycan xalqı bu mahnını ürəklərinin üzərində gəzdirir. Ona görə də bu musiqi toxunulmazdır. Mən çox xahiş edirəm ki, buna toxunmasınlar, dəyməsinlər!"

Doğulduğu Ağdam rayonunun da işğaldan azad olunmasından ilhamlanan ifaçı bu münasibətlə qələmə aldığı şeirdə də "Bayatı-Şiraz"ın hər zaman təravətli qalacağına eyham vurub:

Qoynunda gəzdiyim qoca dağlarda,
Gənclik illərimin sirləri yatır.
Sonalı göllərdə, buz bulaqlarda
Qəlbimi sızladan illəri yatır.
Mən dağlar qoynunda dünyaya gəldim,
Torpağı hər zaman müqəddəs bildim,
Qəlbimdən silinməz Vətəndir dərdim,
Çünki orda qeyrətli oğullar yatır.
Özüm qocalsam da, nəğməm təzədi,
Milyon insanların könlün bəzədi,
Tacirəm, sevənlərim, sözüm sizədi,
Qəlbimdə hələ neçə nəğmələr yatır.

Qarabağımıza olan sevgimizin, Vətənə olan müqəddəs hisslərimizin şərhidir "Bayatı-Şiraz". Səslən, "Bayatı-Şiraz", başını dik, avazın uca olsun! Hər qarışı şəhid qanıyla sulanan, çölünə, düzünə Vətən dediyimiz torpaqların səmasına ucalsın səsin! Qarabağdan, Şuşadan bir daha əskilməsin avazın!

# Qarabağın xalça xəritəsi

***Qarabağın hər şəhərinin, hər kəndinin özünəməxsus xalça ənənələri var. Tarixən burada istehsal olunan xalçalar bütün dünyada əks-səda doğurub. Bu diyarın istedadlı sənətkarları əsrarəngiz xalçalar toxuyaraq ilmələrdə öz dünyagörüşünü, həyat fəlsəfəsini, bədii zövqünü əks etdirib.***

İkinci Qarabağ müharibəsi günlərində Azərbaycan Milli Xalça Muzeyi "Qarabağ xalça xəritəsi"ni hazırlayaraq izləyicilərə təqdim edib.

Qeyd edək ki, bu xəritədə hər bir şəhərə, rayona aid xalça nümunələri ağ-qara rənglərdə təsvir olunub. Müqəddəs torpaqlarımız işğaldan azad olunduqca "Qarabağ xalça xəritəsi"




də al-əlvan rənglərə boyanıb.

Bu gün isə nəhayət ki, səbirsizliklə gözlədiyimiz gün gəlib çatdı. Artıq "Qarabağ xalça xəritəsi"ni tam rənglənmiş şəkildə izləyicilərə təqdim edilir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, rəşadətli ordumuzun qüdrəti sayəsində illərdir Qarabağ həsrəti çəkən insanlarımız öz yurdlarına qayıdacaqlar. Qız-gəlinlərimiz yenidən Azərbaycan xalqının ruhunu, hisslərini özündə əks etdirən əsrarəngiz, tayı-bərabəri olmayan birindən nəfis xalçaları Qarabağda toxuyacaqlar.

# Azərbaycanlı fotoqraflar beynəlxalq fəxri adlara layiq görülüblər

***"Gilavar" Azərbaycan Foto Klubunun dəstəyi ilə azərbaycanlı fotoqraflar Beynəlxalq Foto Sənəti Federasiyasının (FIAP) fəxri adlarına layiq görülüblər. Beynəlxalq Foto Sənəti Federasiyası dünyada UNESKO tərəfindən tanınan yeganə fotoqrafiya təşkilatıdır. Bu qurumun fəxri adlarını əldə etmək üçün fotoqraflar xüsusi qaydalara əməl etməklə FIAP himayədarlığı altında dünyanın müxtəlif ölkələrində keçirilən fotomüsabiqələrdə iştirak etməli, onların təqdim etdiyi fotolar bədii və texniki ustalıq baxımından bəyənilməli, mükafatlar qazanmalıdır. Daha sonra qurumun Direktorlar Şurasının və Bədii Komissiyasının üzvlərinin böyük əksəriyyətinin səs çoxluğu və qərarı tələb olunur.***

İldə bir dəfə təqdim olunan fəxri adlara bu il Azərbaycandan 5 fotoqraf layiq görülüb. Belə ki, Nurlan Tahirli, Valeriy Xlızov, Aleksandr Firstov Beynəlxalq Foto Sənəti Federasiyasının "Rəssam"ı, Rəşad Mehdiyev "Mükəmməllik", İlqar Cəfərov isə "Mükəmməlik/bürünc" dərəcələrini əldə ediblər. Bununla da 2016-cı ildən başlayaraq beynəlxalq fəxri ad alan azərbaycanlı fotoqrafların sayı 7-ə yüksəlib.

Qeyd edək ki, İlqar Cəfərov və Rəşad Mehdiyev bir əsrlik tarixi olan Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) fotomüxbirləridir. Hər iki fotoqraf Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda başlamış Vətən müharibəsi zamanı cəbhəyanı bölgələrdə və işğaldan azad olunmuş ərazilərdə çəkilişlər aparıblar.

# Musiqili Teatr növbəti layihəsini Laçına ithaf edib



***Azərbaycan Dövlət Akademik Musiqili Teatrı bir-birinin ardınca maraqlı layihələrini uğurla davam etdirir.***

Teatrın mətbuat xidmətindən "Unikal"a bildirilib ki, yaradıcı heyətin tamaşaçılara təqdim etdiyi yeni layihə Laçın rayonunun işğaldan azad olunmasına həsr edilib.

Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayevin bədii rəhbərliyi ilə ərsəyə gələn "Laçına ithaf" kompozisiyası artıq sosial şəbəkə izləyicilərinə təqdim olunub.

Kompozisiyada ABŞ-da yaşayan həmyerlimiz, kamança ustası İmamyar Həsənovun (ANNA RF qrupu ilə) ifasında "Ay Laçın" xalq mahnısından və tanınmış jurnalist, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızının "Laçın" şeirindən istifadə olunub. İdeya müəllifi Əməkdar incəsənət xadimi Əsgər Əsgərov, xormeysteri Əməkdar artist Vaqif Məstanov, baletmeysteri Əməkdar artist Zakir Ağayev olan gözəl sənət işinin quruluşçu rejissoru Samir Qulamov, quruluşçu operatoru Hikmət Şahverdizadə, quruluşçu rəssamı Vüsal Rəhimdir.

Teatrın istedadlı aktyorları, vokal ifaçıları - Əməkdar artist Səidə Şərifəliyeva, Mehriban Zaliyeva, Gültac Əlili, Aydan Həsənova, Səmədzadə Xasiyev, Əmrah Dadaşov və Emin Zeynallının qəlbi ovsunlayan, məlahətli səsləri, balet artistləri - İranə Kərimova və Məhəmməd Abdullayevin təsirli perfomansı sanki bizi doğma yurd yerlərimizə səsləyir. Təqdimatın özündə də elə bələcə qeyd olunur: "Yolumuz Laçınadır!"

Kollektiv üzvləri - istər teatrın aktyor heyəti, istər xor, istərsə də balet truppasının artistləri bundan sonrakı planlarını Şuşa, Laçın, Ağdam, Fuzulidə və digər doğma məkanlarımızda davam etdirmək arzusunda olduqlarını bildirdilər.



# Qanvermənin faydaları və zərərləri

***Qana ehtiyacı olanlar üçün qan vermək həm vacib, həm də savab işdir. Bir çox xəstələr vardır ki, qan çatmazlığı səbəbindən həyatını itirir. Hətta elə xəstələr var ki, onlara vaxtaşırı qan köçürmək lazım gəlir. Qəza zamanı qan itirən xəstələrə və bəzi qan xəstəlikləri zamanı qanköçürməyə daha çox ehtiyac olur. Hər bir sağlam adam ildə 2 dəfə qan verə bilər. Qan vermək insanın sağlamlığı üçün faydalıdır. Çəkisi 50 kiloqram və yaşı 18-65 arasında olan hər bir sağlam adam qan verə bilər. Çünki, qanvermə zamanı qan hüceyrələri yenilənir.***

Amma qanvermənin bəzi zərərləri də var. Adətən qan verən adama meyvə şirəsi və ya şokolad verirlər. Çünki ilk dəqiqələrdə qan verən adamda baş hərlənməsi ola bilər.

Qanvermədən sonra donorda aşağıdakı əlamətlər baş verə bilər:

- ürək bulanma
- baş gicəllənmə
- titrətmə və tərləmə
- stres
- baş hərlənmə
- yıxılma hissi
- əzələlərdə və dodqlarda qıcolmalar

Qanvermənin faydaları:

- orqanizmdə qan hüceyrələri təzələnir
- qanda yağın miqdarı aşağı düşür
- ürək xəstəlikləri riski 90% azalır
- qan vermək bədəni cavanlaşdırır
- sağlam həyat tərzi üçün ildə 1 dəfə qan vermək faydalıdır
- qan verən adam özünü yüngül və rahat hiss edir
- qan verən adamın qanyaradıcı orqanları fəaliyyətini gücləndirir və yeni qan yaratmaq üçün hərəkətə başlayır.

# Soyuq duş qəbulunun 10 faydasi

1. Soyuq duş qəbul etmək bədən müqavimətini artırır. Bu səbəbdən də soyuq duş qəbul edən adamlar soyuqdəymə xəstəliyinə az yoluxurlar.
2. Soyuq duş qəbul etmək qan dövranını sürətləndirir, ürək - qan - damar sistemi fəaliyyətini artırır. Soyuq su qan damarlarını daraldır və qanın sürətlə axmasını təmin edir.
3. Soyuq duş qəbul etmək bədənin temprarurunu aşağı salır, stressi aradan qaldırır.
4. Soyuq duş qəbul etmək metobolizmi sürətləndirir, yağ hüceyrələrini parçalayır, onların yenidən əmələ gəlməsinin qarşısını alır.
5. Depressiyanı aradan qaldırır. Virciniya Tibb Universitetinin alimlərinin araşdırmalarına görə soyuq duş beyindəki mavi nöqtələri oyadır. Mavi nöqtələr beyinin adrenalin ifraz edən hissəsində olur. Adrenalin depressiyanın qarşısını alan bir hormondur.
6. Soyuq duş limfa sistemininindəki atrıq maddələrin bədəndən çıxarılmasını sürətləndirir.
7. Soyuq duş ağ ciyərləri genişləndirir, nəfəsalmanı rahatlaşdırır.
8. Soyuq duş dəridə sızanaq əmələgəlməsinin qarşısını alır.S açları soyuq su ilə yuduqda daha parlaq olurlar.
9. Soyuq duş enerji və canlılıq yaradır.
10. Soyuq duş hormonların mübadiləsini artırır, sperma sayını çoxaldır. Buna görə də uşaq sahibi ola bilməyənlərə soyuq duş qəbul etmək faydalıdır.

# Ağciyərlər koronavirusdan necə sağalır?

***İnsanın ağciyərləri koronavirusdan əziyyət çəkdikdən sonra özözünə bərpa olunur.***

“Unikal” oxu.az-a istinadən bildirir ki, Rusiyalı pulmonoloq Aleksandr Karabinenko ”Sputnik” radiosuna bu prosesin necə sürətləndiriləcəyindən danışıb.

Koronaviruslu sətəlcəmin keçirilməsi bir müddət aradan qaldırılması lazım olan nəticələrə səbəb olur.

Onun sözlərinə görə, xəstə insanın ağciyərində geniş fibrotik dəyişiklik zonası qalır, öskürək və nəfəs darlığı uzun müddət, bir ay yarıma qədər müşahidə edilə bilər. Ancaq



bədənə müdaxilə etməsəniz, ağciyərin tam bərpa prosesi baş verəcək:

”Bədənimizdə bəzi hüceyrələr öldükdə, digərlərinin doğulması və ağciyərlərin quruluşunun bərpa edilməsi ilə bağlı yenilənmə prosesi var, ancaq bəzi hallarda, insan özünü məhv edərsə, bu yarımçıq baş verir”.

O qeyd edir ki, siqaret çəkən insanın ciyərlərində yaxşılaşma baş vermir. Həmin vəziyyətdə, bu yalnız pis bir vərdiş deyil, yavaş-yavaş baş verən intihardır.

”Orta hesabla ağciyərin bərpası üç aydan bir ilə qədər davam edir. Çox şey immunitetin vəziyyətindən və insanın fiziki quruluşundan asılıdır”, - deyə mütəxəssis bildirib.

# Tomoqrafiyanın zərərləri

***Tomoqrafiya müasir tibbi texnologiyanın təməl diaqnostika vasitələrindən biridir. Bir çox xəstəliklərə diaqnozun qoyulmasında tomoqrafiyanın nəticələri əsas götürülür. Tomoqrafiya diaqnozların qoyulmasında həkimlərin əsas köməkçisi sayılır.***

Bu texnoloji aparatin tibbi diaqnostikada nə qədər faydası varsa, insan orqanizminə bir o qədər zərəri var. Xəstəliklərin diaqnozunun təsdiqlənməsi üçün tomoqrafiyanın nəticələri vacibdir, amma ehtiyac olmadan bu apartdan keçmək orqanizmə radiasiya şüası qəbul etmək deməkdir. Bəzi tibb mütəxəssisləri tomoqrafiyadan 5 ildən bir keçməyi məsləhət görür. Tomoqrafiya orqanizmə rentgendən 400 dəfə çox radiasiya şüası ilə təsir edir. Tez-tez tomoqrafiyadan keçən adamların orqanizmi radiasiya şüaları ilə zəhərlənmiş olur.

Xəstələrə yanlız xəstələndiyi zaman tomoqrafiya çəkdirmək tövsiyə olunur. Zərurət olmadan, tez-tez çəkilən tomoqrafiya xərçəng xəstəliyinə səbəb ola bilər. Hər tomoqrafiya çəkilişində orqanizm 14-21 mqy-milliqray radiasiya qəbul edir. Bu atom bombasından 2,5 kilometr uzaqlıqda olan adamın aldığı radiasiyanın dozası ilə eynidir.Tomoqrafiya vacib olduğu zaman çəkilməlidir. Bəzi xəstəliklər var ki, onlara diaqnoz qoymaq üçün bu vacibdir. Məsələn, beyin qansızması, xərçəng kimi xəstəliklərdə buna ehtiyac böyükdür. Radiya-



siyanın təsirləri orqanizmdə 20 il müddətində qala bilir. Buna görə də tomoqrafiyadan ehtiyac olmadıqca istifadə etmək lazım deyil.

# Yavaş yeməyin 5 faydası

**1. İştahanın azalması.**

Əgər yavaş-yavaş yemək yesəniz iştahanız azalacaq. Qida mədəyə düşdükdən 15-20 dəqiqə sonra beyinə doyma siqnalı çatır. Ona görə də ləng yemək lazımdır ki, vaxt getsin və beyinə siqnal çatsın. Beyin bədənin tox olduğunu hiss etsin deyə qidanı çoxlu çeynəmək lazımdır. Tez-tez çeynəyib udulan qida mədəni doldurur, amma adamı doydurmur. Beləliklə də adam çox yeyir və mədəsi böyüyür. Mədə böyüdükcə qidaya olan tələbat artır, daha çox yemək lazım gəlir və bununla da adam kökəlir.

**2. Çəkiyə nəzarət.**

Araşdırmalar qida qəbuluna sərf olunan zamanla bədənin çəkisinin artması arasında əlaqə olduğunu sübut edib.

**3. Həzm sisteminin yaxşılaşdırılması.**

Hamıya məlumdur ki, həzm qidanın ağızda çeynənməsindən başlanır. Çeynənən zaman qidanın üzərinə ağız suyu tökülür ki, bu da qidanın həzm olunması üçün vacib elementlərdən biridir. Qida ağızda nə qədər çox çeynənərsə həzm bir o qədər yaxşı olar.

**4. Yediyiniz hər qidadan ləzzət almağa çalışın.**

Siz qidanı yavaş-yavaş çeynədikcə qidanın dadını daha yaxşı hiss edirsiniz. Yalnız yavaş çeynənən zaman qidanın dadı, ləzzəti və ətri hiss edilir və yediyiniz sizə ləzzət edir.

**5. Kəmiyyət keyfiyyətin əleyhinədir.**

Yediyi qidanın fərqinə varmayan adamlar əllərinə nə keçdi yeyirlər. Onlar üçün qidanın keyfiyyəti maraqlı deyil. Belə insanlar qiyməti ucuz, çəkisi çox olan qidaları yeyirlər və kökəlirlər. Əslində isə az və keyfiyyətli qida qəbulu sağlamlıq üçün daha çox faydalıdır.

Nuş olsun!

# Sitogenetik müayinə

***Reproduktiv sistemin patoloji vəziyyəti xromosom anomaliyaları, gen mutasiyası və xəstəliyə irsi meyillik ilə bağlı olur.***

Sitogenetik müayinəni genetiklər icra edirlər.

Müayinənin aparılmasına göstərişlərə cinsiyyət orqanlarının olmaması və cinsi inkişafın gecikməsi, cinsiyyət orqanlarının anomaliyası, birincili amenoreya, kiçik müddətlərdə adəti düşüklər, sonsuzluq, xarici cinsiyyət orqanlarının quruluşunun pozulması aiddir.

Xromosom anomiyalarının markerləri çoxsaylıdır və əksər hallarda gizli somatik inkişaf anomaliyası və displaziyası, eləcə də cinsiyyət xromatinin dəyişiklikləri selikli qişadan şpatel ilə götürülür. Xromosom anomaliyasının son diaqnozunu yalnız kariotipin təyini əsasında müəyyən etmək olur.

Kariotipin müayinəsi üçün göstərişlər aşağıdakılardır:

- xromatinin miqdarındakı dəyişiklikər
- gizli somatik inkişaf anomaliyası
- displaziyalar
- inkişaf qüsurları
- çoxsaylı eybəcərlik
- ailə anamnezində erkən abortlar.

Kariotipin təyini qonad diskineziyası olan xəstələr üçün vacib müayinə sayılır.

# "Qarabağ" 100 min manat pul qazandı



***"Qarabağ"a UEFA tərəfindən pul vəsaiti daxil olub.***

"Unikal" qəzeti xəbər verir ki, 46 390 avro (95 577,317 manat) AFFA-nın vasitəçiliyi ilə "Qarabağ" klubunun hesabına köçürülüb.

Belə ki, Azərbaycan Premyer Liqasının UEFA reytinqinə əsasən tutduğu mövqe nəzərə alınmaqla, cari mövsüm avrokuboklarda mübarizəni davam etdirən klub olaraq 20 min, UEFA Avropa Liqasının 2019/2020-ci il mövsümündən balans olaraq 26 390 avro Ağdam klubunun xəzinəsinə köçürülmə edilib.

# "Real"ın baş məşqçi postuna 2 namizəd

***İspaniyanın "Real" klubunda baş məşqçi Zinəddin Zidanı əvəzləmək üçün daha bir namizəd müəyyənləşib.***

"Unikal" qəzeti xarici KİV-ə istinadən xəbər verir ki, "kral klubu" keçmiş futbolçusu Raul Qonsalesi baş məşqçi postuna gətirmək niyyətindədir. Hazırkı baş məşqçi Zinəddin Zidanın fəaliyyətindən razı olmayan Madrid klubu namizədləri müzakirə edir. Klubun müzakirə etdiyi əsas namizədlərindən biri də hazırda "Real"n əvəzedici komandasını çalışdıran Rauldur.




Digər namizəd isə son olaraq "Tottenhem"i çalışdıran Maurisio Poçettinodur.

Zidanın klubla müqaviləsi 2022-ci ilin yayınadək nəzərdə tutulub.

# "Neftçi"nin məşqçisi koronavirusa yoluxub



***"Neftçi" klubunda daha bir nəfər koronavirusa yoluxub.***

"Unikal" qəzeti kluba istinadən xəbər verir ki, "ağ-qaralar"ın qapıçılar üzrə məşqçisi Etibar Tarıverdiyevdə də koronavirus aşkarlanıb. Onun son test nəticəsi pozitiv olub. Komanda bu gün növbəti dəfə testdən keçəcək.

Ötən gün məşqə çıxmayan qapıçı Kamran İbrahimov və yarımmüdafiəçi Sabir Buqrin isə hazırda özlərini yaxşı hiss edir.

Daha əvvəl "Neftçi"nin baş məşqçisi Samir Abasov, onun köməkçisi Vəfadar Quliyev, müdafiəçilər Anton Krivotsyuk, Mərt Çelik, Mamadu Mbodj və Voyislav Stankoviç, həmçinin yarımmüdafiəçi Fəhmin Muradbəylinin testi müsbət çıxıb.

"Neftçi" Azərbaycan Premyer Liqasında növbəti oyununu dekabrın 5-də, səfərdə "Sabah"a qarşı keçirəcək.

# Ronaldo 750-ya çatdı, yeni rekorda imza atdı

***"Yuventus" UEFA Çempionlar Liqasının qrup mərhələsinin 5-ci turu çərçivəsində "Dinamo"nu (Kiyev) 3:0 hesabı ilə məğlub edib.***

"Unikal qəzeti xəbər verir ki, bu oyunda "qoca sinyora"nın ikinci qolunu vuran hücumçusu Kriştiano Ronaldo rekordla yadda qalıb. Bu, portuqaliyalı futbolçunun turnirdəki ev oyunlarında vurduğu 71-ci qolu olub. O, bu göstəricidə "Barselona"nın hücumçusu Lionel Messini geridə qoyub və mütləq rekord sahibi olub.

Həmçinin, "Dinamo"ya vurduğu qol Ronaldonun karyerasında 750-ci qolu olub.



# Belarus siyasi səbəblərdən dünya çempionatından məhrum edilə bilər

***23-24 aprel 2022-ci ildə Belarusun paytaxtı Minskdə keçiriləcək idman yerişi üzrə komandalararası dünya çempionatının məkanı dəyişdirilə bilər.***



Buna səbəb Beynəlxalq Olimpiya Komitəsinin (BOK) ötən həftə Belarus Milli Olimpiya Komitəsini (BMOK) Olimpiya Hərəkatının pozulmasında ittiham etməsindədir.

"Unikal" qəzeti xəbər verir ki, BMOK-un prezidenti Aleksandr Lukaşenko 2008-ci il Olimpiadasının dekatlon üzrə gümüş mükafatçısı Andrey Krauçenkoya qarşı siyasi motivlərdən istifadə etməsində günahlandırılır. Krauçenko yeni prezident seçkilərinin keçirilməsi ilə bağlı açıq məktub yazdıqdan sonra millidən qovulub, daha sonra Lukaşenkoya qarşı nümayişlərdə iştirak etdiyi üçün həbs edilib.

Qeyd edək ki, bu yaxınlarda Avropa Atletika Federasiyası komandalararası Super Liqanın Minskdən Polşanın Xojuv şəhərinə keçirildiyini açıqlayıb. Lakin səbəb kimi siyasi yox, Minskin texniki səbəblərdən yarışı keçirməkdən imtina etməsi göstərilib.

# Neymar Avropa Liqasını aşağıladı

***Bu gün qrup mərhələsinin V turunun oyunları keçiriləcək Avropa Liqası növbəti dəfə aşağılanıb.***

"Unikal" qəzetinin məlumatına görə, əksər aparıcı klubların barmaqarası yanaşdığı turnirə Neymar da yaxşı baxmır.

Çempionlar Liqasında mübarizə aparan PSJ-nin VI tur ərəfəsindəki perspektivini dəyərləndirən braziliyalı hücumçu 3-cü yerin sahibi kimi Avropa Liqasına yuvarlanmağı özünə sığışdırmadığını gizlətməyib: "Mən PSJ-yə ona görə gəlməmişəm ki, Avropa Liqasında oynayım".

Qeyd edək ki, H qrupunda son tur öncəsi üç komanda - "Mançester Yunayted", PSJ və "Leypsiq"in 9 xalı var. Son turda "Başakşəhər"lə qarşılaşacaq parislilər 1/8 finala yüksəlmək üçün ən azı 1 xal qazanmalı, ya da uduzsa, digər görüşün heç-heçə bitməməsini arzulamalıdır.

# 11 ayda 42 qol - Levandovski zirvədə

***2020-ci ildə bütün turnirlərdə ən çox qol vuran futbolçuların siyahısı açıqlanıb.***

"Unikal" qəzetinin məlumatına görə, Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (İFFHS) cədvəlinə Robert Levandovski başçılıq edir. "Bavariya"nın polşalı hücumçusu bu ilin başa çatan 11 ayı ərzində 42 qol vurub. Dortmund "Borussiya"sının norveçli gənc ulduzu Erlinq Haland 39 dəfə fərqlənib. İlk "üçlüy"ü Kriştiano Ronaldo qapayır. "Yuventus"unun portuqaliyalı futbolçusu 37 qola imza atıb. Romelu Lukaku (Belçika, "İnter") 34, Rauno Sappinen (Estoniya, "Flora") 32, Junior Neqrao (Braziliya, "Ulsan") 30 qolun müəllifidir. Qeyd edək ki, siyahıda ən azı 22 qol vuranlar yer alıb. Buna 29 futbolçu nail olub.

# Premyer Liqada transfer qadağası - gənclər üçün

***İngiltərə Premyer Liqasında gənc oyunçuların keçidi ilə bağlı yeni qərar tətbiq olunacaq.***

"Unikal" qəztinin məlumatına görə, Böyük Britaniyanın Avropa İttifaqından çıxması ilə bağlı olaraq klublar 2021-ci il yanvarın 1-dən sonra 18 yaşadək futbolçu transfer edə bilməyəcək.

Həmçinin, 21 yaşadək oyunçuların transferinə məhdudiyyət qoyulacaq. Hər klub eyni transfer dövründə maksimum 3 belə oyunçu ilə güclənə bilər. Legionerlər isə Böyük Britaniyada işləmək hüququ almaq üçün müəyyən ballar toplamalıdır. Bu göstərici onun yığmadakı oyun sayı və ölkəsinin millisinin FİFA reytinqindəki mövqeyindən asılı olacaq.

Səhifəni hazırladı: Aygün İlqarqızı